**Hər kəs ədalətli olacaq**

www.adalet.az

# ƏDALƏT

Qurucusu: Adil Minbaşıyev | *İctimai-siyasi, hüquq qəzeti* | Qəzet 1990-cı ilin iyulundan çıxır | № 44 (6137) 21 noyabr 2025-ci il | Qiyməti 40 qəpik

# AĞDAM ŞƏHƏRİNƏ KÖÇ BAŞLADI



## "Azərbaycan və Gürcüstan təyyarə qəzası baş verən andan bütün imkanlarını səfərbər etdi"



**Azərbaycan və Gürcüstan təyyarə qəzası baş verən andan bütün imkanlarını səfərbər etdi.**

Adalet.az xəbər verir ki, bunu Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Nazirlər Kabinetinin iclasından sonra xalqa müraciətində deyib.

"Qonşu ölkələr təyyarə qəzası ilə bağlı bütün məsələlərdə əməkdaşlıq etdilər. Qısa müddətdə təyyarədə həlak olan şəxsi heyətin nəşləri və avialaynerin "qara qutusu" tapıldı", - o bildirib. Ərdoğan əlavə edib ki, "qara qutu"nun təhlilindən sonra hadisənin səbəbi müəyyənləşəcək.

Qeyd edək ki, noyabrın 11-də Gürcüstan ərazisində Türkiyə Hərbi Hava Qüvvələrinə məxsus "C130" tipli hərbi yük təyyarəsi qəzaya uğrayıb. Təyyarənin qalıqları Xolaqiri monastırının yaxınlığındakı dik yamaclara səpələnib və yerli sakinlər tərəfindən aşkar edilib. Təyyarədə olan 20 nəfərin hamısı həlak olub. Onların nəşi tapılıb və Türkiyəyə göndərilib.

*Rüstəm Hacıyev*

## Makron ümid edir, müharibə davam edir...

Bax:səh-4

## QƏDİR, SƏSİNİ YARAMIN ÜSTÜNƏ SARIYIM



**Bu misra mərhum şair Qaçay Köçərlinindir. Oğlu Birinci Qarabağ müharibəsində şəhid oldu və özü ölənədək Qədirin səsini yarasının üstünə sarıdı.**

Bu gün ilahi səsi olan, yaralarımızın üstünü sarıyan səs olan Qədir Rüstəmovun anadan olmasının 90-cı ildönümüdür.

O qədər Ağdam arzusuyla yaşadı ki, doğum günü də görə bilmədiyi Ağdamın zəfər gününə təsadüf etdi. Yəqin ki, bu əvəzsiz sənətkarın 90 illik yubileyi dövlət tərəfindən də yüksək səviyyədə qeyd olunacaq.

## ABŞ Venesuela ilə gizli danışıqlar aparır

**New York Times yazır ki, Birləşmiş Ştatlar Venesuela ilə gizli danışıqlar aparıb. Danışıqlarda ölkə prezidenti Nikolas Maduronun gələcək taleyi və ABŞ-ın Venesuela neftinə girişinin təmin olunması məsələsi müzakirə olunub.**

Qəzetin məlumatına görə, danışıqlar zamanı Venesuela tərəfinin, Maduronun iki ildən sonra səlahiyyətlərindən əl çəkəcəyi təklifiylə ABŞ tərəfi razılaşmayıb. Eyni zamanda amerikan tərəfi Vaşinqtonun Venesuelanın neft sahəsinə girməsinə razılıq verilməsi məsələsi də müzakirə olunub.

Məqalə müəllifinin fikirincə, tərəflər arasında danışıqlara başlanması, ABŞ-Venesuela böhranlının sülh yolu ilə həll ediləcəyinə ümid yaradır. Bu arada Nikolas Maduro ABŞ prezidenti Donald Trampla görüşə hazır olduğunu bəyan edib.

## *Cinayətdə şübhəli bilinən 31 nəfər saxlanıldı*



**Noyabrın 19-da ölkə ərazisində qeydə alınan 37, əvvəlki dövrlərdən bağlı qalan 6 cinayətin açılması polis əməkdaşları tərəfindən təmin olunub.**

DİN-in Mətbuat Xidmətindən Adalet.az-a verilən məlumata görə, axtarışda olduğuna görə ümumilikdə 213, o cümlədən borclu şəxs qismində axtarışda olan 194 nəfər saxlanılaraq aidiyyəti üzrə təhvil verilib.

Narkotiklərlə əlaqəli 16, qanunsuz saxlanılan silah-sursatın götürülməsi və aşkarlanması ilə bağlı 10 fakt müəyyən edilib.

Cinayət törətməkdə şübhəli bilinən 31 nəfər saxlanılıb.

*Aqil ABBAS*
*aqilabbas@rambler.ru*

# BU DÜNYADAN RƏMİŞ KEÇDİ



***Dünyanın ən xoşbəxt və ən bədbəxt insanı idi Rəmiş. Niyə ən xoşbəxt və ən bədbəxt? Darıxmayın, indi açıqlayacam.***

***Yazılarımda və televiziya müsahibələrimdə Rəmiş haqqında belə bir fikir söyləmişdim: "Rəmiş nə atadı, nə anadı, nə bacıdı, nə qardaşdı, nə vətəndaşdı, heç adam da deyil. Rəmiş başdan-ayağa ruhdu - yarı mələk, yarı şeytan. Bəzən şeytan mələyi üstələyir".***

***Bu da Rəmişin bərk xətrinə dəymişdi. Amma dedim ki, Rəmiş, mən sözümün üstündə qalıram.***

***Rəmiş niyə dünyanın ən xoşbəxt adamıdı? Xoşbəxtliyi odur ki, bu insan ağlı kəsəndən dünyanın ən azad insanı olub, heç bir çərçivəyə sığmayıb. 250 milyon insanı çərçivədə saxlayan Sovet hökuməti onu çərçivəyə sala bilmədi. Necə istədi elə də yaşadı, türk şarkısında deyilən kimi, əgər buna yaşamaq deyirlərsə. Nə istədi yedi, nə istədi içdi, nə istədi onu elədi, nə istədi onu geyindi, hətta bəzən şəhərdə şəpitlə gəzdi. Uzun saç saxladı, mədəniyyət naziri belə onun saçını qırxdıra bilmədi. Konsertlərdə hamı eyni kostyum geydiyi halda Rəmiş cinslə çıxırdı, Zeynəb xanım da xətrinə dəymirdi. Heç kəsin qabağında əyilmədi. Təkrarolunmaz ifaları ilə milyonların sevgisini qazandı və hamı Rəmişi necə vardı elə qəbul elədi.***

**Bax:səh-3**

## GÜNÜN LƏTİFƏSİ

Dəlixanaya yeni gələn müdir dəlilərin koridorda növbəyə dayanıb divardakı bir deşikdən baxdıqlarını görür. Gəlib baxmaq istəyəndə dəlilər onu döyərək növbənin axırına göndərirlər. Həkim növbədə dayanır və iki dəfə növbəsi gəlib baxır divara, amma heç nə görmür və dəlilərdən soruşur:

**- Mən iki dəfə baxdım, heç nə görmədim, siz nə görmüsüz burda?**

Dəlilərdən biri deyir:

**- 2 dəfəyə görməzsən də, biz 2 ildi baxırıq heç nə görmürük.**

# Prezident Sərəncam imzaladı



**Prezident İlham Əliyev Azərbaycan Respublikası vətəndaşlarının 2026-cı il yanvarın 1-dən 30-dək müddətli həqiqi hərbi xidmətə çağırılması və müddətli həqiqi hərbi xidmət hərbi qulluqçularının ehtiyata buraxılması haqqında Sərəncam imzalayıb.**

Adalet.az xəbər verir ki, Sərəncama əsasən, 2008-ci ildə doğulmuş və çağırış günündək (həmin gün də daxil olmaqla) 18 yaşı tamam olmuş, habelə 1996-2007-ci illərdə doğulmuş, yaşı 30-dək olan, Azərbaycan Respublikasının Silahlı Qüvvələrində müddətli həqiqi hərbi xidmət keçməmiş, müddətli həqiqi hərbi xidmətə çağırışdan möhlət hüququ olmayan və ya müddətli həqiqi hərbi xidmətə çağırışdan azad edilməmiş Azərbaycan Respublikası vətəndaşları 2026-cı il yanvarın 1-dən 30-dək müddətli həqiqi hərbi xidmətə çağırılacaqlar.

Xidmət müddətini keçmiş müddətli həqiqi hərbi xidmət hərbi qulluqçuları 2026-cı il yanvarın 1-dən 30-dək ehtiyata buraxılacaqlar.

Nazirlər Kabinetinə bu Sərəncamın icrası üçün qanunvericilikdə nəzərdə tutulmuş tədbirləri görmək tapşırılıb.

# Prezident İlham Əliyev Latviya Prezidentinə məktub ünvanlayıb

**Prezident İlham Əliyev Latviya Respublikasının Prezidenti Edqars Rinkeviçsə təbrik məktubu ünvanlayıb.**

Məktubda deyilir:

"Hörmətli cənab Prezident,

Latviya Respublikasının milli bayramı - Müstəqillik Günü münasibətilə Sizi və bütün xalqınızı şəxsən öz adımdan və Azərbaycan xalqı adından səmimi-qəlbdən təbrik edir, ən xoş arzularımı çatdırıram.

Azərbaycan-Latviya münasibətlərinin xoş ənənələri vardır. Xalqlarımızın tarixi əlaqələri, dövlətlərarası münasibətlərimizin hazırkı yüksək səviyyəsi müxtəlif sahələrdə səmərəli əməkdaşlığımızın genişlənməsi üçün yaxşı imkanlar yaradır.

Əminəm ki, xalqlarımızın mənafelərinə uyğun olaraq ölkələrimiz arasında ənənəvi dostluq münasibətlərini möhkəmləndirmək, əməkdaşlığımızın potensialından tam bəhrələnmək üçün bundan sonra da birgə səylər göstərəcəyik.

Bu əlamətdar gündə Sizə möhkəm cansağlığı, xoşbəxtlik, işlərinizdə uğurlar, Latviya xalqına daim əmin-amanlıq və firavanlıq arzulayıram".

# İlham Əliyev: Bakı bu gün həm də beynəlxalq rəqəmsal əməkdaşlıq məkanıdır

**Ümumdünya Telekommunikasiyanın İnkişafı Konfransına ev sahibliyi edən Bakı bu gün yalnız qlobal telekommunikasiya mərkəzi deyil, həm də beynəlxalq rəqəmsal əməkdaşlıq məkanıdır.**

Bu fikir Azərbaycan Prezidenti İlham Əliyevin Beynəlxalq Telekommunikasiya İttifaqının (BTİ) Ümumdünya Telekommunikasiyanın İnkişafı Konfransının iştirakçılarına müraciətində yer alıb.

Konfrans çərçivəsində, eyni zamanda, Bakı şəhərində BTİ-nin Regional Akselerasiya Mərkəzinin açılmasının planlaşdırıldığını diqqətə çatdıran Azərbaycan Prezidenti əlavə edib:

"BTİ-nin qlobal innovasiya şəbəkəsinin bir hissəsi olacaq bu Mərkəz region üçün innovasiya və sahibkarlıq sahəsində aparıcı platformaya çevriləcəkdir".

## *Gələn ilin dövlət büdcəsi ilk oxunuşdan keçdi*



**"Azərbaycan Respublikasının 2026-cı il dövlət büdcəsi haqqında" qanun layihəsi Milli Məclisdə birinci oxunuşda qəbul edilib.**

Adalet.az xəbər verir ki, qanun layihəsi parlamentin plenar iclasında müzakirəyə çıxarılıb. Məlumat üçün bildirək ki, 2026-cı il üçün dövlət büdcəsinin gəlirləri 38609,0 milyon manat proqnozlaşdırılır ki, bu da 2025-ci ilin proqnozu ilə müqayisədə 253,0 milyon manat və yaxud 0,7 faiz, 2024-cü ilin icrası ilə müqayisədə isə 1447,2 milyon manat və yaxud 3,9 faiz çoxdur.

Dövlət büdcəsinin xərcləri 41703,6 milyon manat proqnozlaşdırılır ki, bu da 2025-ci ilin proqnozu ilə müqayisədə 296,0 milyon manat və yaxud 0,7 faiz, 2024-cü ilin icrası ilə müqayisədə isə 3990,0 milyon manat və yaxud 10,6 faiz çoxdur.

Dövlət büdcəsi kəsirinin yuxarı həddi 3094,6 milyon manat və ya ÜDM-in 2,3 faiz səviyyəsində proqnozlaşdırılır.

**Nicat**

## *"Bu gücü qorumaq üçün təhlükəsizlik sahəsinə investisiya artırılmalıdır"*

**"2026-cı il büdcəsində müdafiə və milli təhlükəsizlik üzrə 8 milyard 714,8 milyon manatlıq xərclər (xüsusi çəkisi 20,9 faiz) Azərbaycanın daxili sabitliyini, müdafiə qabiliyyətini və regional təhlükəsizlik siyasətini gücləndirməyə yönəlib".**

Bunu Milli Məclisin iclasında 2026-cı ilin dövlət büdcəsinin müzakirəsi zamanı parlamentin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin sədri, deputat Arzu Nağıyev deyib.

Komitə sədri bildirib ki, 2026-cı il üçün təhlükəsizlik büdcəsinin artırılması məsələsi bu gün müzakirə etdiyimiz ən vacib istiqamətlərdən biridir . Onun sözlərinə görə, bu qərar təkcə maliyyə məsələsi deyil, eyni zamanda Azərbaycanın müasir təhlükəsizlik konsepsiyasının reallıqlara uyğun yenilənməsi deməkdir:

"Cənab Prezidentin rəhbərliyi ilə həyata keçirilən siyasət nəticəsində Azərbaycan regionun ən güclü dövlətlərindən birinə çevrilib. Lakin bu gücü qorumaq, möhkəmləndirmək və gələcək nəsillərə ötürmək üçün təhlükəsizlik sahəsinə investisiya artırılmalıdır. Biz elə bir dövrdə yaşayırıq ki, təhlükəsizlik anlayışı artıq yalnız sərhədlərin qorunması və hərbi müdafiə ilə məhdudlaşmır. Bu gün təhlükəsizlik həm də informasiya müharibələrinə qarşı mübarizə, kibermekanda müdafiə, enerji və kommunikasiya infrastrukturlarının qorunması, ictimai sabitliyin və daxili asayişin təminatı deməkdir. Azad edilmiş torpaqlarda bərpa və yenidənqurma prosesi artıq geniş vüsət alıb. Bu ərazilərdə minalardan təmizləmə, təhlükəsizlik infrastrukturunun qurulması, polis və fövqəladə xidmətlərin formalaşdırılması davam edir. Hər bir qayıdan vətəndaşın təhlükəsizliyi dövlətin bir nömrəli vəzifəsidir. Bu isə yalnız kifayət qədər maliyyə dəstəyi ilə mümkün ola bilər.



Digər tərəfdən, dünya miqyasında müşahidə olunan geosiyasi gərginliklər, regionda baş verən hərbi-siyasi proseslər, Ermənistanın bəzi dairələrinin hələ də revanşist meyilləri təhlükəsizlik məsələlərinə daha çevik və çevrəvi yanaşma tələb edir. 2026-cı ildə təhlükəsizlik büdcəsinin artırılması həm də kibertəhlükəsizlik, sərhəd mühafizəsi, xüsusi xidmət orqanlarının texniki təchizatının yenilənməsi, daxili təhlükəsizlik və fövqəladə hallar sistemlərinin gücləndirilməsi istiqamətlərində atılacaq real addımlar üçün hüquqi və maliyyə bazası yaradacaq. Eyni zamanda, bu artım müdafiə sənayesinin inkişafına, yerli istehsalın genişlənməsinə və milli texnoloji potensialın yüksəlməsinə xidmət edəcək. Biz artıq silah və sursat idxal edən yox, müəyyən sahələrdə ixrac potensialı yaradan bir dövlətə çevrilirik.

Unutmamalıyıq ki, təhlükəsizlik - iqtisadi inkişafın, sosial rifahın, vətəndaş məmnunluğunun və dövlətin sabitliyinin əsas təminatıdır. Təhlükəsizliyin zəiflədiyi yerdə nə iqtisadi tərəqqi, nə də sabitlik mümkündür. Təhlükəsizlik büdcəsinə əlavə vəsait ayrılması dövlətin maliyyə yükünün artırılması deyil, əksinə - millətin təhlükəsiz gələcəyinə qoyulan sərmayədir".

**Nicat**

Səxavət MƏMMƏD

# Başıma silah dirəyib kitab yazdırıblar?



***Hər məsələyə reaksiya verən biri deyiləm. Əgər bir məsələ haqqında fikir bildirirəmsə də, mütləq obyektiv və soyuqqanlı olmağa çalışıram. Bu günlərdə Mədəniyyət nazirliyi ilə bağlı çoxlu sayda tənqidlərə rast gəldim. Kim nə istəyir, kimin dərdi nədir, mənə maraqlı deyil. Ancaq məsələyə dolayısı ilə dəxlim olduğu üçün yazmasam olmazdı. Niyə dolayısı ilə? Çünki bu il mənim də kitabım çapdan çıxdı. Çalışıb sərgilərdə də iştirak edirəm. Vəziyyəti, prosesi ən azı özüm də müşahidə etmişəm.***

***Kimi dindirsən deyəcək ki, mən xalqa xidmət edirəm. Ən zəhləm gedən insan tipi. Xalq səndən xidmət tələb edib? Bu nəyin minnətidir? Biri kitan yazır, oxuyub, oynayır, keyf edir, pul qazanır, minnət qoyur ki, xalqa xidmət edirəm. Xalq səni seçib ki, get oxu ya oyna? Hər şeyin bir ədəbi, ərkanı olmalıdır.***

***Keçirilən festivallar, beynəlxalq əhəmiyyətli tədbirlər, xarici ölkələrdə Azərbaycan mədəniyyətinin təbliği istiqamətində görülən işlər gözə görünmürmü? Hansısa ünsürün işini yarıtmamağına görə bir qurumu linc etmək nə dərəcədə doğrudur?***

***Biri dövlət tədbirlərində oxumağına icazə verilməməyindən, digəri yubileyinin keçirilməməsindən, o biri fəxri ad almamasından, başqa biri kitabının nazirlik tərəfindən alınmamasından gileylənir. Səmimi danışaq, hansı ciddi sənəti olan adam Mədəniyyət Nazirliyinin layihələrindən kənarda qalıb? Hansı müəllifin yazdığı ciddi əsəri nazirlik görməzdən gəlib? Yazdığım kitabla bağlı hansısa dövlət qurumuna nə müraciətim olub, nə hansısa dəstək tələb etmişəm. Niyə etməliyəm? Başıma silah dirəyib kitab yazdırıblar? Sifariş verib yazdırıblar? Vəhşi kapitalizm dönəmində yaşayıb, bolşevik düşüncəsində olmaq da ancaq bizə xas xüsusiyyətdir.***

***Bu günlərdə TV kanallardan birində Mədəniyyət Nazirliyinin kitab şöbəsinin müdiri kitab alışı ilə bağlı son illərin statistikasını açıqladı. Kitab az oxunan bir ölkədə kitabxanalar üçün bu qədər kitabın alınması həm oxucunun, həm yazıçının, elə həm də nəşriyyatların mənafeyinə xidmət etmirmi? Son üç ildə Mədəniyyət nazirliyi tərəfindən naşirlərdən və yazıçılardan 155 mindən çox nüxsə kitab alınıb. Bu da 3 ildən əvvəlki 15 ilin toplam göstəricilərindən daha çoxdur.***

***Elə həmin müsahibədə son iki ildə Mədəniyyət nazirliyinin dəstəyi ilə beynəlxalq kitab sərgilərində Azərbaycanın onlarla naşir və yazıçısının iştirakının təmin edilməsinə aydınlıq gətirilib. Bu iş deyil? Deyirlər, ancaq ətrafların aparırlar xaricdəki tədbirlərə. Bu fikirlə o zaman razı olardım ki, ora məni də aparardılar.***

***Kitab şöbəsinin müdiri ilə səngərlədə birgə mürgüləmişik. Birdən-birə gözəllik olmur ki. İslahat mərhələli getməlidir də.***

***Sonuncu Bakı Beynəlxalq Kitab Sərginin keçirildiyi məkan uzaq olduğu üçün avtobuslar ayrılmışdı. Şəxsən iki dəfə o avtobusdan özüm istifadə etdim. Sərgidəki atmosfer, ordakı kitab çal-çağırı bizim mədəni mühitdə baş verən hadisə deyilmi?***

***Uzatmayım. Narazı qalmaq olar. Onu dilə gətirmək də olar. Özüm beləyəm. Ancaq hər şey mənim olsun, hər şeyi mən qamarlayım, hər şey mənə çatsınla yola çıxıb narazılıq etmək nə qədər doğru yanaşmadır?***

***Kitab müəllifləri naşirlərdən narazı, naşir oxucudan hamı da nazirlikdən ancam gözləyir. Nəştiyyat müəllifə qul kimi davranır, müəllifin əməyini qul əməyi kimi istismar edirsə bunda günahkar kimdir? Gördüyün iş faydalıdır, buna bir sözüm yox, əksinə təşəkkürlər, ancaq biznesdir də, qardaş.***

***Bu yazını yazmaqda məqsədim nə Mədəniyyət nazirliyini müdafiə etməkdir, nə də kimisə suçlamaq. Biraz obyektiv olun, biraz real davranın, biznesinizi genişləndirməyə, özünüzü gözə soxmağa görə də, camaatın boynuna bu qədər minnət qoymayın. Ayıbdır!***

## *Baş katib: NATO Qara dənizi alyansın məsuliyyət regionu kimi nəzərdən keçirir*

**Şimali Atlantika alyansı (NATO) Qara dəniz və Baltik dənizini NATO-nun məsuliyyət regionları kimi nəzərdən keçirir.**

Adalet.az xarici KİV-ə istinadən xəbər verir ki, belə bir bəyanatla NATO baş katibi Mark Rütte mətbuat konfransında çıxış edib.

"Baltikaya, eləcə də NATO-nun digər regionlarına, məsələn Qara dənizə gəlincə, ordakı sualtı infrastruktur daima təhdidlə üz-üzədir", - deyə Rütte vurğulayıb.

O, NATO ölkələrindən birinə hücum ediləcəyi təqdirdə, qarşı tərəfin "dağıdıcı qarşılıq" görəcəyi barədə xəbərdarlıq edib.

# "Regionda Azərbaycansız görülmək istənilən heç bir iş fayda gətirməz"

**”Özbəkistanın paytaxtı Daşkənddə keçirilən Mərkəzi Asiya Dövlət Başçılarının 7-ci Məşvərət Görüşü qardaş və dost dövlət başçılarının sıradan bir toplantısı deyildir. Toplantının gedişi və yekunu iki böyük məsələ ilə siyasət, diplomatiya tarixə keçərək gələcəyə yol göstərir. Birincisi, Azərbaycanın Qazaxıstan, Qırğızıstan, Özbəkistan, Tacikistan və Türkmənistanın qurduğu Mərkəzi Asiya ölkələrinin əməkdaşlıq formatına bərabərhüquqlu iştirakçı kimi qəbul edilməsi qarşılıqlı münasibətlərin dostluq və qardaşlıq xarakteri daşıdığını bir daha təsdiqləyir, onların vahid tarixi, mədəni və geosiyasi məkan olduğunu sübut edir”.**

Adalet.az xəbər verir ki, bunu Milli Məclisin sədr müavini, millət vəkili Musa Qasımlı deyib.



Onun sözlərinə görə, bu, əvvəlki tarixi dövrlərdə xəyala gəlməyən, son onilliklərdə başladılan böyük geosiyasi dəyişikliklərin uğurla davam etdirilməsi, dünya siyasətində yeni konfiqurasiyanın formalaşmasıdır:

”Artıq dünya nəhəngi və ya nəhəngləri beş deyil, altı dövlətlə bir masa arxasında oturub müzakirə aparmalı olacaqlar. Əlverişli coğrafi-siyasi mövqeləri, zəngin təbii sərvətləri, çalışqan, gənc və artan demoqrafik göstəricisi olan bu altı ölkənin əhalisinin ümumi sayı təxminən 100 milyon nəfərə yaxın, ərazisi isə təxminən 4,09 milyon km?-dir. Azərbaycanın bərabərhüquqlu iştirakçı olaraq qəbul edilməsi Prezident İlham Əliyevin dünya siyasətində Azərbaycanın rolunu artırmasının konkret təzahürüdür”.

O, bildirib ki, regionda Azərbaycansız görülmək istənilən heç bir iş fayda gətirməz:

”İkincisi, görüşdə cənab Prezidentimiz İlham Əliyevin nitqindəki fikirləridir. Həcmcə kiçik olsa da, məzmunca geniş, mahiyyətcə dərin olan nitqində ölkə rəhbərimiz həm ikitərəfli Azərbaycan - Özbəkistan münasibətlərinə qiymət verdi, həm islam dini dəyərlərinin əleyhinə olan fəaliyyətlərə qəti mövqeyini bildirdi, həm də Azərbaycan - Mərkəzi Asiya dövlətlərinin münasibətlərini dəqiq təhlil edərək gələcək əməkdaşlığın perspektivlərini və görüləcək işləri vurğuladı. İlk növbədə, dövlət başçımızın Prezident Şavkat Mirziyoyevin rəhbərliyi altında güclü beynəlxalq nüfuzun, səmərəli iqtisadi islahatların, sənaye, nəqliyyat və kənd təsərrüfatı sahələrində həyata keçirilən irimiqyaslı layihələrin Özbəkistanı regionda lider mövqeyə yüksəltdiyini, idman dövlətləri sırasında yer tutduğunu, Azərbaycanla əməkdaşlıqda müstəsna rol oynadığını qeyd etməsi qardaşın inkişafına sevinməkdir. O, deyib ki, bu dövlətlərdən birinin uğuru hamısının birgə uğurudur:

”Nitqdə qardaş ölkənin rəhbərinin təşəbbüsü ilə Daşkənddə İslam Sivilizasiyası Mərkəzinin qurulmasının zəngin mədəni irsə sadiq qalmağın daha bir nümunəsi kimi qeyd edilməsi eyni zamanda Azərbaycan Respublikası Prezidentinin bütün beynəlxalq görüşlərdə mənəvi-ruhani köklərimizə, dəyərlərimizə sıx bağlılığını və dərin ehtiramını sübut edir. Dövlət başçımızın dünyada islam əleyhinə olan meyillərə cavab olaraq dediyi ”İslam quruculuq, dözümlülük, dostluq və qardaşlıq dinidir. İsam aləminin görkəmli nümayəndələri dünya elminə, mədəniyyətinə böyük töhfə veriblər və İslam Sivilizasiyası Mərkəzi bunu əyani şəkildə nümayiş etdirir. Əminəm ki, möhtəşəm və nadir ekspozisiyaları olan Daşkənddəki İslam Sivilizasiyası Mərkəzi bütün İslam dünyası üçün qürur mənbəyinə çevriləcək” fikirləri həm həmin qüvvələrə tutarlı bir cavabdır, həm də müsəlman xalqlarına elm, təhsil, mədəniyyətin inkişafı istiqamətində, zamanla ayaqlaşmaqda yol göstərir. Azərbaycanla Mərkəzi Asiya dövlətləri arasında münasibətlərin xüsusi xarakter daşıdığının, çoxəsrlik ortaq tarix, mənəvi və mədəni irs, qardaşlıq, dostluq, həmrəyliyin birləşdiyinin, bu əlaqələrin qorunub saxlandığının, onlara müttəfiqlik, strateji tərəfdaşlıq xarakterinə malik olan yeni dinamika verilməsinin nitqdə deyilməsi indiyədək yürüdülən siyasətin uğurlu nəticəsinin bəyan edilməsidir”.

M.Qasımlının sözlərinə görə, bu, dövlətlərarası münasibətlərdə şəxsiyyət amilinin böyük rol oynadığını göstərir:

”Həmin münasibətlərin möhkəm hüquqmüqavilə bazası formalaşıb. Fərqli coğrafiyalarda yerləşsə də, qarşılıqlı fəaliyyət sayəsində Mərkəzi Asiya dövlətləri və Azərbaycan artıq qlobal miqyasda nüfuzu əhəmiyyətli dərəcədə artan vahid geosiyasi və geoiqtisadi regiona çevriliblər. Bu ölkələr təkcə ikitərəfli deyil, müxtəlif beynəlxalq təşkilatlar çərçivəsində də uğurla əməkdaşlıq edir, bir-birilərinin təşəbbüslərini dəstəkləyir, qlobal və regional problemlərin həllində ortaq mövqe işləyib hazırlayırlar. Dövlət başçımızın Azərbaycanın ərazi bütövlüyünü və suverenliyini bərpa etdikdən sonra işğaldan azad olunmuş ərazilərinin dirçəldilməsində Mərkəzi Asiya ölkələrinin göstərdiyi qardaş dəstəyini yüksək qiymətləndirməsi, konkret olaraq özbək qardaşlarımızın Füzuli şəhərində Mirzə Uluqbəy adına məktəbi, qazax qardaşlarımızın Kurmanqazı adına Uşaq İncəsənət Mərkəzini, qırğız qardaşlarımızın Ağdamda Manas məktəbini tikib hədiyyə etmələrini, türkmən qardaşlarımızın Füzulidə məscidin təməlini qoymalarını xatırlaması təkcə qardaş köməyinə görə minnətdarlıq hissi deyil, eyni zamanda qardaşlığın və həmrəyliyin nümunəsi kimi gələcək nəsillərə də örnəkdir. Qardaşların sevinci də, kədəri də, taleyi də ortaqdır. Nitqdə Azərbaycanın və Mərkəzi Asiyanın Şərqlə Qərb, Şimalla Cənub arasında birləşdirici bənd, qovşaq və körpü olduğunun vurğulanması həm tarixin ənginliklərindən keçib gələn hadisə və proseslərdə bu qardaş, dost ölkələrin mühüm rol oynadığını göstərir, həm də indi və bundan sonra həmin dövlətlərə və millətlərə başqa cür baxmaq xəyalında olanlara bir işarədir. Dünyanın ürəyi hesab edilən Avrasiyanın əzəli xalqları, minilliklər boyu tarixi, etno-mədəni torpaqlarında hakim olan türklərlə, Mərkəzi Asiya dövlətləri ilə bərabərhüquqlu davranmadan heç bir ölkə niyyətlərinə çatmaz. Avrasiyanın ürəyinə sahib olan bütün dünyaya hakimdir. Ölkə rəhbərimizin Orta Dəhlizin inkişafının Mərkəzi Asiya dövlətləri üçün strateji əhəmiyyət kəsb etdiyini deməsi konkret hədəfin bəyan olunmasıdır. Bu, həmin ölkələrin təkcə yüklərinin etibarlı beynəlxalq nəqliyyat qovşağına çevrilən qardaş Azərbaycandan təhlükəsiz keçərək ticarət-iqtisadi maraqlarının rahat təmin edilməsi, münasibətlərin maddi təməllərinin möhkəmləndirilməsi deyil, eyni zamanda həmin ölkələrə müəyyən tərəfdən və ya tərəflərdən təzyiqlərin azaldılması, dövlət müstəqilliklərinin möhkəmləndirilməsinə, sarsılmaz və əbədi olmasına kömək deməkdir. Bu işdə Ələt Beynəlxalq Limanı, Bakı - Tbilisi - Qars dəmir yolu, 9 beynəlxalq hava limanı, regionun ən böyük yük aviaşirkəti və digər amillər müstəsna rol oynayır. Zəngəzur dəhlizi Orta Dəhlizin əsas arteriyasına çevrilərək Mərkəzi Asiya dövlətlərini Avropaya bağlayacaq və Naxçıvan dünyanın vacib nəqliyyat qovşağına çevriləcəkdir. Azərbaycanın birləşdirici güc olduğu bu region yeniliklərin astanasındadır. Gücümüz birliyimizdədir!”.

**Vasif ƏLİHÜSEYN**

*Aqil ABBAS*

# BU DÜNYADAN RƏMİŞ KEÇDİ

*Dünyanın ən xoşbəxt və ən bədbəxt insanı idi Rəmiş. Niyə ən xoşbəxt və ən bədbəxt? Darıxmayın, indi açıqlayacam.*

*Yazılarımda və televiziya müsahibələrimdə Rəmiş haqqında belə bir fikir söyləmişdim: "Rəmiş nə atadı, nə anadı, nə bacıdı, nə qardaşdı, nə vətəndaşdı, heç adam da deyil. Rəmiş başdan-ayağa ruhdu - yarı mələk, yarı şeytan. Bəzən şeytan mələyi üstələyir".*

*Bu da Rəmişin bərk xətrinə dəymişdi. Amma dedim ki, Rəmiş, mən sözümün üstündə qalıram.*

*Rəmiş niyə dünyanın ən xoşbəxt adamıdı? Xoşbəxtliyi odur ki, bu insan ağlı kəsəndən dünyanın ən azad insanı olub, heç bir çərçivəyə sığmayıb. 250 milyon insanı çərçivədə saxlayan Sovet hökuməti onu çərçivəyə sala bilmədi. Necə istədi elə də yaşadı, türk şarkısında deyilən kimi, əgər buna yaşamaq deyirlərsə. Nə istədi yedi, nə istədi içdi, nə istədi onu elədi, nə istədi onu geyindi, hətta bəzən şəhərdə şəpitlə gəzdi. Uzun saç saxladı, mədəniyyət naziri belə onun saçını qırxdıra bilmədi. Konsertlərdə hamı eyni kostyum geydiyi halda Rəmiş cinslə çıxırdı, Zeynəb xanım da xətrinə dəyirmirdi. Heç kəsin qabağında əyilmədi. Təkrarolunmaz ifaları ilə milyonların sevgisini qazandı və hamı Rəmişi necə vardı elə qəbul elədi.*



*Belə bir söz var, sənin azadlığın mənim azadlığım başlayanda qurtarır. Rəmişin azadlığı heç kimin azadlığının başladığı yerdə qurtarmadı. Milli musiqimiz üçün tamamilə yad bir aləti milliləşdirdi.*

*Amma Rəmiş məktəb olmadı, çünki heç özü məktəb görməmişdi. Bəlkə də heç məktəbin nə olduğunu bilmirdi. Ağdamdakı Musiqi Texnikumunu da alayarımçıq oxumuşdu. Oxumuşdu deməyək, şəpitlə dərsə gedib-gəlmişdi. Amma dövlət imtahanında necə tar və piano ifa eləmişdisə, komissiya üzvləri durub Rəmişi bağırlarına basmışdılar.*

*Rəmiş gitaranı bu millətə necə sevdirdisə Rəmişdən sonra onlarla gənc çox gözəl gitaraçalan oldular, xalq onları da sevdi. Çox mahir gitara çalanlar var, amma onların heç biri Rəmişin yolunu gedə bilmədi, çünki o yolu Allah təkcə Rəmişə vermişdi.*

*Bəs, niyə Rəmiş dünyanın ən bədbəxt insanıdı? Rəmişin bir normal lent yazısı yoxdu . Çünki bu lent yazıları ya toylarda, ya da xudmani məclislərdə yazılıb. Özü də video çıxandan sonra. Youtubeyə baxın, hamısı 1991-ci ildən sonra yazılıb. Rəmişin çağlayan vaxtlarında - 70-90-cı illər arası ifaları itdi-batdı. Çünki onlar köhnə maqnitofon lentləri idi, sonra kompakt kasetdəydi, texnika inkişaf eləndi və onlar da oldu istifadəsiz. Bəlkə də müəyyən adamların evlərində qalır. Şəxsən məndə iyirmidən çox Rəmişin maqnitafon lentləri vardı. Allah erməninin tifağını dağıtsın, şəhərimiz işğal olunanda hamının evi kimi bizim evi də dağıtdılar, yandırdılar, həm on beş minlik kitabxanam məhv oldu, həm də Rəmişin lent yazıları.*

*Rəmişin lent yazılarını çox axtarmışam, tapa bilməmişəm. Bilirəm ki, bircə kamançaçalan Elman Bədəlovun oğlu Muquşda var, ona da əlim çatmır, deyirlər Almaniyada yaşayır.*

*Bircə dənə normal diski var, onu da ANS-in rəhbəri Vahid Mustafayev və görkəmli jurnalist Mirşahin Ağayev çətinliklə də olsa öz maliyyələri hesabına Londonda yazdırıblar. O da az tirajla, satışa da verməyiblər, dosta-tanışa hədiyyə ediblər. Birini də mənə hədiyyə etmişdilər, Rəmişsevər dostlarımdan hansısa maşınımdan çırpışdırdı. Halal xoşu olsun.*

*Ona görə də Rəmişin qeybə çəkilməsindən sonra heç bir televiziyada onun haqqında söhbət getmir, ifaları göstərilmir.*

*Yalnız İctimai televiziyada Saleh Bağırovun və Nailə xanımın apardığı "Ötən günlər" verilişi Rəmişə həsr olundu və xalqa Rəmişi yenidən təqdim etdilər, sağ olsunlar. Rəmiş dünyanın ən bədbəxt adamı ona görədir ki, izi-tozu qalmadı. Gələcək nəsillər belə bir dahini tanımayacaqlar, tapıb dinləyə bilməyəcəklər.*

*Bəs, Rəmiş haqqında povesti niyə yazdım? Rəmiş hər görüşəndə məndən soruşurdu:*

*- Qaqa, mənə söz vermişdin ki, məndən nəysə yazırsan, nooldu?*

*- Darıxma, yazıram.*

*Amma o darıxdı, məndən də darıxdı, dostlarından da, hamıdan darıxdı, day gözləmədi, çıxdı getdi. Yəqin ki, cənnətə buraxmazlar, amma cəhənnəmdə sərin bir yer tapılar onun üçün. O, yenə dostlarını başına yığıb, ocaqdan oğurladığı bir taxtanın üstünə iki sim çəkib uyudar cəhənnəmdəkiləri. Bədənləri yansa da, ürəklərinə su səpər.*

*Tarixdə Paqanini adında bir skripka dahisi olub. Təbii ki, təxminən 250 il bundan əvvəl yaşamış Paqanininin necə ifa elədiyinin heç bir şahidi qalmayıb, ağızdan-ağıza keçib. Deyilənlərə və yazılanlara inanmaq məcburiyyətindəyik. Yazırlar ki, Paqanini skripka çalanda zaldakı adamların ürəyi gedirmiş, bağırırmışlar, içlərinə şeytan girirmiş. Ona görə də kilsə xadimləri onu şeytan adlandırıblar, otuz il də xristian torpaqlarında basdırılmağa icazə verməyiblər. Otuz il oğlu və köməkçisi şəhər-şəhər, kənd-kənd gəziblər və kilsənin sözüylə də hər yerdən qovulublar. Amma Paqanini bir əfsanəyə çevrilib, mifləşib.*

*XIV-XV əsrlərdə Təbrizdə Əbdül Qadir Baği adında bir xanəndə olub. Bütün Şərqdə məşhuruymuş, qeyri-adi, ilahidən gələn səsi varmış, bizim Qədir Rüstəmov kimi. Şöhrəti Əmir Teymura gedib çatıbmış.*

*Əmir Teymur Təbrizi fəth edərkən əmr edir ki, Əbdül Qadir Bağini onun yanına gətirsinlər. Aralarında bir söhbət olur.*

*Deyir:*

*- Oxu. Əgər xoşuma gəlsə, nə istəyirsən istə məndən.*

*Oxuyur, öz ilahi səsiylə Əmir Teymuru sehirləyir. Soruşanda məndən nə istəyirsən, deyir:*

*- Əmr elə Təbrizdə yağmalanmanı, qırğını saxlasınlar.*

*Əmir Teymur onun bu xahişini yerinə yetirir. Sonra da onu Miranşaha vəzir verir. Miranşaha suiqəsd olandan sonra Ədbül Qadir Bağı qorxusundan Bağdada qaçır.*

*Əmir Teymur oğlunun intiqamını almaq üçün yenidən yürüşə çıxır və gəlir Bağdada. Tapşırır ki, o Bağini tapın və diri-diri mənə gətirin.*

*Gətirirlər. Əmir Teymur deyir ki, mən sənə o cür hörmət etdim, oğluma vəzir qoydum, sən də ona suiqəsddə iştirak etmisən.*

*Bağı and-aman edir ki, mənim əlim yoxdu, sizin qəzəbinizdən qorxub qaçmışam. Əmir Teymur deyir ki, aparın bunu asın. Bağini çadırdan çıxartmaq istərkən Əmir Teymur soruşur ki, oxuya bilərsən? Bağı əlini atır qulağının dibinə, dirsəyi ilə də, Qədir Rüstəmov kimi, böyrəyini sıxıb necə zəngulə vurursa yenə İlahidən gələn səsiylə Əmir Teymuru sehirləyir.*

*Əmir Teymur bağırır:*

*- Kəs səsini, bu səsi eşidəndən sonra qoşun heç kəsi öldürə bilməz, silahı atar.*

*Sonra əmr edir ki, buraxın, gedib yaşasın.*

*Yəqin Əbdül Qadir Bağı də Şərqdə əfsanəyə çevrilib, mifə çevrilib.*

*İndi zaman gələcək Rəmiş də əfsanəyə, mifə çevriləcək. "Rəmiş" povestini ona görə yazdım.*

*Qədir Rüstəmovdan çox məqalə yazmışam, ondan da povest yazmışam.*

*Bir dəfə Ağdamda Qarabağın tanınmış ziyalısı Yusif Əhmədov çayxanada mənə dedi:*

*- Aqil, bala, Qədirdən yüz dəfə də yazsan onun oxumağının bir dəqiqəsini ifadə edə bilməzsən.*

*İndi Rəmiş haqqında da məqalələr yazmışam və indi də bu povesti yazmışam, amma bilirəm ki, Yusif müəllimin sözü olmasın, onun improvizasiyalarının, ifasının yüzdə birini verə bilmərəm.*

*Sadəcə olaraq, "Rəmiş" povestini ona görə yazdım ki, qəlbimdəki Rəmiş ağrısından bir qədər yüngülləşim və bu ağrı-acını oxucularla bölüşüm. Və gələcək nəsillər də Rəmişi tanıya bilsinlər. İnanıram ki, Rəmiş də gələcəkdə əfsanə və mifə çevriləcək.*

***P.S.*** *Povest bütövlükdə "525-ci qəzet"in 4,5,6,7 noyabr saylarında, eləcə də "Ədalət" qəzetinin saytında (Adalet.az) dərc olunub.*



*Rüstəm Hacıyev*

# Makron ümid edir, müharibə davam edir...

*"Bir dəli quyuya daş atdı, yüz ağıllı onu çıxara bilmədi"*

*(Atalar sözü)*

**Fransanın "Le Monde" qəzeti yazır ki, prezident Emmanuel Makron ümid edir ki, Rusiya-Ukrayna müharibəsi 2027-ci ilin yazına qədər, yəni Fransada prezident seçkiləri keçirilməsindən əvvəl başa çatacaq.**

**Jurnalistin: "seçkilərdən sonrada Paris Kiyevi dəstəkləyəcəkmi" sualına, Makton: "Ümid edirəm ki, o vaxtadək sülh əldə olunacaq"- deyə cavab verib.**

**Fransa prezidenti Avropa İttifaqının Rusiyaya asrşı qərarını yüksək qiymətləndirərək bildirib ki, "yalnız Ukrayna hakimiyyəti güclü və nüfuzlu olarsa münaqişə həll oluna bilər".**

**Görünən odur ki, Qərb artıq haradan başlayıb, harada qurtaracağını bilmir. Yəni, "ipin ucunu itirib". Rusiyanı çökdürmək üçün, NATO-nun genişləndirilməsi ideyası, suveren bir ölkənin faciələrə sürüklədi. Əslində, hazırda Rusiya ilə Ukrayna arasında münaqişənin başlamasında kimin günahkar olmasını müəyyənləşdirmək, iki dövlət arasında sülhün bərqərar olmasına mane olan səbəblərin aradan qaldırılması mümkünd görünmür. Necə deyərlər, "qatar artıq gedib". Sadəcə olaraq, soyuq başla bu dalandan çıxmaq yolları araşdırılmalıdır.**

**Yoxsa, Makron kimi boş-boşuna proqnozlar verməklə müharibəni dayandırmaq olmur. ABŞ prezidenti Donald Tramp, Rusiya və Ukrayna prezidentlərinin "müharibəni dayandırmaq və danışıqlara başlamağa hazırıq" bəyənatlarının səmimiliyinə ümid edərək münaqişənin həllini soyuq başla müzakirə etməyə çalışır. Lakin, hələ ki, Rusiya prezidentinin başı "soyumaq" bilmir.**

**Ona görə də, Donald Tramp, Rusiyaya qarşı əvvəlki yumşaq, barışdırıcı mövqeyini sərtləşdirməyə qərar verib. ABŞ prezidentinin son bəyənatları, artıq Kremlə diplomatiq siqnallar vermək deyil, bir başa təhditdir.**

**Donald Tramp bəyan edib ki, sərt sanksiyalar təkcə Rusiyaya qarşı deyi, həmçinin Moskva ilə ilə ticarət əlaqələrini saxlayan digər ölkələrə qarşı da tədbiq olunacaq. Bəzi mənbələrin bildirdiyinə görə, Birləşmiş Ştatlar bu ölkələrə qarşı 500 faizlik rüsum tədbiq edəcək.**

**Donald Tramp, Rusiya prezidentinin imperiya niyyətlərini anlamağa başlayıb və ona görə də, Putinə qarşı mövqeyini sərtləşdirməyə başlayıb. İlk növbədə Rusiyanın əsas maliyyə mənbələri "Rostneft" və "Lukoyl" şirkətlərinə, həmçinin bu şirkətlərlə iş birliyində olan ölkələrə qarşı sanksiyalar tədbiq edir.**

**ABŞ prezidentinin bu qərarına reaksiya verən Hindistan və Çinin bir çox şirkətləri artıq Rusiya nefti almaqdan imtina edib. ABŞ səfiri Takker isə, bəyan edib ki, bu hələ başlanığıcdır, Putinə təzyiq etmək üçün Trampın əlində daha ciddi kartlar var.**

**Göründüyü kimi, vəziyyət daha da gərginləşməkdədir. Putin, hələki geri addım atmaq barədə düşünmür. Bu isə, müharibənin hələ çoz uzanacağı anlamına gəlir.**

**Fransa prezidenti Emmanuel Makronun isə, əlindən yalnız ümid etmək gəlir...**

## *"Bu cür açıqlamalar indiki şərtlər altında münasibətlərin normallaşmasına..."*

**"İsrailin diasporla iş üzrə naziri Amiçay Çikli deyib ki, Türkiyə bu gün İsrail dövləti üçün ən ciddi təhlükədir. O bununla kifayətlənməyərək "Türkiyənin təcrid olunması üçün xarici əlaqələrdə hər şeyi etməliyik" ifadəsini işlədib. Türkiyənin Avrasiya, o cümlədən Cənubi Qafqazda və Mərkəzi Asiyada rolu artmaqdadır. İsrailli nazirin sözlərindən isə belə çıxır ki, Tel-Əviv Türkiyənin adı çəkilən bölgələrdə fəallığına maneələr yaratmalıdır".**

Adalet.az xəbər verir ki, bunu politoloq Elxan Şahinoğlu deyib.

Onun sözlərinə görə, bu isə Türkiyə ilə yanaşı Azərbaycanın da milli və təhlükəsizlik maraqlarına ziddir:

"Təəssüf ki, Tel-Əviv Türkiyənin Azərbaycanın strateji müttəfiqi olmasını gözdən qaçırır. İsrail rəsmiləri anlamalıdırlar ki, Türkiyə əleyhinə ağır ifadələr işlətdikcə bu Azərbaycan-İsrail münasibətlərinə də mənfi təsir etməyə başlayacaq.

Azərbaycan Türkiyə ilə İsrail arasında münasibətlərin normallaşmasını istəyir. Ancaq İsrail və Türkiyə rəsmilərinin bir-birlərinin ünvanlarına qarşılıqlı sərt açıqlamaları indiki şərtlər altında münasibətlərin normallaşmasına imkan vermir".

**Sübhan**

# "Euronews Academy" layihəsi çərçivəsində "Rəqəmsal Jurnalistika" mövzusunda təlim proqramına başlanıb

**"Euronews Academy" layihəsi çərçivəsində "Rəqəmsal Jurnalistika" mövzusunda təlim proqramına başlanıb**

Medianın İnkişafı Agentliyi və "Euronews" telekanalının birgə təşəbbüsü ilə keçirilən "Euronews Academy" layihəsi çərçivəsində "Rəqəmsal Jurnalistika ("Digital Journalism")" mövzusunda növbəti təlim proqramına başlanıb.

Adalet.az xəbər verir ki, açılış mərasimində çıxış edən "Euronews"un Bakı üzrə icraçı direktoru Fernando Soares bildirib ki, "Euronews Academy" proqramı beynəlxalq media təcrübəsinin jurnalistlərlə paylaşılması üçün mühüm platformadır.

O qeyd edib ki, "Rəqəmsal Jurnalistika" təlimi iştirakçılara qlobal media standartlarını və yeni texnologiyaların tətbiqini praktik şəkildə öyrənmək imkanı yaradır.




Medianın İnkişafı Agentliyinin İcraçı direktorunun müavini Natiq Məmmədli vurğulayıb ki, medianın inkişafı innovativ yanaşmalar və peşəkarlığın artırılması ilə birbaşa bağlıdır.

O qeyd edib ki, sözügedən beynəlxalq layihələr yerli jurnalistlərin rəqəmsal bacarıqlarının güclənməsinə və media mühitinin dayanıqlı inkişafına töhfə verir. Təlimin ilk günü "Rəqəmsal xəbər toplanması və məlumat əsaslı jurnalistika" mövzusuna həsr olunub. İştirakçılar "Euronews" telekanalının tanınmış mütəxəssisi, 14 ildən artıq beynəlxalq təcrübəyə malik multimedia jurnalisti Tuba Altunkayanın tədqimatında rəqəmsal mühitdə məlumatların təhlili, faktların yoxlanılması və süjetlərin strukturlaşdırılması prinsipləri ilə tanış olacaqlar.

Tədris prosesi interaktiv mühazirələr, qrup tapşırıqları, video analizlər ilə davam edəcək.

**Qeyd edək ki, "Euronews" telekanalının tanınmış mütəxəssisi, 14 ildən artıq beynəlxalq təcrübəyə malik multimedia jurnalisti Tuba Altunkaya, "Euronews"un Yunan xidmətinin və "Euronews" Daşkənd Bürosunun rəhbəri Akis Tatsis tərəfindən aparılan təlim proqramının növbəti günlərində "Sosial media və "YouTube" kanalının idarə olunması", "Mobil jurnalistika" modulları üzrə sessiyalar keçiriləcək.**

# "Əgər məktəbdə şərait pisdirsə, bunun günahı islahatda deyil"

**"Əslində, bu gün müəllimlər arasında gedən müzakirələr bir həqiqəti çılpaq şəkildə ortaya çıxarır: islahatın mahiyyəti deyil, yalnız maaş maraqlandırır. Təəssüf ki, 99 faiz müəllimin yazdıqlarında "şagird", "keyfiyyət", "nəticə", "təhsil" sözləri belə keçmir. Hamının dərdi eynidir: "Maaş nə qədər olacaq?". Amma eyni müəllimlər bir dəfə də soruşmur ki, "niyə bu ölkədə uşaqların 60 faizi oxuduğunu anlamır?", "niyə 11-ci sinif buraxılışında on minlərlə uşaq 0-100 bal aralığında ilişib qalır?", "niyə hər evde bir repititor əzabı yaşanır?".**

Adalet.az xəbər verir ki, bunu təhsil eksperti Kamran Əsədov deyib.

"Hələ sonra kimsə cəsarətlə deyir: "Sən Finlandiyanın maaşını verirsən?" Bağışlayın, amma siz Finlandiyanın nəticəsini verirsinizmi? Finlandiya, Estoniya, Sinqapur səviyyəsində göstəriciniz varmı? Daha sərt desəm: nəticələrimiz bir çox Afrika ölkələrindən aşağıdır. Bunu maaş deyil, sistemli laqeydlik yaradıb. Kənd məktəbləri ilə bağlı arqumentlərə gələk. Bir qisim müəllim yazır: "İstilik yoxdur, kompüter yoxdur, otaq soyuqdur - əlavə iş necə görək?" Bu sözlər doğrudur, amma arqument deyil. Bu, sadəcə illərlə yığılan problemlərin etirafıdır. Bütün bu çatışmazlıqların səbəbi elə əvvəlki sistem idi - "saat yığan" mexanizm regionların ehtiyacını görünməz edirdi". Təhsil ekspertinin sözlərinə görə, yeni model isə ilk dəfə imkan verir ki, bu problemlər rəsmi şəkildə ölçülsün və resurs ədalətli bölünsün:

"Əgər məktəbdə şərait pisdirsə, bunun günahı islahatda deyil. Günah köhnə sistemdə, "stavka" rejimində, "gö-



rünməz problemlər" siyasətindədir. Və bir həqiqəti deməyin vaxtıdır: Şərait düzəlsin, sonra islahat olaq - bu, məsuliyyətdən qaçmağın ən rahat formasıdır. Məhz şərait düzəlsin deyə islahat lazımdır. Əksinə deyil. Dünya təcrübəsi ortadadır:

Finlandiyada, Estoniyada, Sinqapurda müəllim məktəbə bağlıdır, 18-24 saat dərs deyir, qalan vaxtını metodik hazırlıq və şagirdlə fərdi işə sərf edir. Buna görə nəticə yüksəkdir. Bizdə isə müəllimin böyük hissəsi məktəbdə vaxt keçirmək yox, tez evə qaçıb repititorluq etmək istəyir. Valideynlərin pul yükünü, uşaqların əzabını düşünən yoxdur".

K.Əsədov deyib ki, bu gün təqdim edilən model bunları dəyişir:

**1.** Müəllim "saat yığan" yox, məsuliyyət daşıyan mütəxəssisə çevrilir.

**2.** Əməkhaqqı sabit və yüksək olur.

**3.** Məktəb real ehtiyacına görə vəsait alır.

**4.** Şagirdin keyfiyyəti gündəliyin mərkəzinə qayıdır.

**5.** Müəllim məktəbdə tək qalmaq yox, peşəkarlaşmaq üçün vaxt qazanır. Bütün etirazların kökündə bir həqiqət dayanır: təhsil nəticəsi ilə üzləşmək istəməyənlər var. İslahatı əngəlləmək istəyənlərin əksəriyyəti köhnə sistemin rahatlığını itirməkdən qorxur. Ona görə də açıq deyirəm: Bu islahat müəllimə qarşı deyil. Əksinə, müəllimin nüfuzunu, maaşını, sosial təminatını yüksək səviyyəyə qaldırmaq üçün ən doğru addımdır. Əgər biz dəyişmək istəmiriksə, təhsil də, nəticə də dəyişməyəcək. Maaş artımı da bir müddət sonra heç bir təsir göstərməyəcək. Bu dəfə Nazirlik çox ciddi və cəsarətli bir yola çıxıb. Və bu yolun qarşısını kimin və niyə kəsmək istədiyi artıq çox aydın görünür".

**Vasif ƏLİHÜSEYN**

# *Gələn ildən vətəndaşlara daha çox ƏDV ödəniləcək*

**Vergi Məcəlləsinə gələn ildən "ƏDV gerial" mexanizmi ilə bağlı yeni dəyişikliyin edilməsi nəzərdə tutulub.**

Adalet.az xəbər verir ki, bu barədə iqtisadçı deputat Vüqar Bayramov bildirib. Onun sözlərinə görə, layihə Milli Məclisin iqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsində dəstəklənərək plenar iclasa tövsiyə edilib.



"Yeni dəyişikliklərə əsasən, gələn ildən vətəndaşlara "ƏDV gerial" üzrə daha çox vəsaitin ödənilməsi nəzərdə tutulur. Belə ki, təklif edilən layihəyə əsasən, bərbərxana, gözəllik salonu və kosmetoloji mərkəzlər tərəfindən göstərilən xidmətlərə görə "ƏDV gerial" mexanizminin tətbiqi həyata keçiriləcək. Bu o deməkdir ki, bu xidmətlərdən istifadə edən vətəndaşlarımız ödədiyi verginin bir hissəsini geri ala biləcəklər. Yeni qaydalarda məqsəd qeydolunan sektorlarda şəffaflığı gücləndirmək və nağdsız ödənişləri stimullaşdırmaqdır. Bu eyni zamanda, həmin xidmətlərdən istifadə zamanı vətəndaşlarımızın ödənişin bir hissəsinin geri qaytarılması yolu ilə istehlakçılara vəsait ödənilməsinə imkan verəcək. Bu isə birbaşa stimullaşdırıcı xarakteri daşıyır. Bu baxımdan, yeni qaydalar istehlakçıların ödədikləri vəsaitin bir hissəsini geri almağa imkan yaratmaqla yanaşı, sözügedən sahənin "ağarması" prosesini sürətləndirəcək".

**Sübhan**

# "Dünyanın səssiz dirijoru: İpək yolların ipək siyasətinə Bakıdan baxaq"

**"2025-ci ilin xarici siyasət təqvimi dərin müşahidələrlə göstərir ki, Azərbaycanın yeni yanaşmaları və tətbiq etdiyi yeni xarici siyasət alətləri bir dönüş dövrünə daxil olub".**

Adalet.az xəbər verir ki, bunu politoloq Əziz Əlibəyli deyib.

"Ölkənin post-müharibə dövrünün yeni elementlərini yaşaması;

Sabitləşməyə qədəm qoyması;

Uzunmüddətli strateji və iqtisadi tərəfdaşlıqların institusionallaşdırılmağa başlanması:

Kimi mühüm strateji nöqtələrə keçid dövrünün başlanması ilə əlamətdar olmaqdadır. İlin başa çatmasına qısa bir müddət qalsa da, ölkənin qət etdiyi xarici siyasi marafonun uzunluğu bütöv bir tarixi epoxaya bərabər hesab edilə bilər. Bizə görə bu dövrün adı Azərbaycanın qlobal xəritələşməsi və ya geosiyasi doğulma dövrüdür:

2025-ci il Azərbaycanın xarici siyasətində, post-münaqişə dövründə əldə edilən siyasi üstünlüklərin davamlı strateji və iqtisadi tərəfdaşlıqlara çevrilməsi məqsədi güdən qətiyyətli institusionallaşma ili kimi qiymətləndirilir. Diplomatik səylər üç dominant vektorda-Qərblə münasibətlərin institusionallaşdırılması (ABŞ), regional sülh və əlaqələndirmə (Cənubi Qafqaz), və Avrasiya tranzitinin genişləndirilməsi (Mərkəzi Asiya və Yaşıl Enerji)-əsaslı strateji ("xəritələr") yaradılmasına yönəldilib. Azərbaycanın 2025-ci ildəki əsas diplomatik nailiyyəti Vaşinqtonda ABŞ-nin vasitəçiliyi ilə aparılan sülh danışıqları nəticəsində əsaslı normallaşma sənədlərinin imzalanması oldu.

Az sonra Mərkəzi Asiya ölkələri ilə inteqrasiyanın dərinləşdirilməsi oldu. Səfərlərin istiqamətləri, keçirilən sammitlərdə iştirak və əldə edilən nəticələrin təhlili göstərdi ki, Azərbaycan ciddi bir qlobal xətt üzrə, vahid məntiqə söykənən prosesə başlayıb. Biz bu böyük ölçülü trayektoriyada hərəkət ardıcıllığını təhlil etdikdən sonra məntiqi görə bilərik: Azərbaycanın yeni dünya nizamında (əslində nizamsızlığında) qurduğu nizamı yalnız iki qlobal ölkənin simasında görə bilərik:

Deməli, söhbət üç ölkədən gedir:

Çin

ABŞ

Azərbaycan Çin və ABŞ öz nöqtəsində yeni dünya reallıqlarında ciddi qlobal savaşa daxil olublar. Bu münasibətlər



özünü proksi müharibələrdə biruzə verir: Şərqi Avropada, Yaxın Şərqdə, Afrikada, Okeaniyada, LA -da, bir çox həssas nöqtələrdə baş verən savaşlar bunun nəticəsindədir. Amma ikilinin qazan-qazan prinsipi ilə razılaşması indilik mümkün görünmür, Çin üzrə ABŞ siyasi texnoloqları hesab edirlər ki, qalıcı, hazırkı Çinyönlü siyasət Pekinin gələcəkdə vahid dünya gücünə çevrilməsinə aparır, ona görə də ABŞ preventiv davranmağa sadəcə məcburdur deyə, hücuma keçib, onu aradan qaldırmalıdır. Hər iki gücün bir-birinə münasibəti əslində eynidir. Həll yolları isə ancaq savaşdan keçir kimi görünür. Qələbə nəzəriyyələri, təsir, rəqabət, proksi və s. nəzəri baxışlar sırf bu məsələlərə əsaslar yaratmağa hesablanıb. Yeganə bir mərkəz var ki, onun aparıcı missiyası iqtisadi internet modeli (iqtisadi tor deyək) yaratmaqdır. Bu, Azərbaycandır! Onun baxışı təhlükəsizliyə, qarşılıqlı faydaya və investisiyalara söykənir. Buna görə də, təxminən COVİD pandemiyası yaranandan sonra dünyada ənənəvi lojistikanın sıradan çıxması Azərbaycan kimi üçüncü dünya gücünü doğurdu. Bu fiziki kiçik ölkənin qlobal missiyasında indi yer alır: - Yeni dünya nizamına töhfə - Təhlükəsizliyə töhfə - Yeni kommunikasiyalar xəttini qurmaq - Müharibələrə alternativlər yaratmaq. O baxımdan, cari ilin yanvar ayından başlayan səfərlərin təqvimi, məqsədləri və nəticələri hörmüçək toru içərisində qlobal əməyin gücünü, Bakının əhəmiyyətini, Əliyev diplomatiyasının nəhəngliyini ortaya qoymaqdadır. Dünya yeni bir güclə tanış olur! Xəzərin sahilində doğulan qüdrətin geosiyasi vizyonu güclənir, Amerikadan - Asiyaya - Avropaya - Afrikaya qapılar Bakıdan açılır və bu günə qədər olmayan beynəlxalq münasibətlərdə yeni fenomen doğulur - Sülh diqtəsi! Birinci fotoda biz Prezident Əliyev və Amerika liderini görürük: 8 avqust 2025-ci il tarixində Azərbaycan Respublikasının Prezidenti, Amerika Birləşmiş Ştatlarının Prezidenti və Ermənistan Respublikasının Baş nazirinin iştirakı ilə Azərbaycan və Ermənistanın xarici işlər nazirləri "Azərbaycan Respublikası ilə Ermənistan Respublikası arasında sülhün və dövlətlərarası münasibətlərin təsis olunması haqqında Saziş"in mətnini paraflayıblar. Biz daha çox Ermənistanla nizamlama prosesinə daha çox diqqət etdiyimizdən o gün görüşün qlobal və regional mahiyyətinə bir o qədər də vara bilmədiyimizi sonralar görə bildik",- deyə o, bildirib.

**Vasif ƏLİHÜSEYN**

# "Rusiyaya qarşı sanksiyalar genişlənir..."

**"ABŞ Rusiyaya qarşı sanksiyaları daha da genişləndirir. Növbəti sanksiya paketi senator Lindsi Qrem tərəfindən apreldə irəli sürülmüş və Rusiya ilə enerji-neft-qaz sahəsində əməkdaşlıq edən ölkələrə 500 faizlik tarif tətbiqini nəzərdə tutan planın qəbul edilməsidir. Vladimir Putinin müharibəni dağıdıcı formada davam etdirməsi və Avropanın təhlükəsizliyini açıq şəkildə təhdid etməsi ABŞ prezidenti Donald Tramp administrasiyasını daha sərt addımlar atmağa vadar edir. Rusiya Trampın atəşkəs təklifini qəbul etmədikdən sonra Qərbə qarşı müharibə strategiyasını davam etdirdi".**



Adalet.az xəbər verir ki, bunu politoloq Məhəmməd Əsədullazadə deyib.

Onun sözlərinə görə, bu sanksiyalar "Lukoyl" və "Qazprom" kimi nəhəng Rusiya enerji şirkətlərinin xarici aktivlərinə və səhmlərinə ciddi zərbə vurur:

"Gələn ildən ABŞ Ukraynaya öldürücü və hücum xarakterli silahların verilməsinə gedə bilər. Çünki Rusiya aqressiv siyasətindən geri çəkilmir, Ukraynanın işğalını davam etdirməklə post-Sovet məkanında təsirini genişləndirməyə, həmçinin Şərqi Avropanı öz nüfuz dairəsinə daxil etməyə çalışır.

Senator Lindsi Qremin qətnaməsi qəbul olunduqdan sonra Rusiyada iqtisadi resessiyanın dərinləşəcəyi qaçılmazdır. Bununla belə, iqtisadi çöküşün Rusiyanın hərbi maşınını dərhal dayan-dırması gözlənilmir. Rusiyanı yalnız cəbhə xəttində kütləvi hücum və müdafiə silahları ilə durdurmaq mümkündür.

Rusiyanın strateji məğlubiyyəti Putinin siyasi fiaskosuna gətirib çıxara bilər. Bu isə Rusiya siyasi elitasında hakimiyyət uğrunda çəkişmələri gücləndirəcək və dövlətin zəifləməsini sürətləndirəcək. Mövcud gedişata əsasən Rusiyanı ötən əsrin 90-cı illərinə bənzər yeni bir böhran dövrü gözləyə bilər".

**Sübhan**

# "Bununla kişi müəllimlər məktəbdən daha da uzaqlaşacaq"

**"Müəllimlər dərsdən sonra da məktəbdə qalarsa, bu halların baş vermə ehtimalını yüksək qiymətləndirirəm".**

Adalet.az xəbər verir ki, bunu iqtisadçı Eldəniz Əmirov deyib. Onun sözlərinə görə, bununla kişi müəllimlər məktəbdən daha da uzaqlaşacaq:

1. Kişi müəllimlər məktəbdən daha da uzaqlaşacaq.

2. Özəl təhsil müəssisələri artacaq.

3. Tanınmış repetitor məktəbi tərk edəcək və ya evində, ya da fərdi kurslar yaradaraq fəaliyyətini davam etdirəcəklər.

4. DİM imtahanında müəllim ixtisaslarına keçid balları kəskin düşəcək.

5. Müəllimin artmayan reputasiyası daha da geri gedecək.

6. Pedoqoji heyət bu qərardan narazı qalacaq, hətta kifayət qədəri bu peşəni seçdiklərinə görə məyusluq hissi yaşayacaqlar.

7. Məktəblərdə müəllim otaqlarında oturmağa belə yer olmayacaq. Basabas avtobus mənzərəsinə oxşayan mənzərəni indidən təsəvvür etmək olur.

8. Şagirdləri onsuzda hədsiz azalan kənd məktəblərində müəllimlərin həyat şəraiti və ev təsərrüfatlarının idarə edilməsi ilə bağlı isə ciddi problemlər yaşanacaq.

9. Təxminən 10-15 il sonra heç bir müəllim işsiz qalmayacaq. Əksinə məktəblər müəllim axtaracaq".

**Vasif**

**Murad Köhnəqala**



# Dünyanın müxtəlif ölkələrində erməni diasporu: onların sayı və fəaliyyət istiqamətləri

**Tarix boyu dünyanın müxtəlif ölkələrinə köç edən ermənilər bu gün bir çox dövlətlərdə böyük diaspor icmaları formalaşdırıblar. Bu icmaların sayı, təsir dairəsi və fəaliyyət istiqamətləri yerləşdikləri regionlardan asılı olaraq dəyişir.**

**Məlumdur ki, ən geniş erməni diasporlarından biri ABŞ-dədi. Fərqli mənbələrə görə, bu ölkədə bir milyona yaxın erməni yaşayır. Onlar əsasən Los-Anceles və Kaliforniyanın digər şəhərlərində məskunlaşıblar. ABŞ-dakı erməni icmaları özəl məktəblər, dini icmalar, media qurumları və müxtəlif biznes strukturları vasitəsilə təşkilatlanıblar.**

**Avropada isə ən tanınmış erməni icmalarından biri Fransadadı. Bu ölkədə təxminən 300 minə yaxın erməni yaşayır. Fransadakı erməni icması ictimai-siyasi fəallığı, zəngin iş adamları ilə seçilir. Fransa erməniləri müxtəlif fondlar, mədəniyyət mərkəzləri və assosiasiyalar vasitəsilə fəaliyyət göstərirlər.**

**Cənubi Qafqazda ən qədim erməni icmalarından biri Gürcüstandadır. Təxminən 150 min nəfərdən ibarət olan bu icma əsasən Tbilisi və Cavaxetiya bölgələrində məskunlaşıb.**

**Onların fəaliyyəti əsasən yerli mədəniyyət mərkəzləri və icma təşkilatları üzərində qurulub.**

**Cənubi Amerikada isə ermənilər əsasən Argentinada xüsusi fəallıq göstərirlər. Burada 100 minə yaxın erməni yaşayır, icma əsasən sahibkarlıq, ticarət və mədəniyyət sahələrində fəaldır.**

**Bu cür fəal erməni icmalarından biri də İranda yaşayır. İran erməniləri daha çox İsfahanda və Tehranda məskunlaşıb, kilsələr, məktəblər, eləcə də icma qurumları vasitəsilə öz erməniliklərini yaşadırlar.**

**Dünyanın ən böyük erməni diasporlarından biri də Rusiyada formalaşıb. Ermənilərin yazdığına görə, Rusiyada yaşayan ermənilərin sayı az qala, Ermənistandakı haylar qədərdi. Öz saylarını şişirtməkdə məqsədləri odur ki, Rusiyanın başına bir iş gəlsə torpaq iddiasında buluna bilsinlər. Buradakı ermənilər əsasən ölkənin cənub bölgələrində: Krasnodar, Stavropol, Rostov vilayətlərində, eləcə də Moskvada və digər böyük şəhərlərdə məskunlaşıblar.**

**Rusiya erməni icması biznes, ticarət, tikinti, xidmət sektoru, həmçinin media və müxtəlif kommersiya strukturlarında geniş fəaliyət göstərir. Bu icma həm də müxtəlif mədəniyət mərkəzləri və dini təşkilatlar vasitəsilə öz erməniliklərini qorumağa çalışır.**

**Beləliklə, erməni diasporu dünyanın bir çox ölkəsində say və təşkilatlanma səviyəsinə görə fərqlənir. Onların fəaliyəti əsasən özlərinin uydurduğu yalançı tarixdən gələn iddiaları dünyaya yaymaq, bir məqsəd ətrafında təcili təşkilatlanmaq, biznes strukturlarının inkişafı və müxtəlif ictimai platformalarda təmsilçilik üzərində qurulub.**

**Bu icmalar yaşadıqları ölkələrin sosial və iqtisadi həyatında aktiv rol oynamaqla yanaşı, öz aralarında xüsusilə sıx əlaqələr saxlayırlar.**

**Belə ki onlar separatçı erməni qruplarına maddi yardımlar edir, eyni zamanda əllərinin altında bir neçə erməni terror təşkilatı bəsləyirlər.**

# *Rusiya ölkədə baş verən kriminal hadisələri də Kiyevin üstünə yıxmağa çalışır..?*

**Rusiyanın xüsusi xidmət orqanları yüksək çinli məmurlara qarşı törədilən sui-qəsd hadisələrinə görə Kiyev hakimiyyətini günahlandırır. Onlar hesab edirlər ki, Ukraynanın xüsusi xidmət orqanları bunun üçün ələ alınmış Orta Asiyadan gələn miqrantlardan istifadə edirlər.**

"Rusiya Federal Təhlükəsizlik Xidmətinin məlumatlarına görə, Ukrayna hakimiyyəti xarici xüsüsi xidmət orqanlarının rəhbərliyi ilə Rusiya regionlarında yüksək çinli məmurlara qarşı sui-qəsd planları hazırlayır və həyata keçirirlər"- deyə FTX-nın məlumatında bildirilir.

***P.S.* Ötən əsrin 90-cı illərinfən başlayaraq, Rusiyada tanınmış siyasətçilərə, iş adamlarına, imkanlı şəxslərə qarşı sui-qəsd törədilməsi halları barədə kriminal xəbərlərin yayılması adi hala çevrilmişdi və bu gün də aktual olaraq qalmaqdadır. İndi, deyəsən Kreml bu vəziyyətdən istifadə edərək, Ukraynanı dünya ictimayyətinin gözündən salnaq niyyətindədir...**

**Rüstəm Hacıyev**



Faiq QİSMƏTOĞLU
faiqqismetoglu@box.az

# Axırda bir müəllim qalmayacaq...

**Bu gün müəllimlik peşəsini lap hörmətdən salıblar. Birincisi, hər adama, layiq oldu, olmadı, müəllim deyirlər... Hətta iki eşşəyin arpasını bölə bilməyənə, adını və soyadını düzgün yazmağı bacarmayan, üç-dörd dəfə ağır cinayət törədib yatıb çıxan insana da müəllim deyirlər! Deyirlər, desinlər ey, cəhənnəmə! Əsas məsələ odur ki, o böyük ziyalı adını lap gözdən salıblar! İndi də müəllimi hörmətdən salmaq üçün elə bil ki, kimlərsə gecə-gündüz plan qurur.**

**Və belə getsə, bir müddətdən sonra əksər müəllimlər bu işdən uzaqlaşacaq! Deyirlər ki, "Təhsil haqqında" Qanuna dəyişiklik ediləcək! Yaxşı ideya varsa, qoy edilsin. Amma eşitdiyimiz və mediada səsləndirilən fikirlər kimi olcaqsa, belə dəyişiklik olmasa, yaxşıdı. Nə deyirlər? Deyirlər ki, müəllimlərin əməkhaqqı dərs saatlarına görə deyil, səhər saat 9:00-dan 18:00-a qədər məktəbdə olması ilə ödəniləcək. Məktəb zavoddur, fabrikdir, yaxud hərbi hissədir? Yaxud məktəb məgər konveyerdi? Orada nə isə istehsal olunur ki, müəllim 8 saat məktəbdə olsun?! Müəllimləri bu qədər imtahandan keçirirlər, yenə onlardan əl çəkmirlər. Beş-on manat pul verirlər, onu da burunlarından tökürlər! Diaqnoz qiymətləndirmə, sertifikasiya, müsahibələr... Tay nə bilim, hansı oyunlar...**

**Bunlar Azərbaycan müəlliminin başına açılan müsibətlərdir! Hələ beş ildən bir yenə sertifikasiya... Buna insan əsəbi dözər?! Onsuz da o imtanların həyəcanından nə qədər müəllim xəstəlik tapıb. Bax bütün bunları cəmiyyət görür və özü də təəccüb içində qalır. İndi də 8 saat oyunu ortaya atılıb. Birdəfəlik deyin ki, repetitorluğu ləğv eləmək istəyirik, vəssalam! Heç Sovet dönəmində müəllimlər 8 saat məktəbdə olmurdu. Bəs indi müstəqillik dövründə niyə belə addım atmaq istəyirlər?! Məktəblərə kortəbii yolla təcrübəsiz gəncləri direktor təyin edəndə bilmirdilər ki, vəziyyət belə acınacaqlı olacaq. Direktoru təyin etməzlər, cənablar! Direktoru gəlib kollektivdən seçərlər.**

**Bizdə isə direktoru təyin edirlər. Görürsünüz ki, bu metod özünü doğrultmur. Əgər özünü doğrultmursa, sistemi dəyişmək lazımdır! Deyilənlərə görə, ölkəmizdə 600-ə yaxın məktəbdə direktor yoxdur. Direktorsuz məktəb ailə başçısını itirən evə bənzəyir. Yəni orda nə desən, hansı özbaşınalıq desən baş verə bilər və buna görə heç kəs də məsuliyyət daşımaz! Bu gün Azərbaycanın təhsili çox ağır vəziyyətdədir və təəssüf ki, onun xilas yolu da axtarılmır. Çünki yüksək vəzifədə oturanların çoxunun təhsildən xəbərləri yoxdu.**

**Region Təhsil İdarələrinin bəzilərinə təhsildən xəbəri olmayan adamlar rəhbərlik edir. Və bir də, cənablar, kadr dəyişikliyi hələ islahat demək deyil. İslahat və təhsil strategiyası odur ki, savadlı, təcrübəli və ədalətli müəllimlər yüksək vəzifəyə təyin edilir. Və ölkəmizdə belə müəllimlər kifayət qədərdir. Yetər ki, onlar layiq olduqları yerdə əyləşsinlər. Əgər belə olmasa, vaxt gələcək təhsildəki ədalətsizliyə görə, bir çox müəllimlər sevdikləri müəllim peşəsindən könüllü uzaqlaşacaqlar!!!**

## Yollar dumanlı olanda ...



**Respublikamızın avtomobil yollarında hər gün minlərlə sürücü sükan arxasında əyləşib harasa, gedir.**

Aydındır ki, bütün hərəkət iştirakçıları və eləcə də, sürücülər mənzil başına sağ - salamat çatmaq istəyirlər. Bunun üçün öncə hər bir hərəkət iştirakçısı yol hərəkəti qaydalarına əməl etməlidir. Hamıya o da , məlumdur ki, respublika əhəmiyyətli yollarda tez - tez duman olur.Dumansa istər-istəməz nəqliyyat vasitələrinin hərəkətini çətinləşdirir və bu, qəza şəraiti yaradır. Təbii ki, belə qatı duman olanda yaxın və uzaq məsafəni görmək çox çətinləşir. Bəs bu cür dumanlı, özü də, qatı dumanlı havada sürücülər nə etməlidir? Əlbəttə, bu sualın elə birmənalı da cavabı var. Birincisi , belə çətin hava şəraitində təcrübəsi olmayan sürücülər sükan arxasında əyləşməməlidir! Dumanlı havada ilk növbədə sürücülər ara məsafəsi saxlamalı, qabaq və arxa işıqları yandırmalı, sürət həddini aşağı salmalı, bir sözlə, daha diqqətli olmalıdır.

Bununla yanaşı, mobel telefonla danışmamalı, digər nəqliyyat vasitələrinin də hərəkətini diqqətdə saxlamalıdır.Biz dəfələrlə qatı dumanlı havada respublikamızın avtomobil yollarında zəncirvari qəzaların baş verməsinin şahidi olmuşuq. Bu qəzalar ağır olanda yoda tıxac yaranır, digər avtomobil sürücülərin həyatı üçün təhlükə yaranır. Ona görə də hər bir sürücü avtomobil yollarında hava şəraitin nəzərə almalı,ona uyğun sürət həddi seçməli və yol polisinin tövsiyələrinə əməl etməlidir!

**EMİL FAİQOĞLU**

## Toy karvanlarında ölüm...



**Toydan gözəl nə ola bilər? Əlbəttə, heç nə ! Toy iki gəncin vüsalıdı, iki ailənin sevincdir! Və toy həm də bir elin, bir kəndin bir yerə toplaşması , sevinclərini bölüşdürməsidir.**

Amma gərək toy da , toy ola da! Tay yas yeri yox! Çox təəssüf ki, bu gün bəzi toylarda ,qanqaraçılığı olur, toy karvanında gəlin gətirməyə gedən və qaydanı bəzi sürücülər şou göstərir, avtoxuliqanlıq edərək maşını iki təkəri üstə sürür! Hələ bu da bəs eləmir.

Belə ki, toy karvanındakı bir çox sürücülər bir- birilə ötüşür, tez- tez manevr edir, qəza şəraiti yaradır. 20 gün bundan əvvəl Xaçmaz rayonunda toy karvanında sürətlə hərəkət edən " Jiquli" markalı avtomobil idarəetmədən çıxıb, yolun kənarındakı ağaca çırpılıb. Qəza nəticəsində 23 yağlı oğlan həyatın itirib, maşında olan başqa bir gənc də ağır xəsarət alıb.

Bir neçə gün bundan əvvəl Qubada da toy karvanında hərəkət edən bəzi avtomobillər qəza şəraiti yaradır.Üstəlik də avtomobildəki bir gənc yola pul səpir. Əgər kimsə, o pulu götürmək istəsə, həmin an hansısa, maşın onu vura bilər. Toy sahibləri bu məsələlərə diqqət yetirməli, toy karvanına nəzarəti unutmamalıdır.

Və toy karvanında olan gənclərə ağsaqqallar tərəfindən məsləhətlər verilməlidir ki, onlar toyu yasa çevirməsinlər. Aydındır ki, yol polisi də toy karvanlarında dəcəllik və avtoxuliqanlıq edən gəncləri diqqət mərkəzində saxlayır və lazım gələndə belə sürücülər inzibati və hətta cinayət məsuliyyətinə cəlb edilir!

## "Elit" də 15 manat, başqa aptekdə 6 manat...



**Bu gün heç kimə sirr deyil ki, bir çox dərmanlar ayrı-ayrı apteklərdə müxtəlif qiymətlərə satılır. Təbii ki, bu da , insanların böyük narazılığına səbəb olur!**

Çünki indiki bahalaşma dövründə tək dərmanlar deyil, həm də bütün sənaye və ərzaq , qida məhsulları bahalaşır. Amma gərək bu bahalaşma da əhalinin cibinə uyğun olmalıdır. Ən azından ona görə ki, təqaüdçülər və aztəminatlı ailələr bundan daha çox əziyyət çəkirlər!

Bunlar hamısı aydındır, amma aydın olmayan odur ki, bir neçə satılan dərmanlar bir- birindən fərqli qiymətə satışa çıxarılır. Məsələn, " Elit" aptekdən 15 manata aldığımız " Tizersin"i başqa aptekdən 6 manata aldıq! Məgər , bu qədər də qiymət fərqi olar! Özü də , nə az, nə də çox 9 manat!

Bax , bu , nə deməkdir! Bu o deməkdir ki, bəzi apteklər üçün heç də qanun şah deyil və onlar özlərini şah sayırlar. Hər hər halda , aidiyyəti dövlət qurumları belə qanun pozuntularını diqqət mərkəzində saxlamalı, sui-istifadə hallarına yol verən apteklərin rəhbərlərini və satıcıları cinayət və inzibati məsuliyyətə cəlb etməlidirlər!

## Zeytun yağının qiyməti ceyran belinə çıxıb

**Zeytun yağının xeyiri haqqında çox danışmaq olar.Belə ki, bu yağdan istifadə ürək- damar və diabet xəstələri üçün daha əlverişlidir. Çünki heyvan mənşəli yağlara nisbətən bu bitki yağında xolesterin daha azdır.**

Ona görə də , onun alıcıları və istifadəçiləri son illər bir xeyli çoxalıb. Elə bəlkə də buna görədir ki, son 4-5 ayda zeytun yağının da qiyməti bahalaşıb. Və biz də həmişə bu yağdan istifadə edirik! Çox İtaliya istehsalı olan 5 litrlik zeytun yağı alırıq. Ancaq bəzən bu yağdan da tapmaq olmur.

Axırıncı dəfə bu zeytun yağının 5 litrinə Yeni Günəşlidəki " Rahat"marketdə 50 manat vermişdik. Lakin sonradan da , bu məhsullar qəhətə çıxdı!!! " Ballı" marketdə isə bu məhsullar lap yoxa çıxdı. İki litrlik bu zeytun yağını " Ballı" da 36 manata satırdılar. Başqa zeytun yağını , daha doğrusu, 5 litrlik zeytun yağını " Ballı" da 78 manata qoymuşdular. Ümumiyyətlə, bu marketdə hər şey daha baha qiymətə satılır.



Gedib " Rahat" marketdəki zeytun yağlarına baxdıq . Və orda aztardığımız İtaliya istehsalı olan 5 litrlik zeytun yağını tapdıq. 59 manat , 60 qəpik verib o yağı aldıq. Hansı ki, " Ballı" marketdə bu çəkidə zeytun yağını 78 manata satışa qoymuşdular! Siz Allah , bu qədər də qiymət fərqi olarmı??? Görünür, olar! Niyə olmur!!! Hər halda , belə özbaşınalıqların və hərc-mərcliyin qarşısı vaxtında alınmalıdır!

## Yeni Günəşlidə park sökülür...



**Bakının digər qəsəbələri ilə müqayisədə Suraxanı rayonunun Yeni Günəşli qəsəbəsində normal və günün tələblərinə cavab verən bir park yoxdu. Yeganə babat park " Fatimeyi - Zəhra" məscidinin yanındakı parkdır.Amma ondan əvvəl " Ana- bala" heykəlinin yanından məscidə qədər bir park vardı.**

Onun açılışını da günəşlilər görmədi! Çünki betondan ibarət nəsə böyük bir tikinti inşa etdilər və sonra da onu hündür hasara aldılar. Və camaat bilmədi ki, bura parkdır, yoxsa ticarət mərkəzi? Bax beləcə adı park oldu , özü xarabalıq! İndi də bir aydan çoxdur ki, hasarı söküb, yarımçıq qalmış tikilini sökməyə başlayıblar.

Burda beton dağıdan iri texnikalar, bulduzerlər və digər maşın mexanizmlər işləyir. Və bütün günü sökə - sökdü. Deyirlər ki, guya burda daha müasir bir park salınacaq. Ancaq buna da bir o qədər inanmaq olmur. Başqa bir məlumata görə isə bura yüksək mərtəbəli binalar tikiləcək! Başqa bir mənbə isə bildirir ki, həmin yerdə yeni metro - stansiyası inşa ediləcək. Hər halda , nə tikiləcəksə, xalqın ürəyinə olsun. Görünən odur ki, burada işlər çox sürətlə gedir!!!

## Xırda və orta sahibkarları niyə incidirlər?



**Bu gün ölkəmizdə sahibkarlığın müxtəlif növləri mövcuddur! İri sahibkarlıq sürətlə inkişaf etdiyi halda, xırda və orta sahibkarlığın inkişafına bəzi vəzifəli şəxslər onlara " badalaq" atırlar.**

Təbii ki, bu da istər-istəməz belə sahibkarlığın inkişafına maneçilik törədir. Heç kimə sirr deyil ki , onların imkanları elə də, yaxşı deyil! Bir balaca, özlərini dircələldən kimi o dəqiqə müxtəlif yoxlama orqanları onların başının üstünü alırlar! Yoxlamanın beşi gedir, on beşi gəlir.

Yeni belə sahibkarların əlində- ovcunda olanları müxtəlif yollarla qoparmaq istəyirlər. Mənim bir bərbər tanışım var .Deyir ki, qardaş, başım aşağı salıb, çörəyimi qazanıram. Amma bir də görürsən ki, heç bizə aid olmayan bir qurumdan biri gəlib, qanımızı qaraldır və rahat işləməyə imkan vermirlər!

Aydındır ki, rayonlarda icra hakimiyyətinin başçıları ilk növbədə xırda və orta sahibkarlığın inkişafında maraqlı olmalı , onlara şərait yaratmalıdır! Əgər bu mühit yaradılsa, ölkəmizdə xırda və orta sahibkarlıq inkişaf edər, bu işlə məşğul olanlar rahat nəfəs alarlar!

**EMİL FAİQOĞLU**



# "Tamaşaçı baxdığı veriliş səviyyəsindədir və ondan yuxarı qalxa bilmir..."

**"47 yaşlı qadının həyatına son qoyulub, şübhəli bilinən 15 yaşlı oğlu tutulub. Bu artıq neçənci hadisədir belə baş verir. Çünki efirlər reytinq adı altında mənəviyyatsızlığın təbliğatçısına çevriliblər və həmin verilişlərdən yayılan kadrların altında sosial şəbəkələrdə məhz qadınlara qarşı şiddətin təbliği gedir".**

Adalet.az xəbər verir ki, bunu psixoloq Xanlar Sətullayev deyib.

Psixoloqun sözlərinə görə, həmin verilişlər heç də qadınlara dəstək məqsədi daşımır, əksinə səhv etmiş qadınları ifşa edib qəzəbli kütlənin önünə atır və nəticədə başqa bir oğul anası telefonla danışanda, yazışanda, güzgüdə özünə baxanda həmyaşıdlarının qınaq obyektinə çevriləcəyini düşünüb yanlış düşüncəsinin və əsəbinin qurbanına çevrilir:

"Artıq cəmiyyət qadınlar üçün təhlükəli olmağa başlayır və burada cəmiyyət özü günahkardır.

Hər həftə haradasa belə bir hadisə baş verir, sonra da kimsə reytinq xatirinə gedib ailə üzvlərini, qonşuları danışdırır, hadisəni detallarına qədər çatdırmağa çalışır və beləcə yeni hadisələrə zəmin yaranır.



Tovuzda Monteneqrodan qayıdan kişi bir hadisə törətdi, geniş yazıldı, deyildi və nəticədə bu günlərdə eyni hadisə başqa səbəbdən başqa ailədə baş verdi. Mənəviyyatsızlıq aşılayan, insanları şüuraltı olaraq qanunsuzluğa təhrik edən verilişlərə baxan, züy tutan, illərlə yazmağımıza baxmayaraq, hələ də dərdinə çarə tapmaq üçün dövlət qurumlarına deyil, səviyyəsiz verilişlərə üz tutan və orada şəxsi həyatı bərbad vəziyyətdə olan hərşeyşünaslar tərəfindən alçaldılaraq rəzil duruma salınan cahil insanlar təəssüf ki, hələ də var və sayları durmadan artır. Tamaşaçı baxdığı veriliş səviyyəsindədir və ondan yuxarı qalxa bilmir.

Ona görə də sosial şəbəkədə də hansısa maarifləndirici videoya deyil, məhz qalmaqal videolarına baxırlar. Televiziya dövlətin siyasətini, milli-mənəvi dəyərləri aşılamaqdansa, reytinq xatirinə mənəviyyatsızlıq təbliğ edir və nəticədə dünyaya gələndə şərəfinə qurbanlar kəsilən oğullar gün gəlir onu dünyaya gətirən qadının həyatına nöqtə qoyur".

**Vasif ƏLİHÜSEYN**

# «Azərbaycanın bu marşrutda əsas logistika mərkəzi kimi rolu danılmazdır»

**"Azərbaycan Mərkəzi Asiya əlaqələri yeni geosiyasi mərhələyə qədəm qoyur Mərkəzi Asiya Dövlət Başçılarının Məşvərət Şurasının VII sammitində Azərbaycanın tam hüquqlu üzv qəbul edilməsi regional əməkdaşlıqda yeni mərhələnin başlanğıcıdır. Bu qərar Azərbaycanın artıq Mərkəzi Asiya ölkələri ilə siyasi müstəvidə ortaq platformada təmsil olunduğunu göstərir. Əslində, Məşvərət Şurası ilk olaraq coğrafi yaxınlıq əsasında Mərkəzi Asiya dövlətlərinin siyasi-iqtisadi inteqrasiyasını hədəfləsə də, bu qurum tədricən regional çərçivədən çıxaraq beynəlxalq əməkdaşlıq mərkəzinə çevrilir. Orta Dəhliz və Transxəzər nəqliyyat marşrutu məhz bu yeni geosiyasi**



**xəttin tərkib hissəsidir və Azərbaycanın bu marşrutda əsas logistika mərkəzi kimi rolu danılmazdır".**

Adalet.az xəbər verir ki, bunu politoloq Məhəmməd Əsədullazadə deyib.

O, bildirib ki, İkinci Qarabağ müharibəsindən sonra Cənubi Qafqazda formalaşan yeni siyasi nizam təkcə regionu deyil, bütün Xəzər hövzəsini, o cümlədən Mərkəzi Asiyanı əhatə edən geosiyasi reallığa çevrilib:

"Mərkəzi Asiya ölkələri Azərbaycanın artan siyasi və iqtisadi əhəmiyyətini qəbul edir. Azərbaycan bu region üçün Qərbə açılan təhlükəsiz və təzyiqlərdən uzaq pəncərədir. Bu da dövlətlərə müstəqil qərarvermə və azad ticarət imkanları yaradır. Çünki uzun illər region ölkələrinin Rusiya üzərindən Qərblə əlaqələri siyasi risklərlə üzləşirdi. Azərbaycanın yaratdığı yeni nəqliyyat və enerji arxitekturası isə Avrasiyada daha balanslı və müsbət geosiyasi nizamın formalaşmasına xidmət edir. Qarşıdakı illərdə Zəngəzur dəhlizinin açılması Cənubi Qafqaz ilə Mərkəzi Asiya arasında yükdaşımaları və iqtisadi əlaqələri daha da gücləndirəcək. Bu böyük geosiyasi və iqtisadi layihələrin reallaşmasında Prezident İlham Əliyevin apardığı ardıcıl siyasət xüsusi rol oynayır. Mərkəzi Asiya ölkələrinin Məşvərət Şurasında qəbul edilən sənədlərin Türk və ya İngilis dillərində hazırlanması isə əməkdaşlığın daha geniş beynəlxalq formatda tanıdılması və institusional dərinləşməsi baxımından daha məqsədəuyğun olardı. Növbəti sammitdə Türkiyənin də Şuraya üzv olması prosesin regional miqyasını artıraraq türk dünyasının siyasi inteqrasiyasına mühüm töhfə verə bilər".

**Sübhan**

# Müharibə nə vaxt bitəcək?

**Hazırda dünyada milyonlarla insanı bir sual mararaqlandırır-Rusiya-Ukrayna müharibəsi nə vaxt bitəcək?**

Bu sualı artıq dörd ilə yaxındır raket, dron hücumları, aviazərbələr altlnda yaşayan ukraynalılar verir, bu sual təhlükəsizliyi müharibənin sonsuzluğa qədər uzana biləcəyi qorxusu altında qalan avropanıda verir.

Rusiyanın hazırda diplomatik meydanda məğlubiyyəti, döyüş meydanında Kremlin istədiyi nəticəyə nail ola bilməməsi, ölkəni acınacaqlı məğlubiyyətə gətirib çıxara bilər.

Müharibə çoxlarının praqnozlaşdırdığı Ukraynanın ərazilərini itirəcəyi ssenarisi üzrə deyil, hamını şoka sala biləcək ssenariylə davam edərsə, Rusiya məğlub olarsa, nələr baş verə bilər? Bu sual eyni zamanda hərbi ekspertləri düşündürür. Hələ 2014- cü ildə bir çox siyasilərdən fərqli olaraq, Rusiya-Ukrayna münaqişəsinin lokal deyil, Rusiya silahlı qüvvələrinin hücuma keçməsi nəticəsində uzunmüddətli qanlı müharibəyə çevriləcəyini bildirən, professor Timati Şnayder hesab edir ki, bu müharibədə Ukraynanın qalib gəlməsi, Rusiya üçün böyük hədiyyə ola bilər, Kremlin məğlub olması rus xalqını azadlığa çıxarar. "Məğlubiyyət, Putinizmdən xilas olmaq üçün katalizator rolunu oynaya bilər".

Tarix göstərir ki, məğlubiyyətə uğramış rejimlərin xalqları sonradan yüksəlişə nail olurlar. Vaxtı ilə, Almaniyada da, Yaponiyada da belə olmuşdu.

Diktatura rejimindən xilas olan bu ölkələrin sonradan necə inkişafa nail olmasl göz qabağındadır.

Şnayder bildirir ki, Rusiyadakı hazırki rejim ölkənin gücünü deyil, imperiya xəstəliyinin göstəricisidir. Ukrayna müharibəsində məğlubiyyət, Rusiyanı imperiya sindromundan azad edə və normal, inkişaf etmiş demokratik bir dövlətə çevirə bilər.

Müharibənin sonunda Rusiyanı nələr gözləyir, tədricən ağrılı modernləşmə, yoxsa 90- cı illərin xaosu? Bu sualın cavabı təkcə 140 milyonluq Rusiya vətəndaşlarını deyi, zamanda avro-asiya qitələrinin də taleyinə aydınlıq gətirəcək. Rusiya tarixi üzrə tanınmış tarixçi alim Stiven Kotkin hesab edir ki, müharıbıdə məğlubiyyət tezliklə, nə Rusiyanı avtomatik demokratikləşməsinə, nə də dağıllmasına gətirib çıxarmayacaq. Hər şey Rusiya elitasının kritik zamanda özünü necə aparacağından asılı olacaq. Kotkin xəbərdar edir ki, elita ölkədə rejimi dəyişməklə inkişafada gətirə bilər, qarşısı alınmaz xaosada sürükləyə bilər.

Kotkinin fikirincə, hər iki vəziyyət ağrılı və uzun müddətlı zaman tələb edir. Hər iki variantın qərarırını nə rusiya xalqı, nə də Avropa deyil, Kremldə əyləşən kiçik bir qrup həll edıcək...

**Təbii ki, müharibənin istənilən ssenari ilə davam etməsi heç bir halda tərəflər arasında sülhə nail olmağa xidmət etmir. Qərbin Rusiyanı çökdürmək üçün Ukraynanı silah-sursatla təmin etməsi, hələ ukraynalıların qələbə qazanacağına təminat verə bilməz. Qələbə üçün NATO qüvvələri açıq şəkildə müharibəyə qoşulmalıdır. Lakin, Qərb belə bir riski gözü qarşısına almağa hazırdlrmı?..**

**Rüstəm Hacıyev**

***Elşad Paşasoy***

# Uşaqlara meydan(ça) verin...



**Azərbaycan millisinin 1-3 hesabı ilə Fransaya uduzmasının günahkarı Şahruddin deyil. Onun azərbaycanca danışmasını isə ələ salmaq yox, əksinə, alqışlamaq lazımdır. Ən məşhur oyunçular bəzən elə səhvlər edirlər ki...Oyuna 8-ci dəqiqədən baxdım, yuxudan ayılanda... Hesaba baxdım, elə bildim yuxudayam: 1-0!!! 4-cü dəqiqədə qol vurmağı bacardı uşaqlar.**

**Özlərini bəzən qaldırıb yerə çırpırdılar, top uğrunda. Bundan o tərəfə mümkün olmurdu. Bu, acı reallıqdır ki, futbolumuzun durumu ürəkaçan deyil, bunun əziyyətini illərdir fədakarlıq edən "Qarabağ FK" da çəkir. On illərin problemləri qalaqlanıb. Amma ümidsiz olmayaq, mümkündür. Uşaq futbolundan çox danışılır. Şəhər və rayonlarda mini meydançalar üçün nə lazımdır: ətrafı üçün "setka" - dəmir tor, iki qapı və yerə döşəmək üçün yumşaq döşəkçə tipli material. (Süni ot örtüyü zədələnmələrə səbəb olur, amma asfaltdan yaxşıdır) Uşaqlarımız bu minvalla futbol oynamağa başlasa, 10-15 il sonra azı U12-dən başlamış yuxarı yaşlara qədər uşaqlarımızın uğurlarına şahid olacağıq, klublarımız da, millimiz də yerli futbolçulardan korluq çəkməyəcək, üstəlik, Arda Gülər kimi milyonlarla dəyəri olan yeniyetmə və gənclərimizlə fəxr edəcəyik. Top qovmaqla ayaq açan uşaqlara meydan(ça) verin, və nəticəsini görün, lütfən! Azərbaycan Futbol Federasiyaları Assosiasiyası - AFFA milli baş məşqçiyə etibar etməklə çox doğru qərar verdi. Amma davamı gəlməlidir...**

**Hələ də gec deyil...Dünən o qədər azarkeşi peşiman yola salmaq insafdan deyildi...Amma yenə də deyirəm, günah Şahruddində deyil, elə hamımızdadır...**

## *"Azərbaycan gələcəkdə Ermənistana qaz sata bilər"*

**"Ermənistanın baş naziri Nikol Paşinyan "Tramp marşrutu"nun işə düşməsindən əvvəl Azərbaycanla elektrik ötürücü xətlərinin ilə qaz kəmərinin tikintisini reallaşdırmaq istəyir. Bu Azərbaycanın maraqlarına uyğundurmu? Əlbəttə, Ermənistan iqtisadi baxımdan nə qədər Azərbaycan və Türkiyədən asılı vəziyyətə düşərsə, bu ölkəmiz və bölgəmiz üçün faydalı olacaq. Bu mənada Azərbaycan gələcəkdə Ermənistana qaz sata bilər".**

Adalet.az xəbər verir ki, bunu politoloq Elxan Şahinoğlu deyib.

Politoloqun sözlərinə görə, bunun reallaşması üçün iki ölkə arasında sülh sazişi imzalanmalıdır: "Əgər Paşinyan elektrik və qaz nəqlini erkən reallaşdırmaq istəyirsə, parlament seçkilərini erkən tarixə təyin etməli və referendum keçirərək Konstitusiyanı dəyişdirməlidir. Bu halda gələn il dəhlizin tikintisi ilə yanaşı qaz xəttinin bərpasının da şahidi ola bilərik. Dəhlizə gəlikdə isə Paşinyan bu məsələni bütövlüklə ABŞ-a yükləyib. Paşinyan "Tramp marşrutu"nun uzunmüddətli icarəyə verilməsi ilə bağlı iki variantndan birini seçəcək, ya 49 illik, ya da 99 illik müqavilələri imzalanacaq. Hər iki variant dəhlizə ABŞ-ın nəzarətini nəzərdə tutur. ABŞ dəhliz üçün gərəkli olan maliyyənin bir hissəsini ayırıb. Buna baxmayaraq, Paşinyan tikintini 2026-ci ilin ikinci yarıısnda başalayacağına ümid edir. Tikinitinin hansı tarixdə başlayacağı və sürəti Vaşinqtonun atacağı addımlardan asılı olacaq".

## *"ABŞ-nin Rusiyaya sanksiyaları yetərli deyil"*

**"Rusiyanın Ukraynanın mülki infrastrukturuna qarşı ballistik raketlərlə kütləvi hücumu daha da genişlənir. Görünür, Vladimir Putin Ukrayna qoşunlarının müqaviməti sayəsində qoşunlarının irəliləyişlər əldə etməməsindən belə bir kütləvi hücuma əmr verib".**

Adalet.az xəbər verir ki, bunu politoloq Məhəmməd Əsədullazadə deyib. Onun sözlərinə görə, amma, qarşılıqlı olaraq Ukrayna Rusiyanın iri şəhərlərində neft emalı zavodlarına və enerji infrastrukturuna Neptun və Flamingo raketləri ilə güclü zərbələr endirir:

"Rusiyanın ötən gün Kiyevə hücumuna cavab olaraq Ukraynanın Moskvaya hücum edəcəyi mümkündür. ABŞ ilə Rusiya danışıqları baş tutmur. Çünki, Rusiya öz mövqeyindən və ilkin tələblərindən qismən geri çəkilsə də, Ukraynanın onun nəzarətinə verilməsini tələb edir. Ukraynanın Rusiyanın orbitinə geçməsi isə, Şərqi Avropanın Rusiyanın nəzarətinə keçməsi deməkdir. Qərblə Rusiya arasında diplomatik danışıqlar baş tutmadığından hərbi əməliyyatlar intensiv şəkildə davam edəcək. Rusiyanısanksiyalar ilə deyil, Ukraynaya hərbi dəstəyi artırmaqla, yeni ballistik raketlər verməklə məğlub etmək olar. Ona görə də Qərbin sanksiyalar paketi effektli deyil. Nə qədər ki, Ukraynanın hava məkanı bağlanmır və yetərincə PATRİOT və ballistik raketlər verilməyincə sürünən müharibə davam edəcək. Rusiyanı yalnız cəbhə xəttində məğlub etmək və qoşunlarını Ukraynadan vurub çıxarmayınca, Qərbə qarşı təhdidlərini davam etdirəcək".

**Vasif**

# QƏDİR RÜSTƏMOVUN OV MACƏRALARI VƏ YOLUMUZUN ÜSTÜNƏ ÇIXAN QARA PİŞİK

**Bu yazının ərəblərin ov eləməsi ilə bağlı heç bir əlaqəsi yoxdu. Elə baxıram ki, mətbuat və sosial şəbəkələr hamısı ovdan yazır, ovçuluqdan yazır. Və ümumiyyətlə, ovçuluğu vəhşilik adlandıranlar da var.**

Mən də ov həvəskarıyam. Əvvəllər çox gedərdim, amma ov yoldaşlarımın bəziləri rəhmətə getdiyindən, bəziləri isə mənim kimi yaşlaşdıqlarına görə son illər ov məni maraqlandırmır, hərdən ürəyimdən keçsə də.

Hətta İctimai Televiziya bir zamanlar mənimlə bağlı "Ovçu" adlı sənədli film çəkmişdi. Məndən əvvəl də Vaqif Səmədoğludan çəkmişdilər.

Vaqif Səmədoğlu əsl ovçu idi, quşu gözündən vururdu. Amma onunla bir yerdə ova getmək qismət olmadı.

Ov dünyanın ən gözəl istirahətidi. Ovdan aldığın ləzzəti heç nə əvəz edə bilməz. Hətta Cenifer Lopez də.

Ovçuluğu atamdan öyrənmişəm. O vaxtlar doğulduğum kənddə ov quşlarını sapandla da vurmaq olardı. İndi lampayla da axtarsan tapmazsan. Tüfəngi götürüb çıxardı elə kənddəki bağımıza, iki-üç turac vurardı. Ya da kənddən çıxardı taxıl zəmilərinə, bildirçin vurardı. Mənə də güllə atmağı öyrədərdi. Biz Ağdama köçəndən sonra atamın Ağcabədidəki sovxozundan Ağdama iki yol gəlirdi - biri Hindarxdan, biri də Haramıdan, Mərzilidən. Haramı yolu ağır yol idi, yəni kənd yolu. Əvvəllər iş yeri Ağdamdan uzaq olduğundan həftədə bir dəfə gələrdi. Hər dəfə gələndə də ya iki-üç turac, ya da iki-üç kəklik gətirərdi. Yəni evimizdən ov quşu əskik olmazdı. Anam ov əti yeməzdi. Çox qəribədir ki, xanımım da ov əti yemir.

Atamın tüfəngi həmişə maşında yanında olardı. Sürücüsü öyrənmişdi necə sürsün ki, atama yön versin.

Ağdama köçəndən sonra atam heç vaxt məni ova aparmadı, amma...

Amma... Universitetə qəbul olunandan sonra Ağdamdakı dostlarım - Xallı Şahin və Tahir abi məni Qədir Rüstəmovla tanış elədilər. Həmin vaxt mən Qədirdən nə isə yazırdım. Elə yazdım da, 18 yaşım vardı - "Evləri köndələn yar" povesti. Düzdür, povest "Ulduz" jurnalında 10 ildən sonra çap olundu. Bəxtiyar Vahabzadənin təqdimatına baxmayaraq, 1971-ci ildə "Ulduz" jurnalının baş redaktoru Əhməd Cəmil çap eləmədi ki , komsomolçu komsomolçunu bıçaqlayır. 10 il sonra da çap eləmək istəmirdilər, sonra Anarın qorxusundan çap elədilər.

Həm Xallı Şahin, həm də Tahir abi (qeyri-adi adam idi, cavan rəhmətə getdi, elə Qədir kimi əti acıydı. Arıq, vurub-tutmağı bilməyən bir oğlan idi, amma Ağdamın özündən deyən cavanları onu görəndə ayağa dururdular) dedilər ki, Qədiri yaxından tanımaq üçün gərək onunla ova gedəsən, yol yoldaşı olasan.

Ondan əvvəl Məşədi Nərimanın oğlu Aydın Mehrəliyev (Qədir Rüstəmovun çəpər qonşusu) məni aparmışdı Qədirin yanına ki, bu dostumuz səndən povest yazmaq istəyir. O da baxmışdı ki, çəlimsiz bir uşaq, Anar deyil, İsi Məlikzadə deyil, Seyran Səxavət deyil mənlə bir az məzələnmişdi və demişdi ki, getsin yazsın da, mən nə deyirəm ki. Yəni məni, belə deyək də, qəbul eləməmişdi.

Amma elə ki, Tahir abiylə getdik, məni qəbul elədi. Mənim də ova qoşulmağıma razılaşdı. Həm də dedi ki, ə, noldu povestin?

Bu povestlə bağlı çox məsələ var, sizi yormaq istəmirəm. Mən Qədirə necə izah edəydim ki, heç vaxt komsomolçu olmayan Qədiri heç vaxt komsomolçu olmayan bir qonşusu bıçaqlayıb və sair və ilaxır.

Və beləliklə, Qədir Rüstəmovla bizim dostluğumuzun kökündə ov dayandı.

Qədir də adətən balığa gedəndə Ağcabədidəki kanallara və ya Kürə, ov ovlamağa getmək istəyirdisə Ağgöl tərəfə üz tutardı. Qədirin ən çox sevdiyi balıq ovu idi. Tilovunu atardı kanala, ya Kürə və saatlarla sakit oturub gözləyirdi ki, nə vaxt balıq çıxacaq.

Mən tələbəydim, amma Qədir mənə "Məllim" deyə müraciət edərdi.

**- Məllim, o balıq ki düşür ey, tilovu ki çəkirəm ey, elə bil ordan fil çəkirəm.**

Qədir əti acı adamdı. Onla ünsiyyət qurmaq çətindi. Söhbətimiz bəzən tuturdu. İlk dəfə balıq ovuna gedəndə dedi:

**- Məllim, sən get məndən əlli metr o tərəfdə tilov at.**

Öz yanında heç kimi görmək istəmirdi. Ona görə yox ki, yanındakılar onun tutacaqları balıqlara şərik ola bilərdilər. Ona görə ki, tək qalmaq istəyirdi. Bəzən bir-iki saat tilovuna heç nə düşməzdi. Amma onun vecinə deyildi. Əslində Qədir balığa hamıdan qaçmaq üçün gedirdi. Bu yalan dünyadan, mənasız insanlardan qaçmaq üçün. Gedirdi və özüylə, Allahıyla tək qalırdı. Necə ki insanlar namaz qılanda Allahıyla tək qalmaq istəyir, Qədirin də Allahıyla tək qalmağı həmin o balıq tutmağı idi. İlahi, görən Qədir o saatlarda nə düşünürdü və beynində hansı "namazı" qılırdı?

Bir dəfə yenə Ağcabədidə kanalda balıq tuturuq, təbii ki, hamımız Qədirdən qırx, əlli metr aralıyıq. Uzaqdan bir səs gəlir:

**- Ay Məhəmməd ey, ay Məhəmməd ey...**

Qədir qalxdı ayağa və başladı yarım kilometr uzaqlıqdakı körpüyə getməyə.

**- Qədir, haraedirsən?**

**- Ə, görmürsən bağırır, balıqları qaçırır. Gedim deyəm ki, bağırma.**

Əslində həmin səs balığı qaçıra bilməzdi. Qədirin "namazını" pozmuşdu, Qədirlə Allahın arasına girmişdi.

Qəribəydi ki, Qədirin tilovuna daha çox balıq düşürdü. Qədir o balıqların hamısını evə aparmazdı, qonum-qonşuya paylayardı, iki-üçünü də ailəsinə verərdi.

Qədirlə birinci dəfə ova gedəndə tutduğu bütün balıqları mənə bağışladı. Dedi ki, adətdi, ilk dəfə ova gələnə bütün ovlar hədiyyə olunmalıdı. Dedim, Qədir, bir belə balığı neyləyirəm? Dedi ki, sən də apar payla qonşularına, də ki, özüm tutmuşam. Mən həmin gün valideynləri iclasa çağırılacaq üççə dənə balıq tutmuşdum.

Qayıtdıq Ağdama. Sarıcalıda tutduğumuz balıqlardan Süleymanın pavilyonunda bir neçəsini qızartdırıb yedik. Təbii ki həm də içki məclisi oldu.

Onda mən içki içmirdim. Biləsiniz, Qədir də içki sevən deyildi. Hərdən çayına 20-30 qram konyak qatıb içirdi.

Mənim içki içmədiyimi görüb dedi:

**- Məllim, sən nə ağıllı oğlansan? Məndən məsləhət, heç vaxt içmə. İçməsən böyük yazıçı olassan.**

Üstündən illər keçdi. Bir gün Qədir öyrəndi ki, mən də hərdən içirəm.

Dedi:

**- Bu gitara çalanlar eşidiflər ki, Rəmiş nəşə çəkir, başlıyıflar nəşə çəhməyə ki, Rəmiş olsunlar, amma hamısı dəmiş oldu. İndi yəqin sən də eşitmisən ki, yazıçılar, şairlər içib Səməd Vurğun olajaxlar, amma hamısı durğun oluf. İçmə!**

Qədir daha çox balıq ovuna gedirdi. Çox az hallarda Ağgölə ördək vurmağa gedərdi. İlk dəfə mənimlə Ağgölə quş ovuna gedəndə də vurduqlarını mənə bağışlamışdı.

Ova gedəndə hamı çalışırdı ki, Qədirin maşınına minsin. Çünki yolda Qədir nə isə oxuya bilərdi. Mənim səsim yoxdu. Amma dostlar başlayardılar hərə bir ağız oxumağa ki, Qədiri də cuşa gətirsinlər. Amma keçməzdi. Qədir oxumaq istəmirdisə, başına avtomat dirəsən də oxumazdı.

Deyirdi:

**- Ə, səsinizin kal yerinə salıf özünüzü yormuyun, oxumeyjam.**



Amma bir də görürdün ki, asta-asta başladı oxumağa.

Bilmirəm Ağdam uşaqlarında həmin lent durur, yoxsa yox, görürdün oxuyur və birdən kimsə yanından keçən maşın pis sürür, ona bir babat söyür:

**- Ay sənin ananı...**

Qədirin həmin söyüşləri də bal kimiydi. Və onu da hansısa oxuduğu muğam üstə deyirdi.

Qədirin səs kökləməyindən xəbəriniz varmı?

Mən ilk dəfə bunu İsa bulağında gördüm. Üzünü tuturdu dərəyə və muğam üstündə deyirdi:

**- İs-ma-yıl, ay İs-ma-yıl, ay İs-ma-yıl...**

Sonra boğazını arıtlayırdı, bir də çağırırdı:

**- İs-ma-yıl...**

Və sonra başlayırdı da. Hamını, o meşələri də, İsa bulağını da o dərələri də yığırdı səsinin içinə və qaranquşu ki yuvadan açıb buraxırsan ha, o səsi də açıb buraxırdı bütün dünyaya. İlahi, bu nə idi?

***

Dorik adlı bir idman müəllimi vardı, erməni idi. Şəhərdə az-çox hörməti də vardı, həm də ovçuydu. Biz iki əmioğlu çəpər üstə dava edirik, amma ermənilər yeddi arxa dönənlərini tapıb bir-birilərinə dayaq dururlar.

Şarl Aznavurun altıncımı-yeddincimi babası erməni idi, qazandığını tökürdü Ermənistana, Qarabağa. Amma Rober Osseyn bizə müharibə vaxtı və ya müharibədən sonra qaçqınlarımıza bir şirniquş göndərməməsi cəhənnəm, heç bir dəfə də xeyirimizə bir söz söyləmədi.

Nə isə... Bu Dorikin İtaliyada yeddi arxa dönənindən bir qohumu vardı. Tez-tez Dorikə müxtəlif hədiyyələr göndərirdi. Bir dəfə də bir ov tulası göndərmişdi. O da fors eləmək üçün Qədiri qonaq çağırır və tulasını nümayiş etdirir. O tulanı mən də görmüşdüm. Doğrudan da qeyri-adi bir cins idi.

İtin pasportunu da Qədirə göstərir. Deməli, pasportda itin də yeddi arxa dönəninin adı, nə bilim cinsi, deyəsən, həttə doğum tarixi də vardı.

Qədir pərt olur, amma özünü o yerə qoymur. Deyir ki, Dorik bir öz pasportunu da götür görüm. Təbii ki, Dorikin pasportunda adıdı, atasının adıdı, bir də doğum tarixidi. Pasportları yanaşı qoyub deyir:

**- Dorik, itiyin nəsli sənin nəslindən nə qədər qədimiymiş?!**

Amma Qədir heç vaxt Doriklə ova getmirdi. Dorik yalvarırdı ki, Qədir, bir dəfə mən də sənlə gedim ova, Qədir də deyirdi:

**- İtin sənin kimi döyül, nəsilli-köklü itdi, istiyirsən ver onu aparım.**

Qədirinki heç kimlə tutmurdu, bircə Tahir abidən başqa. O dövrlər "abi" sözü yox idi. Mən indi yazanda "abi" yazıram, çünki Ağdamda hamı ona böyük qardaş kimi baxırdı. O da Qədir kimi çox danışmağı sevməzdi. Ona görə də Qədirlə onunku tuturdu, çünki iki-üç saat oturub balıq tutardılar, dinməz-söyləməz. Xallı Şahinlə dostuydu, amma həmişə onu sancardı. Çox cavan öldü, Ağdamsızlığa dözmədi.

Ağdam işğal olunandan sonra Qədir day toylara getmirdi, daha dəqiq desək, toy aparmırdı. Yaxın dostları öz toylarına qonaq kimi dəvət edəndə xahiş-minnətdən sonra bir ağız oxuyardı, amma könlü istəsə. Deyəsən, day heç ova da getmirdi.

Bir gün Xallı Şahin dedi ki, gedək Qədiri tapaq, aparaq bir ova, könlünü açaq. Getdik Oğuza, Qədiri tapdıq. Qayıdanda Zərdab yoluyla qayıtdıq. Körpünü keçəndən sonra Yastı yol adlı bir kənd var. Əsas küçəsi kəndi iki yerə bölür. Kür tərəfi Zərdabındı, alt tərəfi Ağcabədinin. Deməli, qardaşlardan biri zərdablıdı, biri də ağcabədili. O vaxt bu kəndi hansı axmaq bölüb, amma sonra da heç bir ağıllı buna bir əncam çəkməyib.

Xallı Şahinin həmin kənddə Paşa adlı bir dostu var, elə hamımız onun xətrinə çox istəyirik. Xətirli-hörmətli kişidi. Elə olub ki, iki maşın adam gecə evinə qonaq getmişik durub qoyun kəsib, yemək-içmək, sonra da hamı yıxılıb yatıb orda. Kəndin Ağcabədi tərəfində yolun qırağında bir yeməkxanası var. Maşınları orda saxladıq. Bizi elə qarşıladı ki, elə bil yüz ildi görmür. Səhər-səhər idi, bir çay içdik, nə qədər elədi oturmadıq. Şahin dedi ki, sən axşama hazırlıq gör, həm balığımız olacaq, həm də sənə bu dəfə qaz vurub gətirəcəm.

Paşa kişi:

**- Ə, Tulaya samovar aparmazlar. Kürün qırağında yaşayan mənəm, amma vura bilsəniz qaz demirəm, üç-dörd dənə turac gətirsəniz sizə yaxşı bir plov dəmlədərəm. Özü də yeməkxanada yox, evdə. Qədir yeməkxana qonağı deyil.**

Qədir həmişəki kimi dinib-danışmırdı, çox fikirli idi. Hardan ağlına gəldisə birdən qəfil soruşdu:

**- Məllim, görən Dorikin iti durur?**

Çaşdım qaldım.

**- Nə bilim, vallah, Qədir. Yəqin ki, durmuş olar.**

Köpəyoğludan zəhləm getsə də, amma itindən yox idi.

Bir kəndin içindən keçəndə yolumuzun üstünə bir qara pişik çıxdı. Hamımız dilxor olduq. Dedik ki, bu gün bəxtimiz gətirməyəcək.

**(ardı 14-cü səhifədə)**



Əbülfət MƏDƏTOĞLU
madatoglua@mail.ru

# "GECƏ YARISI DÖYÜLƏN QAPILAR" AÇILDI

## Yazıçı-publisist Əlövsət Bəşirlinin DOĞUM GÜNÜNƏ

**Bu bir həqiqətdir ki, insanın dayaq nöqtələrindən biri də onun yaddaşıdır. Bu mənada əhvalımın bütün məqamlarında hər şey üçün yaddaşıma güvənmişəm - qəfil sorğuda da, söz sözü çəkəndə də, nəyinsə acısını və ya sevincini yaşayanda da. Odur ki, "yaddaş kartı"nı yeniləmək, ona söykənib dünənə boylanmaq həm xoş təəssürat yaradır, həm də insanın özünü özü ilə üz-üzə gətirir. Bu qarşılaşma da təkcə bir an içində baş verməklə bərabər, həm də o bir an bir ömrün bir parçası olur. Onda özün özünlə danışdıqca həm də o anın içərisində olanları sanki sıfırdan başlayırsan yaşamağa. Doğrudur, bəzən bu yaşamaq cəhənnəm əzabı olur, bəzən isə...**

Bəli, mən indi "yaddaş kartı"nın işığında dayandığım nöqtədən dünənə baxıram və baxdıqca da o məsafə gah uzaqlaşır, gah da yaxınlaşır. Bu, xaotik hərəkət deyil, nizamlı bir xatirədir. Məndən dünənə, dünəndən mənə yol gəlir. Bu yolu hər iki istiqamətdə gedib-gələn isə Onunla mənəm. O, yəni haqqında yazdığım adam yaşda da, dünyagörüşdə də, dünyaya baxışda da, hətta sözün təzə-tərini yaratmaqda da məndən öndədi. Mən onu izləyir, ondan öyrənir, həm də onu dinləyirəm. Axı, o məni gecə yarı qovulduğum kəndimə aparır. Özü də heç nəyə, heç bir təhlükəyə əhəmiyyət vermədən üzü Tuğa istiqamət götürüb onun idarə etdiyi maşın. Bu gecə yarı maşını Tuğ kəndinə sürən yazıçı-publisist, dünyanın bir çox üzlərini görmüş, bir çox nəhənglərini tanımış, bir çox nurlu ziyalılarımızla çiyindaş olmuş və ümumiyyətlə, bir çoxlarından bir çox mətləblərdə fərqlənmiş Əlövsət Bəşirlidir...

Az qala 10 günə yaxındır ki, tez-tez xatırlayıram onu. Təbii ki bu da səbəbsiz deyil. Çünki gözümün qabağına yaşadığım həyatı gətirirəm, başıma gələnləri xatırlayıram və həmin anda özözümə sual verirəm:

**- Bunun özümdən başqa kiməsə bir dəxli varmı? Kimsə bundan iynə ucu boyda təsirlənibmi? Kimsə buna bir əks-səda veribmi? Və nəhayət, kimsə bunun necə bir yaşam olduğunu hiss edibmi?**

Bax bu suallar ayrı-ayrılıqda cavabı ilə birlikdə böyük bir mövzudu, lakin bütünlükdə mənim həyatımdı və eyni zamanda da mənim tamaşaçı kimi oturub baxdığım səhnədi. Orda baş verənləri təkrar yaşamaq həm ağırdır, ikiqat acıdır, amma həm də bu günə şükürlər üçün bir dayaq nöqtəsidir, güvəncdir. Deməli, bütün bunların da ən maraqlı məqamı məhz əvvəldə səsləndirdiyim sualların birinə söykənən bir gerçəklikdir. Həmin sual da mənim yaşamımın ifadəsini qələmində, sözündə oxucuya çatdıran bir ağsaqqal dostumun həm bədii, həm də gerçək anlamda yanımda olmasıdır. Təbii ki, söhbət müqtədir qələm sahibi, yazıçı-publisist Əlövsət Bəşirlinin mənim həyatımı ədəbi müstəviyə gətirən "Gecə döyülən qapılar" sənədli-publisist yazısıdır...

Bu gün ailəvi dost olduğum yazıçı-publisist Əlövsət Bəşirlini əvvəllər mən ancaq imzası ilə tanımışdım. Və təbii ki, bütün tanıdığım imzalar içərisində olan bu imzada bir sanbal var idi, çəki var idi. Oxuyanda hiss edirdim ki, sözün, qələmin sahibi həyatın içindən çıxıb bərkə-boşa düşməyin, sözü qəlpə-qəlpə cümləyə çevirməyin bütün qaydalarını bilir və keçib gəlib onlardan. Ona görə də oxuduğum publisist yazıları, məqalələri məndə bir əminlik yaratmışdı. Bu əminlik də Əlövsət Bəşirli imzasının və sözünün gerçəkliyi ifadə etməsi, fantaziyadan daha çox, yaşanmış həyatın inikası olması idi. Və...

"Ədalət" qəzetində bir yazı yazmışdım özüm haqqında, yaşadıqlarım barəsində. Orda yazmışdım ki:

*Yandı evim-eşiyim,*
*Yandı divarım-daşım...*
*İsit, qoyma üşüyüm,*
*İsit məni, göz yaşım.*

Bəli, həmin yazını bu gün adını fəxrlə çəkdiyim, ruhuna dualar oxuduğum görkəmli yazıçımız Nahid Hacızadə oxuyub mənə zəng etdi:

**- Mədətoğlu, düş yanıma.**

Və mən də başımı aşağı salıb düşdüm Nəşriyyatın 5-ci mərtəbəsində Nahid müəllimin iş otağına. Onunla üzbəüz bir nəfər oturmuşdu. Çöhrəsi mənə tanış gəldi. Hardasa gördüyümü düşündüm. Nahid müəllim məni həmsöhbətinə təqdim etdi:

Əlövsət, Mədətoğlu həm də yaxşı şairdi. Bəxtiyar Vahabzadə ona çox yüksək qiymət verib, - dedi.

Tanımadığım bir şəxsin yanında bu cür tərif, təbii ki, biraz məni sıxdı. Amma Əlövsət adı



yaddaşıma işıq saldı. Xatırladım Əlövsət Bəşirlini. Bax, beləcə başladı bizim üzbəüz tanışlığımız. Nahid Hacızadə bizim dostluğumuzun özülünü qoydu. Həmin özül üzərində Bəşirli ailəsi ilə dostluq, bir-birinə ehtiram və etibar boy göstərməyə başladı. Ən vacibi isə həmin ailənin çox incə ruhlu yazarları Dilarə xanım Vəkilova Bəşirli və bir də Aynur xanım Bəşirli artıq mənə yeni yaradıcılıq imkanları üçün bir növü yardımçı oldular. Çünki Dilarə xanımın yazılarım barəsində fikirləri, təklif və iradları bir oxucu və redaktor yanaşması idi. Təbii ki, bu da məsuliyyət deməkdir.

Həmin o görüşdən sonra Əlövsət Bəşirlinin "Ədalət" qəzeti ilə canlı ünsiyyəti demək olar hamıya sirayət etdi. İstər operatorumuz Gülər xanım, istər dizaynerimiz Şamxal bəy, istərsə digərləri Əlövsət Bəşirlinin redaksiyamıza gəlişini həmişə açıq üzlə, xoş ovqatla gözlədilər və qarşıladılar. Çünki Əlövsət Bəşirli redaksiyaya müsbət aura gətirirdi. Onun təması, irad və təklifləri, hətta "balalarım" deyə müraciəti hamı üçün səmimiyyətin gül çələngi idi. Bir gün də Əlövsət müəllim telefonda mənə dedi ki, Mədətoğlu, yaman kövrəltmisən məni. Bu şeirin çox düşündürür. Deyəsən, nəsə yaranır içimdə. Həmin şeiri təkrar dedi mənə telefonda:

*Qayğılı çəkdiyim, dərdli çəkdiyim,*
*Bu boyda Bakıda dərddi çəkdiyim!*
*Mənim azadlıqda şərti çəkdiyim -*
*Cəzanın adını çəkənlər bilər!*

**- Mədətoğlu, nə çəkdiyini, qaçqınlığın, yurdsuzluğun sənə nə yaşatdıqlarını ürəyimə od sala-sala hopdurursan mənə. Hər şeydən məlumatım var. Erməni azğınlığını da, Xocalı faciəsini də, Qaradağlı qətliamını da bilirəm, mətbuatdan da, efirdən də, tanış-bilişdən də eşidib öyrənmişəm. Amma sən bütün bunları öz yazılarınla, söhbətlərinlə sanki mənə diqtə edirsən. Elə bil əlimdən tutub məni doğulduğun Tuğ kəndinin məhəllələrində gəzdirirsən. Ermənilərin harda güllə atdığını, harda pusqu qurduğunu göstərirsən mənə. Artıq bütün bunlar mənim masamın üstündəki vərəqlərdə qeydlərə çevrilib. Yaxın günlərdə sənə ithaf etdiyim və sənin həyatından bəhs edən "Gecə yarısı döyülən qapılar" sənədli-publisist oçerkimi redaksiyaya təqdim edəcəm.**

Bu xəbər məni bir anlıq çaşdırdı. Deməyə söz tapmadım. Hiss etdim ki, gözümün dibində şeh var. Ürəyimin döyüntüsü də biraz dəyişib. Toparlandım. Sadəcə təşəkkür etməyə söz tapa bildim. İçimdə isə o yazını oxuyacağım günün daha tez gerçəkləşməsi diləyi duaya çevrildi. Çox qısa zamandan sonra redaksiyada həmin əlyazmanın ilk oxucusu oldum. Bax onda bir daha Əlövsət Bəşirlinin bir yaradıcı insan olaraq nə qədər böyük diapazonda diqqətcilliyi, həssaslığı mənə bəlli oldu. Anladım ki, Əlövsət müəllim mənim yazılarımı oxuyanda, biz birlikdə olanda etdiyim söhbətləri, danışdığım xatirələri, döyüş bölgəsində yaşayan doğmalarımla əlaqələrimi, bir sözlə, bir nəfərin timsalında bir kəndin, bir elin həyatını özü üçün hər gün söz-söz cümlələrə çevirirmiş, qeydlər aparırmış. Ona görə də "Gecə yarısı döyülən qapılar"dakı yaşam reallığı yazıçı təxəyyülünün məhsulundan daha çox yazıçının reallıqdan götürdüyü mövzunun özüdü. Əlövsət müəllim bir yazıçı kimi həm də bu əsərində rəssamlıq edib, portret cizgilər çəkib. Mənim həyatımın cizgilərini...

Əlövsət Bəşirlinin təkcə yaradıcılığını yox, həm də bir Azərbaycan İNSANI olaraq şəxsi həyatını, əmək fəaliyyətini, dostlarını, demək olar ki, bütünlüklə tanımışam, öyrənmişəm. Tutduğu ən yüksək vəzifələrdə belə hamının tanıdığı, sevdiyi kimi qalan, dəyişməyən, heç vaxt hansısa bir vəzifədə kimlərəsə tapşırıq verdiyini və yaxud hesabat tələb etdiyini dilinə gətirməyən Əlövsət müəllim adi həyatda da, müxtəlif məclislərdə də, eyni formada, məzmunda qalan insandır. Bir az da açıq desəm o, heç bir halda dəyişmir, necə var elə də qalır. Mən içimdə olan müəyyən fikirləri, barəsində eşitdiklərimi və sözün verdiyi imkana söykənib hansısa pafoslu sözləri, cümləlri bu yazıya gətirə bilərdim, amma Əlövsət müəllimin, eləcə də Dilarə xanımın gözümün önündə olan sadəliyi, səmimiliyi məni bu fikirdən daşındırdı. Çünki səmimiyyət və sadəlik yarınmaq və yaxud pafos sevmir. O, olduğu kimi görünür və göründüyü kimi də olur. Əlövsət Bəşirlinin bu həyatda dostlarına bağlılığı, ailəsinə güvənci, qələmlə, sözlə yaşaması mənə imkan verdi ki, ikicə cümlə yazım:

**- Əlövsət müəllim, Sizi tanımaq, oxumaq və dostunuz olmaq mənim üçün böyük şərəfdir. İstərdim ki, hər zaman telefonunuzdan gələn zəng "Mədətoğlu, hardasan?" - deyib qayğılardan, xəyallardan ayırsın məni. Və mən Sizinlə itirdiklərimizi xatırlaya-xatırlaya sabahkı günlərimizin yazılarından danışım.**

***P.S.*** **Kəndimizin girişindəki ilk döngəni keçəndə həyəcandan səsim titrəyə-titrəyə pıçıldadım:**

**-Əlövsət müəllim, ehtiyatlı olun. Burda nişangaha çevrilirik. Ermənilər istədikləri nöqtədən bizi vura bilərlər.**

**O dedi: Narahat olma, bura qədər gəlmişik, sənin evinə də gedəcəyik. Qapını özümüz açacağıq...**

**Maşını ata yurdumun həyətinə sürdüm. Ermənilər hər tərəfi talamışdılar. Amma evin qapısı bağlı idi. Əsl sahib ərkiylə əlini uzadıb qapının qıfılını qopartdı. Buyur, keç içəri, - dedi.**

**Onun səsinə ayıldım və xatırladım ki, biz Tuğu gəzib qayıtmışıq. Və bayrağımız da Tuğda dalğalanır.**

---

***"Bu stereotiplər təkcə fərdi münasibət səviyyəsində deyil..."***



**"Narkotik istifadəçisi olan qadınlarla bağlı psixoloji potret, davranış nümunələri və sosial rebabilitasiya çərçivəsində aparılan təhlillər göstərir ki, bu qrupun vəziyyətini formalaşdıran tək amil asılılıq deyil - həm də cəmiyyətin onlara yönəltdiyi baxış, münasibət və etiketləşdirmə prosesidir".**

**Bunu Adalet.az-a açıqlamasında "Təmiz Dünya" Qadınlara Yardım İctimai Birliyinin sədri Mehriban Zeynalova deyib.**

**Ekspertin sözlərinə görə, sosial damğalanma və streotiplər, bu qadınların özlərini necə dərk etməsinə, yardım axtarma davranışlarına və cəmiyyətə reinteqrasiya səylərinə birbaşa təsir göstərir:**

**"Streotiplər çox zaman qadınları ikili cəza vəziyyətinə salır - bir tərəfdən narkikdən istifadə etdiklərinə görə "pis qadın" kimi etiketlənirlər, digər tərəfdən isə cəmiyyətin ideal qadın obrazına (ana, həyat yoldaşı, səbirli və əxlaqlı qadın) uyğun gəlmədikləri üçün daha sərt ictimai qınağa məruz qalırlar.**

**Nəticədə qadınlar həm sosial xidmətlərdən çəkinir, həm də öz dəyərlərini itirmiş kimi hiss edirlər.**

**Cəmiyyətin qadınlara baxışında mövcud olan streotipləri anlamağa və həmin yanaşmaların nə üçün zərərli olduğunu elmi baxımdan dəyərləndirməyə imkan verəcək. Stereotiplərlə işləmək təkcə etik məsələ deyil - bu, həm də sosial işin effektivliyini artıran peşəkar və institonal məsuliyyətdir.**

**Azərbaycanda narkotik istifadəçilərinə, xüsusən qadın narkotik istifadəçilərinə qarşı mövcud olan stereotiplər, onların cəmiyyətdən təcrid olunmasına, hüquqlardan məhrum edilməsinə və müxtəlif formalı zorakılığa məruz qalmasına şərait yaradır. Bu stereotiplər təkcə fərdi münasibət səviyyəsində deyil, həm də institusional səviyyədə diskriminasiyaya səbəb olur".**

**Vasif ƏLİHÜSEYN**



*Adilə Nəzər*

## Qulu Ağsəsin "Xankəndi və M.Zəkiyə" şeirinin təhlili

**Qulu Ağsəsin "Xankəndi və M.Zəkiyə" şeiri Qarabağ torpağına həm sevgi, həm ağrı, həm də qayıdış həsrətinin poetik etirafıdır. Şeirin ilk misralarında Xankəndi adi coğrafi məkan kimi deyil, sanki ümumi yurd - binə kimi təsvir olunur: "Tavanı - göy şüşəli, döşəməsi - meşəli". Bu bənzətmə Xankəndinin təbiətini gündəlik məişət obrazına çevirərək həm sadəlik, həm də doğmalıq yaradır.**

**"Ovçunun yuxusunda marala bənzəyir o" misrası isə daha çox tarix və münaqişə kontekstindən doğan məna daşıyır. Buradakı "ovçu" - düşməndir, (burada: erməni tərəf) Maral isə həm zərifliyini, həm də cazibəsini qoruyan Qarabağın özüdür. Əsrlər boyu bu torpaq düşmənin nəzərində belə cəlbedici olub, ovçunun yuxusuna girəcək qədər dəyərli görünmüşdür. Bu bənzətmə əslində Qarabağın, o cümlədən Xankəndinin gözəlliyinin necə arzuolunan, necə həsəd doğuran bir nemət olduğunu xatırladır.**



**"Dağların yaxasında medala bənzəyir o" misrası isə artıq başqa bir məqamı - Zəfəri tamamlayan son nöqtəni işarə edir. Medal burada təkcə bənzətmə deyil, həm də Xankəndinin azad edilməsi ilə Qarabağ Zəfərinin tamlığı, bütövlüyü simvolizə olunur. Yəni Xankəndi dağların qoynunda parlayan, qələbəni təsdiqləyən son medaldır. Şeirin ortasında Qulu Ağsəs torpağın insan yetişdirmə gücünə toxunur: "Burda doğulmur adam, əkilir şitil kimi". Bu misra həm poetik, həm də fəlsəfi anlam daşıyır, belə ki, bu torpaq insanı yalnız doğmur, həm də yetişdirir, formalaşdırır. Şair özünü bu torpağın yazdığı sətrə, bir misraya bənzədir və "şütüyən sətir kimi" yurd-yurd dolaşsa da, sonunda yenə öz "Xanım"ına, yəni Xankəndinə dönür.**

**Buradakı "Xanım" müraciəti əslində çoxqatlı simvolik məna daşıyır. Bu söz həm Xankəndinin adındakı "Xan"a işarədir, həm də Qarabağ musiqisinin səsini - Xan Şuşinskinin irsini çağırır. Beləliklə, şair təkcə torpağa yox, bu torpağın səsinə, musiqisinə, xatirəsinə də dönür.**

**Şeirin ən yüklü misralarından biri isə "Yaşamaq vaxtı öldük, ölmək vaxtı yaşayaq!" misrasıdır. Burada müəllif şəxsi həyatının illərini Qarabağın taleyi ilə eyniləşdirir: onun gənclik illəri Qarabağdan qaçqın düşdüyü dövrlərə, qocalıq çağı isə geri dönüşün mümkün olduğu zamana təsadüf edir. Yəni yaşamalı olduğu çağlarda - ömrün baharında itirmiş, ağrı çəkmiş, ömrün payızında isə yenidən o torpağa qovuşmaq nəsib olub. Bu misra həm tale acısını, həm də gec də olsa qayıdış sevincini özündə cəmləyir.**

**Bütün bu məna qatları şeiri sırf nostalji mətn etmədən, həm tarixi, həm mənəvi, həm də bədii çalarlarla dolu olan çoxqatlı bir poetik etirafa çevirir. Qulu Ağsəs bu şeirdə Xankəndini həm maral kimi həzin, həm medal kimi dəyərli, həm də ev kimi doğma göstərərək Qarabağın üç halını bir yerdə təqdim edir: şeirdə itirilən gözəllik, ulduz kimi parlayan Zəfər və gec də olsa qayıdışın sevinci var.**

**19.11.2025**
***Şeiri oxumayanlar üçün paylaşıram.**
**Qulu AĞSƏS**

*Xankəndi və M.Zəkiyə*

**Tavanı - göy şüşəli,**
**Döşəməsi - meşəli...**
**Ovçunun yuxusunda**
**Marala bənzəyir o.**
**Dağların yaxasında**
**Medala bənzəyir o.**
**Burda bahar payızı,**
**Qış yayı məst eləyir.**
**Bu yerlərin havasın,**
**Bu göylərin yağışın**
**Üzeyir bəstələyir.**
**Burda doğulmur adam**
**Əkilir şitil kimi.**
**Adladım yurddan yurda**
**Şütüyən sətir kimi.**
**Gəzdim düzü, dünyanı**
**Bu düz-dünya tükəndi.**
**Sənə dönmüşəm, Xanım,**
**Sənə dönmüşəm, kəndim.**
**Dünyada nələr gördük**
**Həyatımız baş-ayaq:**
**Yaşamaq vaxtı öldük,**
**Ölmək vaxtı yaşayaq!**
**Tavanı - göy şüşəlim,**
**Döşəməsi - meşəlim...**

# Nəvəyə baba-nənə hədiyyəsi

**Gəlin etiraf edək ki, insanlar xüsusilə, biz azərbaycanlılar övlada, ailəyə digər millətlərdən xalqlardan fərqli olaraq, daha çox bağlıyıq. Bu bağlılığı da bizə sərgiləyən təkcə genimiz yox, həm də bu genin ən qabarıq göstəricilərindən olan adət- ənənəmizdir. Belə ki, biz hər şeydə, hər bir hərəkətimizdə, hətta məişətimizdə də min illərdən keçib gələnləri qorumağa, yaşatmağa çalışırıq. Yəni mühafizəkarıq. Hətta bu duyğularımızı ata sözlərimizdə, məsəllərdə də gerçəkləşdiririk, bir növ yaddaşa yazırıq.**

Mövzunu bu cür girişlə təqdim etmyimin əsas səbəbi də məhz həmin o soy- kökə bağlılığımızdan irəli gəlir. Ona görə də çox böyük bir pafosla deyirik ki, " Dövlətdə dəvə- övaldda nəvə.!"

Mən də bilirəm ki, nəvəsi olan hər kəs yaşından- başından aslı olmayaraq bu hissi demək olar ki, bütün səmimiyyəti ilə yaşayır. Babalar, nənələr özlərini nəvə üçün oda- közə vurur. Müəyyən mənada övladı ikinci plana keçirirlər. Bu duyğuları söz adamları biraz da qabarıq yaşayır. Uşaq şairlərinin əksəriyyətinin şeirlərinin baş qəhrəmanı da məhz onların öz nəvələridir.

Azərbaycan ədəbiyyatında uşaqlarla bağlı yazılan şeir, hekayə , nağıl və digər janr nümunəllərinin əksəriyyətini oxumuşam. Ona görə də cəsarətlə deyə bilərəm ki, həmin əsərləin qəhrəmanları öz yazar nənə- babalarının ilham mənbəyidir. Bax elə indi sizə barəsində bir neçə kəlmə çatdrmaq istədiyim "İsaq belə İsaqdı" adlı kitabda da toplanan bütün poeziya nümunələri məhz babanın nəvəyə sevgisinin, güvəninin, arzularının tərənnümüdür.

Kitabın müəllifi oxucuların yaxşı tanıdığı yazıçı, şair, publisist Vaqif İsaqoğludur. Xatırladım ki, Vaqif İsaqoğlu həm də Azərbaycan ordusunun birinci Qarabağ müharibəsini işıqlandıran hərbi jurnalistlərimizdən biri olub və indi təqaüddədir. Barəsində bir- birindən maraqlı şeirlər yazılan İsaq isə təkcə babasının- nənəsinin deyil, həm də istedadlı şair, tərcüməçi Tural Cəfərlinin övladıdır. Bu maraqlı təqdimatı ona görə etdim ki, öncədən məlumatlı olasınız. Biləsiniz ki, söhbət SÖZlə yaşayan bir ailənin övladından gedir. O ki, qaldı kitaba...

Kitaba ön söz yazmış müəllif bir növ bu məktubunda nəvəsinə ümidini, inamını, həm də bir nəslin davamçısı olmaq diləklərini çatdırıbdı. Və xatırladıb ki, bu kitabdakı şeilər ona yazılmaqla yanaşı, həm də ona bir yaşam vəsiqəsi verir. Müəllif vurğulayır ki, "Bu kitabı sevə-sevə oxu! Və unutma ki, sözlə isinən üşüməz. Onu da unutma ki, söz ən güclü silahdır. Həmişə sözünü kişi kimi de. Çünki kişinin sözü də kişidir!"

Vaqif İsaqoğlunun nəvəsinə yazdığı məktubun davamı olan şeirlər elə bir bölgü ilə düzülüb ki, oxuduqca İsaqla bərabər şeilər də sanki böyüyür. Onun dünyaya gəlişi, beşikdəki mışıltısı, ilk kəlməsi, iməkləməsi - bir sözlə bir uşağın yeriyib, yüyürnəsi, məktəbə üz tutmasına qədər...

Artıq məktəbli olan İsaqla bağlı onun doğum gününə yazılan şeirlə də bir növ yaşına- başına uyğunlaşıbdır.




Burda bir fikri mütləq qeyd etmək istəyirəm. Yəni sözün ən halal mənasında adamın İsaq bir az " paxıllığı " tutur. Axı onunla bərabər adına yazılan şeirlər də püxtələşib, böyüyür. Bu bir zarafat olsa da, kitabda bunu aydın görmək mümkündür. Belə ki, Vaqif İsaqoğlu nəvəsinə yeddi il bundan öncə yazıb:

***Şirin yuxuya gedib,***
***İsaq yatır beşikdə.***
***Boz sərçələr yenə də,***
***Hay-küy salır eşikdə.***

Üç il sonra isə o, İsaqa belə üz tutur:

***Nənə nağıl danışdı,***
***İsaq yenə yatmayır.***
***Qızılgülün içində,***
***Nədən yuxu tapmayır?***

Mən kitabdakı şeirlərin hər biri haqqında ayrıca fikir bildirmək niyyətindən uzağam. Çünki hər kəsin bu kitabı oxumasını, əldə etməsini istəyirəm. Axı bu gün övladlarımızın, nəvələrimizin gerçək sözə, səmimi duyğulara və bir də mənasız şoulardan uzaq durmağa, qorunmağa daha çox ehtiyac duyulur. Ona görə də biz böyüklər, bir az geciksək də , heç olmasa bundan sonra balacalara, gələcəyimiz olanlara daha diqqətli yanaşmalıyıq.

Onları zərərli vərdişlərdən, əxlaqa və sağlamlığa ziyan olan hər cür problemlərdən uzaq tutmağa çalışmalıyıq. Xatırladım ki, kitabla tanış olduğum müddətdə gəldiyim qənaət bu oldu ki, uşaqla elə uşağın öz dilində gerçəyi danışmaq, onlara həyatı tanıtmaq daha maraqlıdır , daha doğrudur, nəinki onları hansısa vədlərlə aldatmağa, həyatın ümidinə atmağa cəhd etmək Axı bu biganəlik bizim hamımızın bəlasina çevriləcəkdir. Bunu bilmək zənnimcə o qədər də çətin deyil.

Və sonda vurğulamaq istəyirəm ki, babasının İsaqa yazdığı şeirləri kitab halında ona təqaüdündən yatırım edən nənəsi Bəyaz xanım hədiyyə edibdir. Məncə, nənə-babaların ən gözəl hədiyyəsi də məhz belə olmalıdır.

**Əbülfət Mədətoğlu**

# Atom və nüvə bombası fərqi: İnsanlığı titrədən gücün sirri

**Dünyanın ən təhlükəli silahlarından sayılan atom və ümumilikdə nüvə bombaları bəşəriyyətin yaddaşında dərindən iz buraxan qorxu mənbəyidir. Çox vaxt eyni mənada işlənsə də, bu iki anlayış arasında mühüm elmi fərqlər mövcuddur.**

Adalet.az-ın məlumatına görə, "Wion" platformasının izahına əsasən, atom bombası nüvə silahlarının yalnız bir növüdür. Yəni hər atom bombası nüvə silahıdır, lakin bütün nüvə silahları atom bombası hesab olunmur. Tarixdə ilk hazırlanmış nüvə silahı da məhz atom bombasıdır.

Atom bombasının gücü uran-235 və ya plutonium-239 kimi ağır nüvələrin parçalanması nəticəsində yaranan enerjiyə söykənir. Neytron vurması ilə başlanan bu proses zəncirvari reaksiyaya çevrilir və Einstein-in məşhur E = mc? düsturunun təsdiqi kimi az miqdarda kütlük nəhəng enerjiyə çevrilir.

İlk atom bombaları 1945-ci ildə ABŞ tərəfindən istifadə edilib. Həmin il "Little Boy" Xirosimaya, "Fat Man" isə Naqasakiyə atılmış və nəticədə 200 mindən çox insan həyatını itirmişdi. Bu hadisələr nüvə dövrünün başlanğıcı kimi tarixə düşdü.

"Nüvə bombası" termini isə daha genişdir. Buraya həm parçalanma əsasında işləyən atom bombaları, həm də sintez reaksiyası ilə güc alan hidrogen (termonüvə) bombaları daxildir. ABŞ ilk hidrogen bombasını 1952-ci ildə sınaqdan keçirib. "Ivy Mike" adlı bu silah 10 meqatondan artıq enerji buraxaraq Xirosimaya atılan bombadan yüzlərlə dəfə daha güclü təsir göstərmişdi. Bu fərq nüvə arsenalının inkişafında dönüş nöqtəsi sayılır. Atom bombaları yalnız parçalanmaya əsaslanırsa, hidrogen bombaları parçalanma + sintez ardıcıllığı ilə fəaliyyət göstərir və nəzəri olaraq məhdudiyyətsiz güc yarada bilir.



Atom bombasında enerji ağır elementlərin parçalanmasından alınır. Hidrogen bombasında isə yüngül elementlərin son dərəcə yüksək temperatur və təzyiq altında birləşməsi (sintezi) daha dağıdıcı reaksiyalar yaradır. Buna görə ölçü baxımından kiçik olan termonüvə silahı belə adi atom bombasından çox qat güclü ola bilər. Güc vahidi də fərqlidir: Atom bombaları kilotonlarla, Hidrogen bombaları meqatonlarla ölçülür. Bu isə aradakı fərqin minlərlə dəfə olduğunu göstərir. Tarixi baxımdan atom bombası ilk nüvə çəkindirmə vasitəsi idisə, hidrogen bombası soyuq müharibə dövrünün strateji balansını müəyyən edən ən böyük faktora çevrilmişdi. Termonüvə silahı istehsal edən ölkələr artıq qlobal güc klubunun əsas üzvləri sayılır. 1945-dən sonra "atom bombası" termini məşhurlaşsa da, 1950-ci illərdə aparılan hidrogen bombası sınaqları "nüvə bombası" anlayışını daha geniş istifadəyə çıxardı. Elmi yanaşmada atom bombası yalnız parçalanma əsaslı qurğunu, nüvə bombası isə həm parçalanma, həm də sintezlə işləyən bütün silahları əhatə edir.

Hazırda istismarda olan döyüş başlıqlarının əksəriyyəti termonüvə tipindədir. Lakin taktik məqsədlər üçün daha kiçik, yalnız parçalanma əsaslı bombalar da saxlanılır. Müasir nüvə arsenalı daha kompakt, daha dəqiq və texnoloji cəhətdən inkişaf etmişdir. Silahların azaldılması barədə anlaşmalar olsa da, nüvə gücünə malik dövlətlər öz arsenalını yeniləməkdə davam edir və hazırda dünyada minlərlə aktiv başlıq mövcuddur.

**Güc artdıqca, bu arsenalın siyasi, texnoloji və etik idarəçiliyi də daha çətin hala gəlir. Bir sözlə, atom bombası bu silahlar dövrünün başlanğıcı idisə, nüvə bombası onun çox daha inkişaf etmiş mərhələsidir.**

# Zəfər tariximizin qəhrəmanı

**Mənfur erməni dığaların işğal etdiyi Qarabağın taleyi Lənkəran rayonu, Göyşaban kəndində doğulub boya-başa çatan Sənan Nizami oğlu Ağazadəni çox düşündürürdü. Bunu heç cür müdriklər beşiyi, qəhrəmanlar yurdu, canından artıq sevdiyi doğma Azərbaycanın qeyrətinə, şöhrətinə sığışdıra bilmirdi . Odur ki, sinəsini yanar od edib yağıdan öc almaq**



**məqsədilə 2019-cu il iyulun 22-də hərbi xidmətə yollanır. Əsgərliyi cəbhə bölgəsinə düşən Sənan hərbi paltar geyinib müqəddəsliyini hər şeydən əziz bildiyi Vətəninin daşına, torpağına qurban deyib onun keşiyində dayanır.**

İlk gündən adına öyündüyü Azərbaycana nümunəvi xidmət göstərməklə hərbi hissədə zabitlərin, əsgərlərin sevimlisi olur. Cəsurluğu, mərdliyi, igidliyi, vətənpərvərliyi, saflığı qatıldığı təlimlərdə Sənana uğur qazandırır. Həmişə də deyir ki, Qarabağımızı işğalda saxlayan yağı düşməndən tezliklə qisas alınmalıdır. Bu yolda ölmək belə hər bir qeyrətli oğul üçün şərəfdir. Çünki şəhid qanı axmayan torpaqdan Vətən olmaz.

Nəhayət Sənanın Vətənə olan sonsuz məhəbbət hissi İkinci Qarabağ müharibəsində tam özünü göstərir. 30 il həsrətində olduğumuz haqq savaşımızın ilk günündə Azərbaycan Silahlı Qüvvələrin əsgəri Sənan qeyrətli oğullar sırasında ölümün gözünə dik baxmaqla, Vətənin harayına səs verir, odlu-alovlu səngərdə yerini alır. İştirak etdiyi bir-birindən ağır müharibə meydanlardan yalnız qələbə sorağı gəlir. İgid əsgərin Vətənə, torpağa bağlılığı sanki döyüşdən-döyüşə ona yeni güc verir.

Erməni dığalarına qarşı sərraf tuşlayıcı kimi vuruşur, onlara göz açmağa imkan vermir. Göstərdiyi hünər, düşmənə vurduğu sarsıdıcı zərbələr gündən-günə artır. Cənnət-məkan Qarabağımızın hər kəndi uğrunda gedən qanlı müharibədə yağının çoxsaylı canlı qüvvəsini, saysız-hesabsız texnikasını məhv etməklə ürəyində bəslədiyi qisasını ondan ala bilir.

Sənanın axırıncı savaşı dığalarla oktyabrın 14-də olur. Füzuli rayonunda başlanan ağır müharibə meydanında son damla qanına qədər döyüşür. Canını Vətəninə, torpağına fəda edəndə ömrünün 20-ci baharına qədəm qoymuşdu.

**Bəli, milyonların ürəyində öz şərəfli ölümü ilə mərdlik, igidlik, simvoluna çevrilən Sənan Ağazadə dövlət tərəfindən "Vətən uğrunda", "İgidliyə görə", "Füzulinin azad olunmasına görə" medallarla təltif edilib.**

**Zəfər ORUCOĞLU,**
**Azərbaycan Jurnalistlər Birliyinin üzvü**

# "Fərdi təsərrüfatlarda yetişdirilən malların paytaxt bazarlarına çıxmaq şansı..."

**"Milli Məclisin deputatı Razi Nurullayev çıxışı zamanı bildirib ki, "Kəndlinin torpağı var, amma bazarı yoxdur. Rəqəmlər göstərir ki, kənd təsərrüfatı məhsullarının satışının 70 faizdən çoxu iri tədarükçülər və topdansatış mərkəzləri vasitəsilə həyata keçirilir. Yəni bazar artıq iri fermerlərin və böyük şirkətlərin əlindədir".**

Adalet.az-a açıqlamasında deputatın fikirlərinə münasibət bildirən Azad İstehlakçılar Birliyinin sədri Eyyub Hüseynov onun haqlı olduğunu bildirib:

"Deputatın bu fikirləri ilə tam həmfikirəm. Çox təəssüflər olsun ki, ölkədə kooperatsiya haqqında qanun qəbul olunsa da bu işləmədi və yaxud da işləməsinə imkan vermədilər. Bir çox böyük təsərrüfat yaratmaq imkanı olan adamlar kəndlilərdən torpaqları satın aldılar, özləri birləşdirdilər, su mənbələrinə əlçatanlıq azaldı, kooperatsiya qanunları işləmədi, kəndlilər birləşə bilmədi, torpaqları müxtəlif yerlərdə verildi. Ona görə də torpaq resursları böyük fermer təsərrüfatlarının əlində birləşdi".

E.Hüseynov deyib ki, fərdi təsərrüfatlarda yetişdirilən malların paytaxt bazarlarına çıxmaq şansı yox dərəcəsindədir:

"Çünki paytaxt bazarına çıxan meyvə-tərəvəz "Meyvəli" bazarına gətirilir, orda bazarın ikinci subyekti olan alverçilərin əli isə sənədləşdirilir və Bakı bazarlarına çatdırılır. Kəndlinin isə ora gətirdiyi malları alverçilər qəbul etmirlər. Kəndlilərin



fərdi təsərrüfatlarında yetişdirilən meyvə-tərəvəzlər bazar tələbatına uyğun olmur. Böyük təsərrüfatlarda yetişdirilən mallar və xüsusi aqronom, baytar nəzarəti altında olduğu üçün bazar tələbatına da uyğun olur. Fərdi kəndli təsərrüfatında yetişdirilən mallar isə ekoloji təmiz olsa da, lakin ona bazarda yer yoxdur, çünki Azərbaycan Qida Təhlükəsizliyi Agentliyi də onlarla fəal işləmir".

Ekspertin sözlərinə görə, təsadüfi deyil ki, bu ilki dabaq xəstəliyi prosesində də məlum oldu ki, böyük təsərrüfatlara bu xəstəlik demək olar ki, heç bir zərər vurmayıb:

"Fərdi kəndli təsərrüfatlarında dabaq xəstəliyi geniş yayıldı və başqa bir məsələ isə ondan ibarət idi ki, vurulan vaksinlər də keyfiyyətsiz idi. Bir sözlə, fərdi kəndli təsərrüfatları tamam arxa planda qalıb. Onlar nə istehsal edə, nə bazara çıxara bilir. Bazarın üçüncü subyektlərinin, yəni alverçilərin əlindən heç bir imkanları da yoxdur. Çünki onlar istənilən malı boykot edirlər, bəzi istəmədikləri fərdi təsərrüfatlardan mal alınmasına imkan vermirlər. O cümlədən fərdi kəndli təsərrüfatlarında yetişdirilən malların soyuducularna, saxlanma kameralarına əlçatarlığı da aşağı səviyyədədir. Çünki orda da pul tələb olunur və sair. Kəndli bilmir ki, malı neçəyə satacaq və bəri başdan pul verməK onu qane edəcəkmi yoxsa yox. Deputat Razi Nurullayevin fikirləri tamamilə doğrudur və kənd təsərrüfatında böyük dəyişiklik aparılmalıdır. Xüsusən ölkədə aqronom, baytar çatışmazlığı var. Fərdi təsərrüfatlarda yetişdirilən malların keyfiyyətinin artırılması və onların bazarlara çıxarılması çox vacib məsələlərdən biridir".

**Vasif ƏLİHÜSEYN**



**VAQİF YUSİFLİ**
**Filologiya elmləri doktoru**

# Qəmin eşqi, eşqin qəmi

**İlham Qəhrəman - bu gün müasir poeziyamızın istedadlı nümayəndələrindən biridir və bənzərsiz, özünəməxsus poetik səsi və nəfəsi ilə seçilir. Əgər ŞAİR sözünü səsləndirirsə, İlham Qəhrəman da yada düşən, xatırlanan şair olur.Tənqidçi-ədəbiyyatşünaslaronun yaradıcılığına qətiyyən biganə qalmayıblar. "Qəmin eşqi" şeirlər kitabına ön söz yazan Məti Osmanoğlu İlham Qəhrəmanın şeir dünyasını səciyyələndirərkən onun öz fərdi dünyasını, insan, zaman və ömür haqqında poetik düşüncələrini, yaddaşının özümlülüyünü doğulduğu torpağa, yurd yerinə məhəbbətini xüsusi vurğulayır. İlham Qəhrəman laçınlıdır və ötüb-keçən, amma yaddaşımızda ağrıya çevrilən Laçın haqqında elə şeirlər yazıb ki, o şeirlərdə sən Laçınlı olmasan da özünü o dərdin ortağı hesab edirsən.**



*Laçına gedə bilsəm,*
*evimizin daşları tanıyar məni.*
*Çəpərimiz tanıyatr məni.*
*Kolunu qırıb*
*yabada vəlisini daşımışam.*
*Ağaclar tanıyır məni*
*Dəhnədən arxını vurub*
*suyunu gətirmişəm.*
*Körpə olanda Həkərinin*
*ovcumdakı suda üzən*
*balıqları tanıyacaq məni.*
*...Bircə Laçına getsəm.*

**İlham Qəhrəman üçün indi Laçın qadağası yoxdur. Çünki**

*Sevinir daşın, torpağın,*
*Hülür ağacda yarpağın.*
*Başının üstə bayrağın,*
*Gözün aydın olsun, Laçın!*

**Mən İlham Qəhrəmanın Laçına necə bağlı olduğunu təkcə təkcə neçə illər bundan öncə qubarlı gözlərində deyil, həm də şeirlərində çox aydın görürəm, təkcə təbiət aşiqi, Laçın vurğunu deyil, həm də Laçından çıxan neçə-neçə şairin şeir dünyasına bələdliyini və günlərin bir günündə tərtibçi olduğu "Laçın antologiyası" kitabını oxuculara təqdim etməsini görürəm. Böyük zəhmətdir bu antologiyanı hazırlamaq...**

**İlham Qəhrəmanın "Qəmin eşqi" şeirlər kitabı (2025) və özünün ərsəyə gətirdiyi "Dəyirmanın su dərdi" (2024) bayatılar toplusunu onun son illərdəki poetik yaradıcılığının uğurları hesab edirəm.**

**İlham Qəhrəmanın poeziyası Sarı Aşıqdan üzü bəri klassik şeir örnəkləri ilə sıx bağlıdır. Hətta deyərdim ki, Sarı Aşıq onun şeirlərinə təsir edən birinci şairdir.**

**Mərhum deməyə dilim gəlmədiyi filologiya elmlər doktoru İradə Musayeva onun "Dəyirmanın su dərdi" bayatılar kitabına mükəmməl ön söz yazıb: "İlham Qəhrəmanın bayatılarında təmiz bir təbiət, milli koloritli, nazlı-qəmzəli, saf üzlü, açıq sözlü gözəllər və aşiqlər var.**

**...Bu poeziyada sözlər səs oxşarlığına görə bəzən bir-birini tapıb tanıyırmış kimi görünür. Alliterasiyalar, assonaslar, səs təqlidləri fonetik səviyyədə poetikləşir"... O bayatılardan misallar gətirək və görəcəyik ki, İlham Qəhrəmanın bayatıları heç klassik bayatılardab geri qalmır.**

*Dağdan bir qaya düşüb,*
*Çobanlar haya düşüb.*
*Gecə ayamı baxdın!*
*İşığın aya düşüb?*

*Kim kimin həyatıdı,*
*Nimdaşı, boyatıdı.*
*Oxuya bilsən, ömrüm*
*Bir qəmli bayatıdı.*

*Gözəllər zinət sevər,*
*Mömünlər cənnət sevər.*
*Nə su murdar götürər,*
*Nə sevgi minnət çəkər.*

*Ah çəkdim, yeri qaldı,*
*Kövşənin vəri qaldı.*
*Mən öldüm Laçın adlı*
*Həsrətim diri qaldı.*

*Yıxılmışam tar-maram,*
*Pay qoyma aparmaram.*
*Səndən gələn kədəri*
*Qapıdan qaytarmaram.*

**İlham Qəhrəmanın "Qəmin eşqi" şeirlər kitabı müasir poeziyada xalq şeirinə, bu şeirin özəllikləri və gözəlliklərinə bağlılığın ən bariz nümunələrini özündə əks etdirir. XXI əsrin şairi xalq açıq şeirinin ən gözəl ənənələrini müasir poetik təfəkkür işığında yenidən ehya edir:**

**İlham Qəhrəman qoşma, gəraylı və təcnis ustalığına yaxşı yiyələnib.**

*İçimdə biri ağlayır,*
*Elə zülümlə ağlayır.*
*Ağlayan kimdi bilmirəm,*
*Mənim gözümlə ağlayır.*

*İçimdə biri ağlayır,*
*ağlayır düşən axşamla,*
*ağlayır açan sabahla.*

**Başqa bir misal:**

*Bu dünya sevgi üstədi,*
*Kimi bilər, kimi bilməz.*

**"Bu dünya sevgi sevgi üstədi" - fikrimcə, İlham Qəhrəmanın sevgi şeirləri bu poetik hava üstə köklənib.**

**Təcnis yazmaq da şairdən ustalıq tələb edir və İlham Qəhrəman bu mənada məharətini göstərə bilib.**

**Baxın:**

*Könül istəyir ki, bir rəssam ola,*
*Eləcə dağların çəkə başını.*
*Əhdim var bir usta yar gələnətən*
*Gələ bu divarın çəkə başını.*

*Məclis tutmayanda heç baş açmadım*
*Qışı soyuq keçdi, heç baş açmadım,*
*Bu işə mat qaldım, heç baş açmadım,*
*Kimsə də demədi: - çək e başını.*

**"Qəmin eşqi" şeirləri kitabında İlham Qəhrəman günün reallıqlarını, məftun olduğu təbiətin gözəlliklərini, ayrı-ayrı insanlara hesn-rəqbətini əks etdirir. Onun "Şəhid də allah amanatı", "Döyüşçü nəğməsi"şeirləri də bu günün poeziyasında tez-tez səslənən motivlərdir. "Şəhid Şahhüseynin şeiri", "Döyüş adamı" şeirləri də Qarabağ müharibəsinin poetik notlarıdır.**

**İlham Qəhrəmanın şeirləri barədə çox danışmaq olar. Ən əsası odur ki, o, bir şair kimi artıq böyük poeziya karvanında yol gedir.**

*Elə bil bu canım söz budağıdır,*
*Canımda ilhamın durur yuvası.*
*Yaxşı söz şairi göyə ucaldar,*
*Yaxşı söz şairin qürur yuvası.*

**Uğurlar arzulayıram.**



Ələmdar MƏMMƏDOV

# Mən bu zamana sığmazam

## Zirvəyə doğru: İlyas - İlahi qüvvə, köməyə gələn

**(əvvəli ötən saylarımızda)**

**Sadıq Murtuzayev "İnsan amili, həyat və zaman" adlı kitabında çoxdan tanıdığı Ə. Vəzirovla Respublika rəhbəri olandan sonrakı görüşünü belə xatırlayır:**

"Ə.Vəzirov rayonlara ilk səfərini Ağdamdan başlamışdı. Ertəsi gün Xankəndiyə gedəcəkdi. Bir neçə təsərrüfata baş çəkib qonaq evinə qayıtdıq. Səhər saat dördə kimi səmimi söhbət etdik. Tez-dən onu xidməti maşınımla Xankəndiyə yola saldım. Axşam saat 17.00 radələrində qayıtdı. Maşından düşən kimi soruşdu:

**- Neçə ildir rayonlardasan?**

**- 30 ildən çoxdur, Əbdürrəhman Xəliloviç.**

**- Sənin mərkəzə gəlmək vaxtındır.**

**Bir neçə gündən sonra işləri yeni seçilmiş I katibə təhvil verib Bakıya getdim. Xeyli sonra məni Abşeron Rayon Partiya Komitəsinin I katibi seçdilər.**

Moskvada XIX partiya konfransında DQMV-nin I katibi Poqosovla rastlaşarkən etiraf etdi ki, iş yerimin dəyişdirilməsini Ə.Vəzirovdan o xahiş edib.

Həmin dövrdə hakimiyyət boşluğunun əyani sübutu kimi bir hadisəni də danışmaq istəyirəm:

1989-cu ilin noyabr ayının axırları idi. Birinci katib Ələsgər Qocamanov məni yanına çağırdı. Cəbhənin lideri Miralim və Cəlilabad rayonunun Novoqolovka kəndindən gələn 10-15 nəfər də katibin kabinetində idi. Kənd Qızılağac qoruğu ilə sərhəd olduğundan tez-tez vəhşi heyvanların hücumuna məruz qalırdı. Camaat da yığılan ov tüfənglərinin qaytarılmasını xahiş edirdi. Birinci katib dərhal daxili işlər nazirinə zəng etdi. Nazir dedi ki, Mərkəzi Komitənin icazəsi olmasa milis tüfəngləri qaytara bilməz. Katib bizim yanımızda Azərbaycan KPMK-nin katibi Telman Orucova, Nazirlər Sovetinin sədri Ayaz Mütəllibova zəng etdi. Hər ikisi dedi ki, gərək Əbdürrəhman Vəzirovun razılığı olsun. Ələsgər müəllim öyrəndi ki, Vəzirov Moskvadadır. Çox əziyyətdən sonra onun Moskvadakı telefonunu tapıb Vəzirovla danışdı. Lakin, respublikanın birinci katibinin də bu problemi həll etməyə gücü çatmadı.

Hakimiyyət boşluğunu sadə insanlar da hiss edirdi. Gərginliyi ilə seçilən, insanların bir-birini ittiham etdiyi Ali Sovetin iclaslarının birində İlyas müəllim çıxış edərək təxminən aşağıdakıları dedi: - Hamımız bərəkətli torpaqlarımızdan, neftimizdən, pambığımızdan ağız dolusu danışırıq. Əsas məsələ insan amilidir. Gəlin belə ağır şəraitdə bir-birimizi ittiham etmək əvəzinə insanlarımızı, vətəndaşlarımızı qoruyaq, qüvvələrimizi birləşdirək, bir hədəf uğrunda mübarizə aparaq.

Aralarında xoş münasibət olmasına baxmayaraq, Ə.Vəzirovdan sonra Respublika rəhbəri olan A.Mütəllibov 1990-cı ilin Yanvar ayında Konstitusiya müddəti başa çatan İlyas müəllimin ikinci müddətə Respublika prokuroru təyinatı üçün təqdimat yazmadı. Yada salmaq yerinə düşərdi ki, əgər İlyas müəllim Moskvanın Azərbaycana girməsinin qarşısını almasaydı və bizdə də "Özbək işi" açılsaydı A.Mütəllibov və komandası məhbus həyatı yaşayardı.

Heydər Əliyevin SSRİ rəhbərliyindən kənarlaşdırılmasından sonra, arxasız və dayaqsız qalan Azərbaycanı bir çox bəlalardan xilas edən İlyas İsmayılova qarşı belə münasibətin səbəbi nə idi?

İlyas İsmayılovun ədalət çətirinin altında qorunanlar təhlükə sovuşan kimi nə üçün ona qarşı çıxdılar?

2-7 iyul 1953-cü ildə Sov.İ.K.P. MKnin rəyasət heyətinin üzvü, SSRİ Nazirlər Soveti sədrinin 1-ci müavini və Daxili İşlər Naziri 26 iyun 1953-cü ildə həbs olunmuş L.P.Beriyanın işi ilə əlaqədar keçirilən plenumun yekun qərarında partiya nomenklaturasının barəsində yuxarı partiya orqanının xüsusi icazəsi olmadan əməliyyat və istintaq tədbirləri həyata keciriləsi qadağan edilmişdi. 30-cu illərdə olduğu kimi partiya xadimlərinin əsassız repressiyaya məruz qalmasının qarşısını almaq zərurətindən irəli gələn və ilk baxışda humanist addım kimi görünən bu qərar zaman keçdikcə öz mahiyyətini itirərək, toxunulmazlıq statusunda olan toplum əmələ gətirmişdi. Qanun üstündə olan bu insanları ən ağır hadisə və cinayətlərdə, hətta, şahid kimi dindirmək üçün xüsusi icazə tələb olunurdu.




Ona görə də partiya tədbirlərinin birində İlyas müəllimin ilk çıxışı bomba təsiri bağışlamışdı.

Belə ki, əvvəlki prokurorların cinayətkarlığın vəziyyəti barədə statistik göstəriciləri dilə gətirib, çıxışlarını rəhbərliyə tərif yağdırmaqla tamamlamasına alışmış - partiyaya sədaqət ruhunda tərbiyə olunan, partiya daxili qaydaları əlində qılınc, verilmiş imtiyazları qalxan edən partnomeklatura birdən-birə hamının partiya qarşısında məsuliyyət daşımalı olmasından deyil, qanun qarşısında bərabər olmasından, qanunun aliliyindən danışan ciddi görkəmli, ötkəm prokurorla rastlaşmışdı. Özlərinə təskinlik verən, səksəkəyə düşmüş nomenklatura İlyas müəllimin bu çıxışını onun cavanlığı və təcrübəsizliyi ilə əlaqələndirirdilər. Onlar başa düşmürdülər ki, bu prokuror həmişə verdiyi sözü tutan, qatı cinayəkarlar və mafioz elementlərə qarşı amansız olan, az əhəmiyyətli xətalar törətmiş sadə insanlara qarşı humanistlik nümunəsi göstərən, ayrı-ayrı şəxslərə deyil, yalnız qanuna qulluq edən dönməz, sarsılmaz və qətiyyətli bir şəxsiyyət, yeni tipli rəhbərdir.

İlyas müəllimin partiya orqanlarını qane etməyən digər hərəkəti "təhkimçiliy" in aradan qaldırılması oldu. Prokuror kolxoz və yaxud sovxoza təhkim edilir, iclaslarda bəzən təsərrüfat işlərinin gedişi barədə sorğulanırdı. Məsələn: Ot yığımı mövsümü baslayanda hamı kimi prokurorluq əməkdaşları da səhər saat 05-də RPK-nin qarşısına gəlir, sonra təhkim olunduğu kolxoz və sovxoza gedir, formal olaraq yığımda iştirak edir və saat 09-da iş yerində olurdu.

Pambıq, üzüm və tərəvəz yığımı zamanı şahid ifadələri iş yerində deyil, sahələrdə alınırdı ki, bu da istintaq sirrinin yayılmasına, son nəticədə istintaqın effektivliyinin azalmasına səbəb olurdu. Bu hallar prokuror nüfuzuna büyük zərbə vururdu. Nüfuzu olmayan prokuror başqalarının hüquqlarını necə qoruya bilərdi? Ona görə də İlyas müəllim "təhkimçiliy" in ləğv olunması barədə Mərkəzi Komitə qarşısında məsələ qaldırdı və çətinliklərə baxmayaraq istəyinə nail oldu.

**Haşiyə:** 1997-ci ildə əvvəllər Goranboy Rayon Partiya Komitəsinin 1-ci katibi işləmiş Arif Cəfərov rayona gəlmişdi. RİH-in başçısı Ağa Əkbərovun yanında Arif müəllim mənim Cəlilabaddakı fəaliyyətimi tərifləyib, həmin dövrdə Qasım İsmayılov rayon prokurorunun zəif olmasını bildirəndə yarı zarafat, yarı ciddi dedim:

- Arif müəllim, siz hamınız bəli, baş üstə deyən prokurorlarla işləmək istəmisiniz. Nəticədə hüquq-mühafizə orqanları başıqapazlı olub. Mən Cəlilabadda təzə işə başlayanda 1-ci katib İ.Qurbanov sərbəstliyim və "özbaşınalığımla" razılaşmır və hər yerdə məni pisləyirdi. Lakin 1986-ci ilin iyul ayında ruslar rayona yoxlamağa gələndə əlimdəki faktlarla onların qarşısında dayandığımdan cinayət faktı tapa bilmədilər. Bu hadisədən sonra İ.Qurbanov, istəməsəm də, iclaslarda məni yanında oturdurdu və göstəriş vermişdi ki, rayona gələn bütün yoxlayıcılar əvvəl prokurorun yanına aparılmalıdır. Hətta rayona göndərilən hakimliyə namizəd Nəsir Məmmədovu qəbul etməyərək əvvəl mənim yanıma göndərmiş və müsbət fikrimi bildirdikdən sonra qəbul etmişdi. Prokuror işini elə görməlidir ki, ən ağır cinayətlərin də istintaqını yuxarı prokurorluq ona etibar etsin. Prokuror işlədiyi rayonun bütün ağrı-acısını çiynində daşımağı bacarmalıdır.

...Məişət Xidməti Nazirinin əmri ilə bir nəfər işdən çıxarılır. Həmin şəxs Respublika Prokuroluğuna müraciət edir. Yoxlama zamanı şəxsin qanunsuz olaraq işdən çıxarılması müəyyən olunur və işə bərpa edilməsi barədə protest verilir. Lakin protestin baxılması gecikdirilir. Bir neçə gündən sonra MKnin 2-ci katibi Y.Konovalov İlyas müəllimi yanına dəvət edir. İlyas müəllim içəri girəndə nazir B.Alekseyenkonu da orada görür. Y.Konovalov yarı zarafat, yarı ciddi deyir:

**- İlyas Abasoviç, nazir Sizdən narazılıq edir.**

İlyas müəllim sərt şəkildə cavab verir:

**- Mən bu naziri qanunlara hörmət etməyə vadar edəcəyəm.**

Y.Konovalov:

**- Gedə bilərsiniz, İlyas Abasoviç,- deyə, onu yola salır.**

Səhəri günü protest təmin edilir və həmin şəxs əvvəllki işinə bərpa olunur. Bakı şəhər prokuroru Əliş Əliyevin prokurorluq müddəti 1989-cu ilin may ayında tamam olurdu. Əliş müəllimin xahişinə əsasən İlyas müəllim onu sentyabr ayına kimi vəzifədə saxlamaq qərarına gəlmişdi. MK-nin 1-ci katibi Ə.Vəzirov büro iclasında bu məsələyə sərt reaksiya verir. İlyas müəllimlə yüksək səslə danışır. İlyas müəllim ona kəskin cavab qaytararaq, iclas zalını tərk edir.

**Qeyd:** Təəssüf ki, 1990-cı ilin avqust ayında yeni Baş prokuror İsmət Qayıbovun təqdimatı ilə əlaqədar keçirilən kollegiya iclasında İlyas müəllimin ünvanına söz deyənlər sırasında Ə.Əliyev də var idi...

1989-cu il, dekabrın 29-da Cəlilabadda qanlı qarşıdurma baş verdi. Raykomun və Milis şöbəsinin binası dağıdıldı. Münaqişədə 131 nəfər, o cümlədən, Rayon Partiya Komitəsinin I katibi Xeyrulla Əliyev xəsarət aldı. Onlardan biri iki gündən sonra dünyasını dəyisdi. Bir milis əməkdaşı da bir neçə aydan sonra aldığı xəsarətlərdən xəstəxanada vəfat etdi. Həmin gün axşam Dövlət Təhlükəsizlik Komitəsinin Biləsuvar Rayon Şöbəsinin binasında müşavirə keçirildi. Müşavirədə Mərkəzi Komitənin katibi Telman Orucov, Daxili İşlər naziri Aydın Məmmədov, Respublika prokuroru İlyas İsmayılov, DTK sədri Vaqif Hüseynov iştirak edirdi. Müşavirədən sonra Telman Orucovdan məni ayrıca qəbul etməsini istədim. Xahişimi nəzərə alan MK katibi 15 dəqiqədən sonra məni qəbul etdi. Söhbətimiz çox gərgin keçdi.Onun amiranə danışıq tərzi kütləvi ixtişaşın şahidi və iştirakçısı olmuş insan kimi məni çılğınlıq etməyə vadar etdi. T.Orucov məni dinləmək istəməyib otaqdan çıxaranda İlyas İsmayılov ona sərt reaksiya verərək dedi:

**- Telman Xəliloviç, bəsdirin, Sizin "bezdarnı" partiya işçilərinizin səhvi ucbatından rayon prokuroru dörd aydır səngərdədir. Siz isə onu dinləmək istəmirsiniz.**

Əlbəttə, İlyas müəllimin bu cəsarətli hərəkəti inzibati amirlik üsulu ilə işləməyə öyrənmiş partiya nomenklaturasını qıcıqlandırmaya bilməzdi. O, əslində məni deyil, ədaləti müdafiə edirdi.

Səhərisi gün Cəlilabadda görüşərkən,"Məni pis vəziyyətdə qoydun", - deyə, yüngül iradını bildirdi.

**(ardı var)**

### *Peyvənd üçün ən yaxşı vaxt bu aylardır*

**"Mövsümi xəstəliklər adətən ilin müəyyən dövrlərində (əsasən payız və qış və ya yay aylarında) daha çox yayılır".**

Adalet.az xəbər verir ki. bunu "Sağlam radio"nun (93 FM) "Sağlam həyat" verilişində Səhiyyə Nazirliyi Respublika Gigiyena və Epidemiologiya Mərkəzinin Epidemiologiya şöbəsinin müdiri Aygün İsmayılova deyib.

Onun sözlərinə görə, bunlara soyuqdəymə, qrip, bronxit, su çiçəyi, allergiyalar, mədə-bağırsaq infeksiyaları və s. daxildir:

"Mövsümi xəstəliklərdən ən çox rast gəlinən qrip xətəstəliyinə qarşı hər



il vaxtında peyvənd olunmalıdır. Qrip peyvəndi hər il vurulmalıdır, çünki virus tez dəyişir və yalnız yeni peyvənd mövsüm boyu qoruyur.

6 aydan yuxarı bütün şəxslərə, xüsusilə yaşlılara, hamilə qadınlara, xroniki xəstəlikləri olanlara və tibb işçilərinə tövsiyə olunur.

Peyvənd xəstəliyin qarşısını tam almasa da, ağırlaşmaları, kəskin ağırlaşma və ölüm riskini əhəmiyyətli dərəcədə azaldır. Peyvənd vurdurmaq üçün ən yaxşı vaxt payızda - sentyabr və oktyabr aylarıdır. Qrip peyvəndi təhlükəsizdir. Ona görə də hər kəs vaxtında peyvənd olunmalıdır.

Qeyd edək ki, Səhiyyə Nazirliyi tərəfindən qrip əleyhinə "Sanofi Pasteur" Fransa şirkətinin istehsalı olan tam təhlükəsiz və yüksək keyfiyyətli vaksin preparatları gətirilib. Qrip əleyhinə peyvənd olunmaq könüllülük prinsipi əsasında həyata keçirilir. Qrip əleyhinə peyvənd olunmaq istəyən vətəndaşlar regionlar üzrə rayon mərkəzi xəstəxanalarının, eləcə də Bakı şəhəri üzrə ambulator-poliklinik xidmət göstərən ilkin səhiyyə müəssisələrində ödənişsiz olaraq yararlana bilər".

**Şöbə müdiri vurğulayıb ki, həmçinin mövsümi xəstəliklərdən qorunmağın ən əsas yolları şəxsi gigiyena qaydalarına riayət etmək, əlləri tez-tez yumaq, insanların sıxlıq təşkil etdiyi yerlərdə otaqların havasını dəyişdirmək, düzgün qidalanmaq, kifayət qədər yatmaq, idmanla məşğul olmaq, xəstəliklər çox yayıldığı dövrlərdə izdihamlı yerlərdə tibbi maskadan istifadə etmək məsləhətdir.**

# Publisistin düşüncələri



*İdris Şükürlü,*
*Əməkdar jurnalist*

**Çağdaş Azərbaycan ədəbiyyatında özünəməxsus dəst-xətti olan, bir neçə romanın, povestin, hekayələrin, poema və şeirlərin, çoxlu publisistik yazıların müəllifi olan Əməkdar incəsənət xadimi Məmmədhüseyn Əliyevin 100 illik yubileyində mənə söz verilərkən diqqəti ədibin publisistik yaradıcılığına, naşir kimi fəaliyyətinə yönəltmişdir.**

Məmmədhüseyn Əliyev Azərbaycan Yazıçılar Birliyinin Lənkəran zona bölməsinə uzun illər rəhbərlik etmiş, ilk dəfə olaraq bölmənin orqanı olan "Şəfəq" adlı məcmuə nəşr etdirmiş və redaktoru olmuşdur. Ədib istedadlı qələm sahiblərini üzə çıxarmış, əsərlərini çap etmişdir. Yazıçı öz bədii və publisistik yazılarını mütəmadi olaraq oxuculara təqdim etmişdir.

Onun redaktorluğu ilə "Şəfəq" jurnalı 1991-ci ildə nəşrə başlamış, bir neçə il fasilədən sonra, 1997-ci ildə bizim tərəfimizdən yenidən nəşrini davam etdirmişdir. Növbətui fasilədən sonra isə AYB Lənkəran bölməsinin sədri, yazıçı-dramaturq Qafar Cəfərlinin diqqət və qayğısı sayəsində yenidən müntəzəm olaraq nəşrə başlamışdır.

Azərbaycanın tanınmış qələm ustası Məmmədhüseyn Əliyevin ilk yazısı 1942-ci ildə "Düyü" adı ilə lerikdə çıxan "Kolxoz yolu" (indiki "Lerik") qəzetində nəşr olunmuşdur. Əllinci illərdən başlayaraq nəsr əsərləri ilə yanaşı, müxtəlif publisistik janrda yazıları çap edilmiş, oxucuların diqqətini cəlb etmişdir.

Onun oçerk və məqalələri, resenziyaları "Ədəbiyyat", "Azərbaycan gəncləri", "Sovet kəndi", Leninçi", "Kolxoz yolu", "Bolluq uğrunda" qəzetlərində, "Azərbaycan kommunisti", "Azərbaycan", "Kirpi" "Şəfəq" jurnallarında çap edilmişdir. İraqda çıxan "Əl-Əhram" qəzetində çap olunmuş "Ey ana Bağdad" şeirinə görə poeziya festifalında mükafata layiq görülmüşdür. Bədii əsərlərində olduğu kimi, mətbu əsərlərində də ədalətsizliyə, bürokratlara, rüşvətxorlara, dövlətin malını talayanlara, yerlibazlığa və digər neqativ hallara qarşı çəkinmədən, cəsarətlə haqq səsini ucaltmışdır.



Oçerk, məqalə və digər analitik yazılarında vətənə, torpağa, təbiətə insana məhəbbət duyğularını tərənnüm edir, gəncləri mübariz olmağa səsləyirdi.

Onun əzəməti, böyüklüyü, müdrikliyi həmişə uzaqdan görünərdi.

Məmmədhüseyn müəllim cəsarəti, mübarizliyi, mətinliyi, humanizmi ələ seçildiyi kimi, onun məğrur, ağayana yerişi, duruşu, müdrik söhbətləri hamıya nümunə idi. Yüz illər keçsə də, dünya durduqca əsərlərində, xatirələrdə yaşayacaq, yayaqlarda gəzdiyi cığırlarda ayaq izləri, yovşan ətri, buzbulaqların göz yaşı onu unutmayacaq, o həmişə "Şəfəq"in timsalında parlayacaq!

BU, ONUN HAQQIDIR !
"ŞƏFƏQ"lər doğar,
"ŞƏFƏQ"lər sönməz!

Bəzən bir ömür sözün işığında keçir. Kimi ömrünü bir damla nur kimi xərcləyir, kimi isə o nuru başqalarına da paylayır. Azərbaycan ədəbiyyatının parlaq simalarından biri - Əməkdar incəsənət xadimi Məmmədhüseyn Əliyev belə ömür sahiblərindən idi. Onun yüz illiyi təkcə bir yubiley deyil, bir qələmin, bir vicdanın, bir millət sevgisinin yubileyi kimi səsləndi.

Azərbaycan Yazıçılar Birliyinin Natəvan adına klubunda keçirilən mərasim sanki bir ədəbi yaddaşın qapılarını araladı. Zaman keçsə də, sözün ömrü keçmir. O gün klubun divarları arasında səslənən hər bir xatirə, hər bir fikir Məmmədhüseyn Əliyevin ədəbi varlığının yaşadığını göstərdi.

Ədibin publisistik yaradıcılığından söz düşəndə, onun qələmindən süzülən hər sətirin ictimai düşüncəni oyatmaq, insanları vətənə, xalqa daha çox bağlamaq məqsədi daşıdığını vurğuladıq. Məmmədhüseyn Əliyev sadəcə yazıçı deyildi - o, həm də sözün naşiri, fikrin redaktoru, insanların düşüncələrinə işıq salan bir maarif fədaisi idi.

Uzun illər Azərbaycan Yazıçılar Birliyinin Lənkəran zona bölməsinə rəhbərlik edən ədib, bölgə ədəbi həyatına yeni nəfəs, yeni bir təpər gətirdi. "Şəfəq" adlı məcmuə təkcə bir jurnal deyildi, o, cənub ədəbi mühitinin günəşi idi, istedadlı qələm sahiblərinin səsinə çevrilmişdi. O "Şəfəq" ki, illərin sükutundan sonra yenidən doğuldu, yenidən parlaqlığını qazandı.

Məmmədhüseyn Əliyev təkcə özünü deyil, başqalarını da ədəbiyyata qazandırdı. Onun baxışlarında istedadlı insanlara bir etimad, bir ümid vardı. O, qələmin gücünə inanır, yazının insan ruhunu saflaşdırdığına dərin inam bəsləyirdi.

Ədibin romanları, povestləri, hekayələri, poemaları, şeirləri və publisistik yazıları oxucuya həyatın mənəvi dərinliyini duyurmağı bacarır. O, insanın həm ağrısını, həm də ümidini yazırdı. Onun yazılarında hər bir cümlə bir nəfəs kimi təbii, bir dua kimi saf səslənirdi.

Bu gün onun yüz illiyi qeyd olunur, amma əslində, bu yubiley bir xalqın yaddaşında "sözə sədaqətin" yubileyidir. Çünki Məmmədhüseyn Əliyev yazdığı hər bir əsərində göstərdi ki, söz təkcə yazılmır - söz yaşanır, hiss olunur, ötürülür.

Ədəbiyyat onun üçün sadəcə sənət yox, vicdanın səssiz dili idi.

**Məmmədhüseyn Əliyevin sözü bu gün də oxucuların qəlbində "şəfəq" kimi doğur, parlayır.**

# Aydın yolun yolçusu



*Daşdəmir ƏJDƏROĞLU*

**"Yeni təfəkkür" qəzetinin baş redaktoru Şəmsiyyə Kərimova (Musaqızı) ilə illərdir eyni binada çalışırıq. Vaxtilə minlərlə insanın iş yeri kimi qədəm qoyduğu "Azərbaycan" Nəşriyyatının cəmi bir giriş-çıxışı olduğu üçün onunla tez-tez üz-üzə gəlirik. Sadə, mehriban xanımdır. O qədər təvazökardır ki, yaxından bələd olmasan, heç baş redaktor olduğunu hiss etməzsən. Adama elə gəlir ki, binaya daxil olan bu xanım haradasa çalışan sadə peşə sahibidir...**

İnsanları yaxşı tanıyır. Qayğıkeş olduğundan son tikəsini bölməyə hazırdır. Səbrli və təmkinlidir. Bu illər ərzində onun kiminləsə, nəyə görəsə mübahisə etdiyinin şahidi olmamışam. Ən gözəl xüsusiyyəti isə odur ki, insanlarda mənfi yox, müsbət xüsusiyyətlərə önəm verir...

Müəllifi dəqiq yadımda qalmayıb, kimsə deyib ki, şairlər böyük şəhərlərin "cəhənnəm"indən bəs deyincə danışıblar. Bodler iri şəhərə "ölümün kölgələr ölkəsi" deyib... Doğrudan da gün keçdikcə böyük şəhərlər üzərində daha az ulduz görünür. Günəşi belə unutmaqda olan şəhər insanının ulduzlara tamaşa etmək heç ağlına gəlməz. Hərçənd ulduzlar öz varlığının fərqinə varanlar üçün ümid işığıdır - insana daim var olduğunu xatırladar. Ancaq ulduzların səpələndiyi göylər aləmiylə əhatəli kənd adamından fərqli olaraq şəhər adamı ulduzlu səmanı seyr edə bilmir. Yəqin bu üzdəndi, artıq sevməyi də bacarmır... Günəşin, Ayın, ulduzların... Allaha səcdə etdiyini görmədən necə sevsin?.."

Allahın sevdiyi və Allahı dərin məhəbbətlə sevən Şəmsiyyə xanım üçün tarazlıq çox böyük əhəmiyyət kəsb edir. Həyatda nəyinsə həddindən artıq olmasını xoşlamır. Tarazlığın, ölçünün pozulduğu yerdə harmoniya və mütənasibliyi bərpa etməyə can atır. Çox həssas insandır. Özündən əvvəl başqalarının reaksiyalarına diqqət yetirməyə meyllidir. Estetik hislərinin inkişafı, ictimai sahədə fəal olması onu sevilən, hörmətli insan kimi tanıtdırır... Xarakterik xüsusiyyətlərindən biri də budur ki, cazibədarlığı ilə münasibətlərdə son dərəcə təsiredici ola bilir. Dərin hislərə qapılmamağa üstünlük verir. Azadlığına önəm verməyi, müstəqilliyini qoruyub saxlamağı bacarır. Amma tənhalıqdan da zəhləsi gedir. Komandada çalışmağı xoşlayır...

O, çox prinsipial xanımdır. Jurnalistikanın mənafeyinə çox ciddi yanaşır, qlobal və taleyüklü məsələlərdə nadir hallarda güzəştə gedir. Əslində isə Şəmsiyyə Kərimova sadə qəlbə, düzgün dəyərlərə əsaslanan prinsipial xarakterə malik xanımdır və bir dəyərli qələm sahibi kimi həmişə həqiqət daşıyıcılarının - əsl yazarların, söz sərraflarının yanında durur.

Deyirlər ki, insanların bir-biri ilə bağlanmamağı, ünsiyyət saxlamamağı, təmas qurmamağı və könüldaş olmamağı əslində, əsrarəngiz tərzdə "Tanrıdan uzaq" olmağın özüdür. Amma Ş.Kərimova Ucadan uca olan Allaha da, Onun yaratdığı insanlara - qohumlara da, dost-tanışa da, yerlilərinə də bağlı bir ziyalıdır. Təbiətdən bir an olsun belə ayrı qala bilmir.

Şəmsiyyə Musa qızı Kərimova 24 noyabr 1955-ci ildə Azərbaycanın dilbər guşələrindən biri olan Tovuz şəhərində dünyaya göz açıb. Hələ orta məktəbdə oxuyarkən respublika mətbuatında məktəbli olaraq tez-tez çıxış edən Şəmsiyyə xanımın müxtəlif məzmunlu yazıları "Azərbaycan gəncləri" qəzetində və o vaxt rayonda çıxan "Həqiqət" qəzetində dərc olunurdu. Azərbaycan mətbuatında ilk dəfə orta məktəbdə oxuyarkən "Azərbaycan gəncləri" qəzetinin Bakı Dövlət Universitetinin Jurnalistika fakültəsi ilə birgə açdığı "Jurnalist... Jurnalist... Jurnalist!" müsabiqəsinə göndərdiyi "Çərkəz qızı Tellinin nağılı" oçerki ilə tanınıb, oçerk müsabiqənin qalibi olub. Bu məqamı həmişə fərəhlə xatırladan Şəmsiyyə xanımın uşaqlıqdan yazıya böyük marağı olub.

O, 1979-cu ildə Bakıya gəlib, o vaxtkı "Komunist" nəşriyyatında işə başlayıb. Eyni vaxtda iki illik Jurnalist Sənətkarlığı İnstitutunda təhsil alıb və 1980-ci ildə Azərbaycan Dövlət Radio və Televiziya Verilişləri Komitəsində radionun "Gənclik" baş redaksiyasında müxbir kimi fəaliyyətə başlayıb. Eyni zamanda ölkə mətbuatında mütəmadi olaraq çıxış edən Ş.Kərimova 1987-ci ildən "Azərbaycan gəncləri" qəzetində çalışıb. 1987-ci ildə Bakı Dövlət Universitetinin Jurnalistika fakültəsinə daxil olub və 1993-cü ildə universiteti bitirib. Respublikada baş verən məlum ictimai-siyasi proseslərdən sonra "Azərbaycan gəncləri" qəzeti fəaliyyətini dayandırdı. Məhz buna görə də taleyini mətbuata bağlamış bu qələm sahibi 1996-cı ildən "İki sahil", 2003-cü ildə "Naxçıvan" qəzetində jurnalistlik fəaliyyətini davam etdirib. 2005-ci ildən isə "Yeni təfəkkür" qəzetinin təsisçisi və baş redaktorudur. 2007-ci ildən Azərbaycan Qızıl Aypara Cəmiyyəti qəzetinin həmtəsisçisi olduğu "Yeni təfəkkür" qəzetinin baş redaktorudur.



2010-cu ildə Milli Mətbuatın 135 illiyində ölkə Prezidentinin müvafiq sərəncamı ilə "Əməkdar jurnalist" fəxri adına layiq görülüb. "Qızıl qələm" media mükafatı laureatıdır. "Nailiyyət", "Fəxri jurnalist" diplomuna layiq görülüb. Vaxtilə təsərrüfatda çalışdığı dövrlərdə - 2 il yarım ərzində hər il "Ən yaxşı pambıqçı" döş nişanı ilə təltif olunub. Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vastələrinin inkişafına Dövlət Dəstəyi Fondunun keçirdiyi fərdi jurnalist müsabiqələrinin bir neçə dəfə qalibi olub, keçmiş KİVDF-nin diplomları ilə təltif edilib.

Yuxarıda Mövlanə Cəlaləddin Ruminin yüz illər öncə söylədiyi bir fikri xatırlatdım. Bu düşüncənin günümüzdə də keçərli olmasının başlıca nədənlərindən biri, bəlkə də birincisi, düşünürəm ki, çağdaş dünyamızda Şəmsiyyə Kərimova kimi hər baxımdan bütöv insanların var olmasıdır. Özəlliklə Şəmsiyyə xanıma gəldikdə isə bu düşüncə, məndə illər boyu etdiyimiz əməkdaşlıq prosesində formalaşıb və sonucda bütünlüklə özünü doğruldub. Əməkdaşlığın çevrəsi isə olduqca geniş olub. Əməkdaşlığımızın, dostluğumuzun özülü illər öncə qoyulub. Bir az da aydın və konkret desək, "İki sahil"də.

Onun yaradıcılığı barədə çox yazılıb. Elə özüm də müəyyən detalları zaman-zaman qələmə almışam. Yalnızca onu bildirmək istəyirəm ki, jurnalistikanın bu günü ilə bağlı danışmalara fəal qatılan, dəyərli düşüncələri ilə məni ruhlandıran, bu sorumlu işin olduqca gərəkli olduğunu dönədönə təkrarlayan Şəmsiyyə Kərimovanın özünün də, sözün gerçək anlamında, alovlandığını öz gözümlə görə bilmişəm. Şəmsiyyə Kərimova intellektinin potensialı, peşə canıyananlığı göz qabağında olub.

Olduqca prinsipialdır. Qəzetçiliyin öləzidiyi bir vaxtda qəzetlə nəfəs alan Şəmsiyyə xanım onun çapını ləngitmir, oxucu ilə mütəmadi görüşə gəlir.

Vizual görüşlərimiz az-az olsa da, telefon bağlantılarımız gərəyincədir. Əməkdaşlığımızın və dostluğumuzun yenicə qol-qanad açdığı bir çağda telefon zəng çaldı. Şəmsiyyə xanımın artıq yaxşı tanıdığım səsini eşitdim: "Novruz müəllim səni görmək istəyir. Vaxtını müəyyənləşdir, gedib görüşək".

Vədələşdiyimiz vaxtda Azərbaycan Qızıl Aypara Cəmiyyətinin yerləşdiyi binaya yaxın ərazidə görüşdük və Novruz müəllimin qəbuluna getdik. Ondan qabaq görüşsək də, Novruz müəllimlə yaxından görüşümüz məhz Şəmsiyyə xanımın vasitəsilə alındı.

Onun ilk kitabı 2015-ci ildə "Elm və təhsil" nəşriyyatında işıq üzü gördü. "Şəmsiyyənin kitabı" adlanır. O vaxt mən də bu kitab haqqında fikir və mülahizələrimi mətbuat vasitəsilə bildirmişdim. Azərbaycan Qızıl Aypara Cəmiyyətinin prezidenti, Milli Məclisin deputatı Novruz Aslanov kitab haqqında fikrini ifadə edərkən Şəmsiyyə xanımı məhz belə səciyyələndirmişdi: "Özü kitab olan xanım". Novruz müəllimdən daha bir sitat: "Əsl jurnalist həmişə yaza-yaza öz işində böyüyür, özünü narahat edən hansısa suallara cavab tapır, hansısa hissin dərinliklərinə enir... Şəmsiyyə xanımın şəxsiyyətindəki və yaradıcılığındakı bu parametrlər birləşərək xoş aura, rəngarəng ahəng yaratdığı üçündür ki, bu kitabı birnəfəsə oxumaq mümkündür".

"Xalq" qəzetinin baş redaktoru Əflatun Amaşov: "...Biz Şəmsiyyə xanımı fədakar jurnalist, qələmi ilə məlhəm olan həmkar kimi tanımışıq".

Allahın hər şeyi görən gözlərindən uzaqda bir cənnətməkan guşə var, Azərbaycanımızın füsunkar bir elidir bura. Adına Tovuz deyirlər, Şəmsiyyə xanımın ata-baba yurdudur. Şəmsiyyə Kərimova üçün dünya Tovuz elindən başlayır...

Şəmsiyyə xanım bütün yaradıcılığı boyu özünün xarakterini, tədqiqatçı müşahidəsini qoruyub saxlayıb. Yəqin elə buna görədir ki, cəsarəti sıyrılmış qılınc kimi həmişə əlində olsa da, heç vaxt yıxılana balta çalmağıyla öyünən yol tutmayıb, özündən müştəbehlərə isə sərt olub həmişə.

**Onun böyüyüb tərbiyə aldığı ailə öz sadəliyi, xeyirxah şəcərəsiylə seçilib və Şəmsiyyə xanım da bu ailədə doğulmaqla, bu şəcərənin daşıyıcısı olmaqla, çoxuşaqlı ailənin yükünü atasının yoxluğundan sonra mərhum anası Xanım xala ilə birlikdə çəkməklə, onu tanıyan hər kəsdə fəxr edən övlad təsiri bağışlayıb. Bu, 70 yaşlı Vətən övladı - bu yurdun, millətin jurnalist qızı, fəxarətli söz sahibi Şəmsiyyə Musa qızı Kərimovanın özüdür.**

# QƏDİR RÜSTƏMOVUN OV MACƏRALARI VƏ YOLUMUZUN ÜSTÜNƏ ÇIXAN QARA PİŞİK

**(əvvəli 8-ci səhifədə)**

Qədir gülüb özündən getdi və dedi:

**- Ə, o pişiyin bəxti gətirmiyəjey ey, qabağına biz çıxmışıq. Evi-eşiyi dağılmış, yurdu-yuvası boş qalmış, çöllərə səpələnmiş adamlarıq, çıxmışıq yazığ pişiyin qabağına.**

Getdik Ağgölə. Ya Qədirin ov həvəsi yox idi, ya da qara pişikdən arxaç keçdi, heç nə vura bilmədik. Kor-peşman qayıdırıq. Bir kəndin içindən keçəndə gördük yolun kənarında iyirmi-otuz ev qazı otlayır. Qədirlə də Tahir abi öndəki maşındadı, keçib gediblər.

Xallı Şahin çığırdı:

**- Ə, saxla, saxla!**

Maşını saxladıq. Xallı Şahin tez maşından düşdü, güllə ilə iki qazı vurdu. Kənd camaatı güllə səsinə axışdılar yola və başladılar Xallı Şahini qovalamağa.

Balaqanov ki *(bilməyənlər üçün: İlf-Petrovun "Qızıl dana" əsərindəki qəhrəmanlardan biri)* necə oğurladığı qazı qoltuğuna vurub qaçır və camaat tökülür arxasınca, Xallı Şahin də qazları vurub qoltuğuna maşına tərəf qaçır, kənd camaatı da arxasınca. Balaqanovdan fərqli olaraq, Şahinin qoltuğunda iki qaz vardı. Balaqanov son anda qazı tullasa da, Xallı Şahin qazları tullamadı, özünü birtəhər maşına saldı:

**- Çıxdıq aradan!**

Camaat arxamızca beş-altı daş atsa da, gec idi.

Bir az gedəndən sonra gördük ki, Qədirgili maşını saxlayıb bizi gözləyir.

**- Harda qalmışdınız?**

Xallı Şahin əllərində iki qaz maşından düşdü:

**- Qaz vurmuşam.**

Qədir:

**- Ə, bunnarkı ev qazıdı.**

**- Noolsun. O boyda kişiyə söz vermişəm ki, qaz vurub gətirəjəm. Deyirsiniz indi onun yanında yalançı çıxeydim?**

Tahir abi Xallı Şahinlə dost olsa da, o qədər də xoşu gəlməzdi, tez-tez sancardı, bəlkə də çox danışdığına görə. Hətta özündən kiçik qardaşı Rizvana deyirdi:

**- Şahinlə çox oturub-durduğuna görə səndən də xoşum gəlmir.**

Tahir abi Xallı Şahini təpədən-dırnağa süzüb dedi:

**- Şahin, sənin ömründə heç düz danışdığın olub ki?!**

Ən maraqlısını indi oxuyacaqsınız. Geri qayıdanda gördük ki, yolumuzun üstünə çıxan qara pişiyi həmin yerdəcə maşın vurub.

Qədiri yenə gülmək tutdu:

**- Gördünüz, pişiyin bizə görə bəxti gətirmədi...**

Gəldik Paşa kişigilə. Yaxşı bir süfrə hazırlamışdı. Plov da dəmlətmişdi. Xallı Şahinin vurduğu qazları görəndə gülməkdən öldü. Dedi ki, ə, Şahin gərək bunu yolub iki gün açıq havada saxlayasan ki, iyisi-qoxusu getsin.

Sonra da məlum oldu ki, heç bizə arxayın olmayıb, özü çıxıb kəndin aşağısından dörd dənə turac vurub və turac plovu dəmləd ib.

Ən pisi o oldu ki, həmin ovdan bir qədər sonra Tahir abini, yəni Axundov Tahiri (ağdamlılar onu "Axundov Tahir" deyə çağırırdılar) itirdik.

Qədir Rüstəmov Tahir abidən sonra, ümumiyyətlə, ova getmədi. Söhbət vaxtı səbəbini soruşanda dedi:

**- Məni ova Tahir dadandırmışdı. Tahirsiz nə ov ey...**

***

Çox qəribədir, heyvansevərlər var, olsun, yaxşıdı. Amma məsələ nədi? Deməli, bu "heyvansevərlər" mənə nöqsan tuturlar ki, ov eləmək günahdı.

Deməli, yazıq qoyunu yemək olar , dananı, inəyi, camışı yemək olar. Toyuğu, çolpanı, ev qazını, ev ördəyini yemək olar, amma çöl qazını, çöl ördəyini, dovşanı, turacı, qırqovulu yemək günahdı. Niyə, qardaş?

Tanrı insanı yer üzünün əşrəfi yaradıb. Bu gün bəyəndiyimiz və bəyənmədiyimiz, hətta pandemiyanın barmağına doladığı dünyanı və bu dünyada nə varsa hamısını insan üçün xəlq edib. Kəlbəcərdəki Dəlidağı da, Niaqara şəlaləsini də. Və bütün yeyilə biləcək heyvanları da insan üçün yaradıb. Yəni bizim on min, yüz min il bundan əvvəlki babalarımız ov əti ilə yaşayıblar. Əgər ov əti qadağan olunsaydı bunu Tanrı tərəfindən göndərilən kitablar qadağan edərdi.

İndi əslində mən ovla bağlı yox, Qədir Rüstəmovla bağlı xatirələrimi bölüşürəm.

Deməli, adətən Qarabağda, yəni Ağdamda, Ağcabədidə, ya Bərdədə müəyyən dostlar toy edəndə çox vaxt mənə dəvətnamə göndərmirlər ki, uzaq yoldu, nəyə gəlsin.

Amma elə ki xəbər tuturdum hansısa bir dostumun toyudu, dəvətnaməsiz gedərdim. Ağdamda dostum Axundov Rizvanın (Tahir abinin kiçik qardaşı) toyudu. Mənə dəvətnamə göndərməyiblər, məlum səbəbə görə.

Şahin Hümbətəliyev zəng elədi ki, sabah Axundov Rizvanın toyudu, gəlməyəcəksən? Dedim, tezdən yanınızdayam.

Mən Ağdama adətən Sabirabad yolu ilə, Ağcabədidən keçib gedirdim. Saat 11-12 olardı çatdım Ağcabədiyə, bir stəkan çay içdik. Şahin Hümbətəliyev (Ağcabədidə istintaq şöbəsinin rəisi idi), Kamil Quliyev (Ağcabədinin baş "oboxeyisi" idi, hər ikisi mənim qohumumdu) getdik Rizvanın toyuna. Günortanı keçmişdi...

...Oxucu, darıxmayın, söhbət Qədirlə ovdan gedəcək...

... Rizvangilin həyətinə yaxınlaşanda QədirinTanrının da xoşuna gəldiyi səsini eşidirdik: "Ay Laçın, can Laçın".

Nə isə, girdik mağara. Qədir də oxuyur. Bizi görən kimi oxumağını saxladı. Hamı da çaşdı ki, bu niyə dayandı?

Üzünü tutdu bizə və dedi:

**- Ə, Məllim, bu Seyran sənin dostundu?**

Təbii ki, toydakılar da bizə tərəf çevrildi.

**- Hə, dostumdu, Qədir.**

**- O sənin nə təhər dostunduku namərd mənim demədiyim sözdəri sənin haqqında yazıf...**

Həmin vaxt Seyran Səxavət Qədir Rüstəmovla bağlı "Ulduz" jurnalında bir yazı yazmışdı. O nə müsahibə idi, nə hekayə idi, nə reportajıydı, heç bilmirəm nə idi. Əslində Seyran Səxavət o yazısı ilə jurnalistikaya yeni bir janr gətirmişdi. Seyranın Rəmişlə də bağlı belə bir qeyri-adi yazısı var və ümümiyyətlə, Seyranın belə qeyri-adi yazıları çoxdu. Və Seyranın belə yazıları jurnalistikada dərs kimi keçirilməlidir.

Seyran nə yazmışdı? Qədirlə müsahibəsində belə bir yer vardı. Mənim Qədir haqqında yazdığım povestə bağlı suala Qədir belə cavab verrmişdi:

**- O nədi ə, povestdə maa ad qoyuf, Beyrək! Yox bir böyrək.**

Mən povesti yazan vaxtı 18 yaşım vardı, Qədirlə bir neçə dəfə görüşmüşdüm. O vaxt Sovet hökuməti müəyyən məsələlərə yasaq qoymuşdu. Ona görə də Qədirin adını dəyişib Bəkir qoymuşdum.

**- Məllim, o əsərdə məim adımı nə yazmısan?**

**- Bəkir.**

**- Ə, poz onu, Bəkir məim qardaşımdı, özü də bir az aramız yoxdu...**

... Qədirin qardaşı Bəkiri düzü mən tanımırdım, amma sonra öyrəndim ki, Ağdamın ən yaxşı tarzənlərindən biridi.

**... - Bəs, nə yazım?**

Qədirlə görüşə Qarabağda adla tanınan dərzi Aydının oğlu ilə getmişdim, xalam oğlu idi.

**- Budey buun adını qoy. Adın nədi, Aydının oğlu?**

**- İslam.**

**- Bu nə addı dədən qoyuf saa? Ə, yox, onu da yazma. Get özün bir ad tap dana.**

Mən də Qədirin adını povestdə Beyrək kimi yazdım. Niyəsi də o idi ki, bu addan xoşum gəlirdi, amma nədənsə bizim xalqımız bu adı qoymurdu. Dedim kiminsə bu povestdən xoşu gələr (gör nəyə inanırdım ey, "Dədə Qorqud"dakı adı qəbul etməyənlər guya mənim povestimdən xoşhallanıb övladlarına Beyrək adı qoyacaqdılar) övladına Beyrək adı qoyar...

**- Ə, Məllim, Allah haqqı, mən Seyrana elə bir söz dedməmişəm, özündən uyduruf. - Sonra sağ ayağını qaldırdı yuxarı, ayaqqabısını göstərdi, italyan ayaqqabılarının tapılmadığı bir vaxtda gözəl bir italyan tuflisi vardı: - Ay camaat, bu ayaqqavını maa Hümbətəliyev Şahin bağışdıyıf.**

Sonra da oxuduğu muğamda harda dayanmışdı, ordan davam elədi.

Musiqi bitən kimi gəlib bizlə oturdu. Hal-əhval tutdu və dedi:

**- Qalalıların sözü olmasın, havax gədəssən?**

**- Üç-dörd gün burdayam.**

**- Sabah heş, yorulmuşux, o birisi gün səni özüm aparajam ova. Amma sallah Şahin gəlməsin, o, çox danışır ey.**

Xallı Şahin də durub başımızın üstündə. Qədir qayıtdı ki, sənə bir işim düşüb.

**- Nədi?**

**- Krasnovodskdakı ağdamlılar maa ikimərtəvəli bir it göndəriflər. Dorikin tulası məim itimin yanında p.. yeyir. Sən əlin uzundu, ona pasport düzəldə bilərsən ki, məim itim Dorikin tulasından daha böyük nəsildəndi, aparım soxum Dorikin gözünə.**

Qədir it boğuşdurmağı da sevirdi, xoruz döyüşdürməyi də. Türkmənistandan ona göndərilən it də əslində boğuşmaq üçün idi.

**- Yox, bunu eləyə bilmərəm.**

**- Sən də heş, bir yaralı barmağa çiş eləmədin.**

**- Qədir, Dorikin tulasını çox istəyirsənsə pulunu ver al dana.**

**- Ə, Dorik Sonya məlliməni satar, amma tulasını satmaz.**

Sonya müəllimə 2 nömrəli məktəbdə rus dili müəllimi idi və mənə də dərs demişdi.

Sonra mənim üçün Qədir ən çox sevdiyim mahnısını oxudu: "Neyçün gəlməz"...

... Həmin vaxt yuxumuza da girməzdi ki, bir gün Natəvanın vaxtsız vəfat etmiş oğluna yazdığı bu qəzəl kimi Qarabağ gedəcək və biz hamımız "Neyçün gəlməz" oxuyacağıq.

Tanrının xoşbəxtliyi idi ki, 33 il sonra "neyçün" gəldi.

Və toydan bir gün sonra Qədirlə getdik üzü güləbətinə, yəni Ağcabədiyə, Ağgölə...

**Dostlar, arxası gələcək ey!**

# Çinin şok qızıl əməliyyatı: 5 min ton...

**Çin tərəfindən həyata keçirilən qeyri-rəsmi qızıl alışları rəsmi göstəricilərdən 10 dəfədən çox ola bilər.**

Adalet.az xəbər verir ki, bu barədə "Faynənşl Tayms" nəşri yazıb.

Qeyd olunur ki, Çin ABŞ dollarından asılılığı azaltmağa çalışdığı üçün bu, qiymətli metalın rekord səviyyədə bahalaşmasına səbəb olur:

"Rəsmi məlumatlara görə, Çin Mərkəzi Bankı bu il ayda cəmi 1,9-2,2 ton qızıl alıb, lakin bazarda bu rəqəmlərə inanan çox azdır. "Soci?t? G?n?rale" analitikləri Çin üzrə real alışların 2025-ci ildə 250 tona çata biləcəyini hesablayırlar, bu isə dünya üzrə mərkəzi bankların ümumi tələbatının üçdə birindən çoxdur.



Alışların qeyri-şəffaf olması qiymətlərin proqnozlaşdırılmasını çətinləşdirir. "Carlyle" şirkətinin enerji strategiyaları üzrə baş strateqi Ceff Karri bildirib ki, Çin qızılı dedollarizasiya strategiyasının bir hissəsi kimi alır və neftdən fərqli olaraq, qızılın tədarükünü peyklərlə izləmək mümkün deyil.

Treydlər alternativ məlumat mənbələri axtarırlar: məsələn, İsveçrə və ya Cənubi Afrikadan 400 unsiyalıq iri qızıl külçələrinə verilən sifarişlər, hansılar ki, sonradan Çinə göndərilir. Bəzi ekspertlərin fikrincə, Çinin faktiki qızıl ehtiyatları rəsmi rəqəmlərin iki dəfə çoxu - təxminən 5000 ton ola bilər.

Son illərdə mərkəzi banklar böyük həcmdə qızıl alırlar və bu da qiyməti bir unsiya üçün 4300 dollardan yuxarı qaldırıb. ABŞ-dan kənar ölkələrin dünya ehtiyatlarında qızılın payı 10%-dən 26%-ə yüksələrək dollardan sonra ikinci ən böyük ehtiyat aktivinə çevrilib".

## *Bu qidalar infarkt və insulta səbəb olur*

**Ürək tutmaları və insultlarla əlaqəli qidalar müəyyən edildi.**

Qastroenteroloq İrina Yakovleva emal olunmuş qidaların, kolbasaların və sousların həddindən artıq istehlakı, bu qidalarda yüksək duz tərkibinə görə ürək tutması və insult riskini potensial olaraq artıra biləcəyini deyib.

"Nə qədər çox duz yesəniz, hipertoniya riski bir o qədər yüksəkdir, bu da ürək tutması və insult üçün birbaşa yoldur.

Duzun çox hissəsi kolbasa, sosiska, pendir, sous, fəst-fud və emal olunmuş qidalardan gəlir. Buna görə də, daha az emal olunmuş qida yeməli və evdə normal yeməklər bişirməlisiz", - Yakovleva bildirib.

Yakovlevanın sözlərinə görə, şəkər də az təhlükəli deyil: həddindən artıq şirniyyat və şəkərli içkilər çəki, triqliseridlərin artmasına və diabet riskinə səbəb olur:

**"Qazlı içkilər, enerji içkiləri, şirinləşdirilmiş qatıqlar, qablaşdırılmış şirələr, peçenye və konfetlər zəhər deyil, lakin onlar gündəlik vərdişlərdən daha çox arasıra istehlakla məhdudlaşdırılmalıdır".**

# İşğaldan azad olunmuş ərazilərə “Böyük Qayıdış”

№ 44 (2467) 21 noyabr 2025-ci il

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

# DAŞBULAQ VƏ BADARA CAMAATI DOĞMA YURDA QAYITDI



**Deyirlər ki, köhnə yurdun qədrini təzə yurdda bilirlər. Bu mənada yurda dönmək, ocağa qayıtmaq özü də Allahın insanlara bəxş etdiyi gözəl bir xoşbəxtlikdir. Özü də bu xoşbəxtliyi insanlar beş il, on il deyil, düz otuz ildən çox gözləyiblər. Onun üçün insanda öncə böyük səbr, vətən sevgisi və sabaha olan ümid lazımdır. Heç bir insan ümidsiz yaşaya bilməz. Ac qalmaq olar, susuz qalmaq olar, amma ümidsiz qalmaq insanın diri-diri ölməsi deməkdir. Bunu da ən çox çətin vəziyyətdə və çətin durumda olan, yurd-yuvası yağmalanmış insanlar hiss edə bilərlər. Onlar hiss edə bilərlər ki, dərd nədir, kədər nədir, vətənsiz olmaq insanı hansı vəziyyətə gətirib çıxarır.**



Bax, beləcə dözümlü insanlar, səbrli adamlar gec-tez öz vətənlərinə qovuşa bilirlər. Xocalılıların başına açılmayan oyun, baş verməyən facə qalmayıb. Yəni daşürəkli erməni faşistləri Xocalını işğal edəndə onun daşını daş üstə qoymadılar. İnsanları, qocaları, qadınları, uşaqları, hətta xəstə adamları belə erməni cəlladları güllələbaran etdilər, qətlə yetirdilər. Bununla da onların kinikküdurəti soyumadı. Qətlə yetirilmiş yaşlı insanların, qadınların və uşaqların dərisini soydular, gözlərini çıxartdılar. Biz bu səhnələri məşhur jurnalist rəhmətlik Çingiz Mustafayevin Xocalıda çəkdiyi və dünyaya yaydığı kadrlardan görmüşük. Görmüşük ki, o, hönkürə-hönkürə ağlayır və ölmüş uşağı qucağına alıb aparan əsgərimizə deyir ki, onun başını qaldır, qoy dünya görsün ki, ermənilər hansı vəhşiliyi törədib.

Bu dərdin, kədərin hamısını xocalılılar yaşayıblar. Amma bu gün isə onların həyatına, ömrünə günəş doğub. Və o günəş onların 30 illik don vurmuş duyğularını, hisslərini və istəklərini oyadır. Heç şübhəsiz, xocalılılar Vətənə qayıdanda ilk növbədə qətlə yetirilmiş doğmalarını, əzizlərini xatırlayırlar. Bir anlıq da olsa o ağır günləri, ağır anları gözlərinin önünə gətirirlər. Xocalının Daşbulaq və Badara kəndlərinə ilk köç bir neçə ay bundan əvvəl olub. Həmin günlərdə Daşbulaq kəndini 91 nəfərdən ibarət 21 ailə, Badara kəndinə isə 117 nəfərdən ibarət 31 ailə köçürülüb. Təbii ki, onların hansı hisslər, hansı sevinclər keçirdiyini çoxları yaxşı hiss edir. Amma görünən odur ki, bu insanlar çox möhkəm iradəli, dözümlü adamlar olublar. Çünki onlar inanıblar ki, nə vaxtsa onların həyatında günəş yenidən doğacaq, onlar yenidən doğma yurda, doğma ocağa dönəcəklər. Bax, bu istək və sevgi də onları daim yaşadıb və ruhlandırıb.

Noyabrın 13-də isə Xocalının Daşbulaq və Badara kəndlərinə ikinci köç baş tutub. Həmin insanların çöhrəsində təbəssüm, ürəklərində böyük sevgi hiss olunur. Daşbulağa 50 nəfərdən ibarət 15 ailə köçürülüb. Onlardan biri ilə - Nadir Namazovun ailə üzvləri ilə tanış oluruq. Nadir qardaşımız deyir ki, biz hər axşam yatanda dua edirdik ki, Allah-Təala bizə Vətənə dönməyi qismət eləsin. Yuxularımızda o qədər kəndimizi görmüşük ki. Hər dəfə yuxularımda kəndimizi görəndən sonra hönkür-hönkür ağlayardım.

Deyirdim görəsən, ilahi, mən və ailəm Daşbulağa qayıda biləcəyikmi? Amma Allah arzumuzu eşitdi və bizi Vətənə döndərdi. Bizi Vətənə döndərən həm də Ali Baş Komandan, prezident İlham Əliyev və Azərbaycan əsgəri oldu. Elə hər gün də onlara dua edirəm. Şəhidlərimizə dua edirəm, qazilərimizə dua edirəm.

Bizə üçotaqlı mənzil verilib, hər cür şəraitimiz var. İnanın, birinci axşamı yeni mənzilimizdə elə rahat yatdıq ki, heç otuz ildə bir dəfə olsa belə xoşbəxt gecə yaşamamışdıq. Əlbəttə, gərək sənə verilən dəyəri, diqqəti də qiymətləndirməyi bacarasan. Dövlətimiz və hökumətimiz çox sağ olsun ki, bizim kəndə onlarla ailəni doğma kəndə köçürüb. İndi biz rahat nəfəs alırıq. Çünki yaşadığımız Daşbulaq kəndində hər cür infrastruktur inşa edilib. Yollar, işıq, qaz, su xətti və sosial obyektlər. Bütün bunlar bizim kənddə daha rahat yaşamağımıza kömək edir. Üstəlik də söz veriblər ki, məni və ailəmin bir üzvünü işlə təmin edəcəklər. Adamın işi olandan sonra təbii ki, dolanışığı da normaldır. Əlbəttə, öz kəndimiz, öz evimiz dünyanın ən gözəl yeridir.

Onun oğlu Natiq də söhbətə qoşulur. Deyir ki, atam həmişə bizə təsəlli verirdi ki, səbrli olun, Allahın köməkliyi ilə vaxt gələcək kəndimizə qayıdacağıq. Onun Ulu Öndər Heydər Əliyevə və prezident İlham Əliyevə çox böyük inamı vardı. Deyirdi ki, Ümummilli Lider Heydər Əliyev biz qaçqınlarla görüşəndə bildirirdi ki, gec-tez öz yurdunuza qayıdacaqsınız. Bu sözləri prezident İlham Əliyev də dəfələrlə səsləndirmişdi. İndi şükür Allaha, ailəmiz öz doğma Daşbulaq kəndindədir. Buranın havası da, suyu da çox gözəldir. Tək mənim deyil, kənd camaatının hamısı yaradılmış şəraitdən razılıq edir. Bütün bunlar onu göstərir ki, hələ bizim xoşbəxt və yaxşı günlərimiz qabaqdadır.

Badara kəndinin sakini Nəzirə Məmmədova da sevincini gizlədə bilmir. O da kəndə qayıdan 15 ailə üzvündən biridir. Nəzirə xanım deyir ki, düzdür, bizim kəndi ermənilər od vurub yandırdılar, daşı daş üstə qalmadı. Amma yeni tikilmiş Badara da heç də əvvəlki kəndimizdən geri qalmır. Əksinə, burda bizim hərtərəfli yaşamağımız və işləməyimiz üçün gözəl şərait yaradılıb. İki, üç, dördotaqlı mənzillər inşa edilib. Bax, bundan gözəl nə ola bilər?

**Əlbəttə, günəş o yerdə isti və hərarətli olur ki, orda Vətən olur. Qərib ölkədə günəş çıxsa da, kefin ala buluddan nəm alsa da yenə rahatlığın olmur. Amma kasıb ol, dilənçi ol, heç nəyin olmasın, Vətənin olsun, ocağın olsun, yurdun olsun. Adamın Vətəni, ocağı, yurdu olanda özünü daha rahat və xoşbəxt hiss edir. Bax, Xocalının Daşbulaq və Badara kəndlərinə ikinci dəfə köçən insanlar özlərini çox rahat və xoşbəxt hiss edirlər. Allah sizin ocağınızı bundan sonra da isti eləsin, ruziniz bol olsun, həyatınız şən keçsin. Həmişə doğma ocaqda, Daşbulaq və Badara camaatı!**

**Emil FAİQOĞLU**

AZƏRBAYCAN RESPUBLİKASININ
MEDİANIN İNKİŞAFI AGENTLİYİNİN MALİYYƏ YARDIMI İLƏ

# Hər qurtumda bir hekayə: Türk Qəhvəsi

**Zəngin ətri və dərin dadı ilə seçilən türk qəhvəsi Türkiyənin ən dəyərli mədəni irslərindən biridir. Özünəməxsus hazırlanma və təqdimetmə üsulları, sosial və tarixi əhəmiyyəti bu içkini Türkiyəni ziyarət edən hər bir insan üçün xüsusi bir təcrübəyə çevirir.**

2013-cü ildə türk qəhvəsi UNESCO-nun Bəşəriyyətin Qeyri-Maddi Mədəni İrs Siyahısına daxil edilib. Elə həmin tarixdən etibarən 5 dekabr bu tanınmanın ildönümü kimi "Dünya Türk Qəhvəsi Günü" adı ilə qeyd olunur. Bu il isə türk qəhvəsi öz mədəni və tarixi dəyərini bir daha təsdiqləyərək, Türkiyənin Avropa İttifaqında rəsmi şəkildə qeydiyyata düşən ilk "ənənəvi məhsul adı" olub.

İsti və köpüklü bir fincan türk qəhvəsindən həzz almaq üçün Türkiyədən daha gözəl məkan tapmaq çətindir. Burada hər qurtum qonaqpərvərliyin, ənənənin və mədəni yaddaşın hekayəsini danışır. Bəlkə də bu əvəzolunmaz dad sizi ölkəyə növbəti səfərinizi planlaşdırmağa ilhamlandıracaq.

"Bir fincan qəhvənin qırx il xətri var"

Türk qəhvəsinin tarixi 500 ildən artıqdır. XVI əsrdə Yəmən vasitəsilə Osmanlı torpaqlarına gətirilən bu nadir içki qısa zamanda böyük populyarlıq qazanaraq ilk qəhvəxanaların yaranmasına səbəb oldu. Bu məkanlar tədricən fikir mübadiləsinin aparıldığı, ictimai həyatın formalaşdığı mədəniyyət ocaqlarına çevrildi. Tezliklə türk qəhvəsi evlərə də daxil oldu və



əsrlərdir yaşadılan bir ənənəyə çevrildi.

Tacirlərin fəaliyyəti ilə türk qəhvəsi Avropaya yayıldı və qitənin qəhvə mədəniyyətinin formalaşmasına mühüm təsir göstərdi. Lakin türk qəhvəsinin dəyəri yalnız dadında deyil - əsrlərdir dostluqları, ailə bağlarını və insan münasibətlərini gücləndirən bir ritual kimi qorunur. Zaman keçdikcə o, nişan mərasimlərinin, bayramların və müxtəlif sosial toplantıların ayrılmaz hissəsinə çevrilib. Türk qəhvəsi ikram etmək qonaqpərvərliyin ən zərif ifadəsidir. Məhz buna görə xalq arasında tez-tez belə deyilir: "Bir fincan qəhvənin qırx il xətri var."

Türk qəhvəsini unikallaşdıran təkcə insanları bir araya gətirmə gücü deyil, həm də onun hazırlanma prosesidir. Bu, bu günə qədər istifadə olunan ən qədim qəhvə hazırlama üsullarından biridir. Xırda üyüdülmüş qovrulmuş dənələr soyuq su və istəyə görə şəkərlə birlikdə "cezve" adlı balaca qabda dəmlənir. Yavaş-yavaş isidildikcə qəhvə səthində mükəmməl köpük əmələ gəlir - türk qəhvəsinin ən əsas xüsusiyyətlərindən biri də məhz budur.

Təqdimat tərzi də digər qəhvələrdən fərqlənir. Gündəlik həyatımızda rast gəldiyimiz kağız stəkanlardakı qəhvələrin əksinə olaraq, türk qəhvəsi kiçik porselen fincanlarda, yanına bir stəkan su və ənənəvi lokumla birlikdə təqdim edilir.

Türkiyənin müxtəlif bölgələrini gəzərkən türk qəhvəsinin fərqli çeşidlərini dadmaq mümkündür:

Egey bölgəsi - mastik ağacının saqqızından hazırlanan, özünəməxsus ətirli saqqızlı qəhvə

Qaziantep - Pistacia terebinthus ağacının dənələrindən hazırlanan və Avropa İttifaqının Coğrafi İşarə (GI) qeydiyyatına malik menengiç qəhvəsi

Şanlıurfa və Mardin - daha güclü, kəskin dadı ilə seçilən qədim ənənəli mırrə

**Türkiyənin istənilən bölgəsində ləzzətli bir fincan türk qəhvəsindən zövq almaq mümkündür. Paxlava və lokum kimi məşhur şirniyyatlarla birlikdə bu içki hər söhbətin ən gözəl yoldaşıdır. Qəhvə bitdikdən sonra fincanda qalan telvedən "fincan falı"na baxmaq isə yüzilliklərdir davam edən maraqlı bir ənənədir.**

**Sübhan**

# Xoşbəxtlik puldan asılıdır?

## Psixoanalitiklər bu barədə nə deyirlər?

**Pul və xoşbəxtlik! Bu iki anlayış hər zaman müzakirə və mübahisə doğurub. Psixoanalitiklərin fikrincə xoşbəxtlik duyğusunun arxasında biokimyəvi proseslər, uşaqlıqdan formalaşan yaşam tərzi, bəzən də müasir dünyanın parıltılı həyat standartları dayanır. Lakin bu mövzunu araşdıran psixiatriya və neyropsixologiya ortaya maraqlı, hətta bir qədər paradoksal nəticələr çıxarır.**

Əlbəttə, pulun rahatlıq bəxş etdiyini heç kim danmır. İnsan borcsuz yaşayanda, sağlamlığına görə narahat olmayanda, kirayə pulu, kredit kimi problemi olmayanda beyində kortizol, yəni stres hormonu kəskin azalır.

İqtisadiyat üzrə Nobel mükafatı almış psixoloq Daniel Kanemanın fikrincə "xoşbəxtlik həddi" deyilən bir anlayış var. İnsan bəlli bir gəlir səviyyəsinə çatdıqdan sonra əlavə pul onun xoşbəxtlik səviyyəsini artıq yüksəltmir. Niyə? Çünki insan beyni yeni komforta ildırım sürəti ilə uyğunlaşır. Psixologiyada bu mexanizm "hedonistik adaptasiya" adlanır. Məsələn, nə vaxtsa arzuladığınız avtomobiliniz bir neçə aydan sonra sadəcə, "maşın" olur. Yəni, insan bir arzusuna çatdıqdan sonra beyni o yeniliyi normal kimi qəbul edir və əvvəlki həyəcanı söndürür.



Bundan sonra isə maraq dairəsinə qeyri-maddi amillər çıxır: azadlıq hissi, öz həyatını idarə etdiyini bilmək, sevildiyini hiss etmək, kiməsə lazım olduğunu görmək, maraq və məzmun dolu günlər yaşamaq. Neyropsixologiya bunu "daxili mükafat sisteminin doyma nöqtəsi" adlandırır. Yəni, maddi stimul müəyyən yerə qədər işləyir, amma davamlı dopamin mənbəyi yaratmır.

Həm də psixoanalitiklərə görə insanı ən çox xoşbəxt edən əşyalar yox, gözəl yaşanmış ömürdən qalan xatirələrdir. Niyə? Çünki əşya köhnəlir, sıradan çıxır, unudulur. Xatirə isə insanda yaşayaraq zamanla daha gözəl, daha dəyərli görünür. Bir isti görüş, bir səyahət, bir xoş hadisə illər sonra belə, insana enerji verir. Həm də bu cür xatirələr insanlar arasındakı sosial bağları möhkəmləndirir.

Lakin "sosial müqayisə" adlı gözəgörünməz, güclü bir psixoloji tələ də var. Müasir sosial şəbəkələr bunu daha da kəskinləşdirir. Analitiklərin fikrincə sosial şəbəkələrdə hamı öz həyatının yalnız gözəl anlarını paylaşır. Bu paylaşımları izləyənlər isə özünün adi, sönük, yorğun halını həmin parlaq vitrinlə müqayisə edir və nəticədə neqativ hislər yaşayır. Neyropsixoloqların fikrincə bu tələdən çıxmağın sadə, biraz da çətin yolu başqalarının həyatı ilə məşğul olmaqda yox, öz dəyərlərini zənginləşdirməkdədi.

Bəli, yaşamaq üçün hər bir insanın yetərli miqdarda pulu olmalıdı, əlbəttə. Təhlükəsizlik, sağlam qida, normal yaşayış mühiti olmadan xoşbəxtlik haqqında danışmaq çətindir. Ancaq pul bu binanın yalnız aşağı mərtəbəsidir.

İnsani münasibətlər, məqsədlər, hədəfə çatmaq hissi, özünü reallaşdırma, maraq, yaradıcı enerji, mənalı günlər isə ancaq "üst mərtəbələrdə" olur.

**Beləliklə, insanı xoşbəxt edən onun malik olduğu maddi nemətlər deyil, onları əldə edərkən yaşadığı xoş duyğular və bundan aldığı mənəvi həzzdir.**

**Murad Köhnəqala**

## *Xalq artisti: "Yaxşı ki, tarixin "dayı"sı yoxdur"*



**Xalq artisti Alim Qasımov "Beynəlxalq Muğam müsabiqəsi"ndə münfislər heyyəti sırasında görünməməyinə aydınlıq gətirib.**

Adalet.az xəbər verir ki, sözügedən kürsüyə dəvət olunsa da müsabiqədə münsif olmaq istəmir:

"Dəvət alıram. Amma özüm getmirəm. Mən ora getməməyi öz xasiyyətimlə əlaqələndirirəm. Xasiyyətim tünddür, bildirdiyim irad kiminsə qəlbinə toxuna bilər. Və ya digər münsiflər məndən inciyər. Çox şeylər olur ki, özümü danlayıram. Məndən aslı olmayan şeylər var. Yəni vicdanımın səsini dinləyirəmsə, dürüst olmalıyam. Orda da öz fikirlərimi desəm, həmin uşaqların əmisi, dayısı deyəcək ki, uşağı niyə pərt edirsən?

Həmişə deyirəm ki, yaxşı ki tarixin "dayı"sı yoxdur. Yəni kamil olmayan şeyləri özündə saxlamır, müdafiə etmir. Tapşırıqla idarə olunmur. Ona görə tarix əbədidir. Tarixi vardövlətlə, rüşvətlə yaratmaq olmur. Yəni bu sənətin də yalnız yaxşılarını tarix özünə çəkir. Hər hansı müsabiqədə qalib olmaq da ola bilər, istənilən medalı almaq da olar. Amma tarixdə qalmaq üçün yalnız və yalnız səs olmalı və sənət olmalıdır".

## *Mənzurə: "Hər şeyə sahib oldum, təkcə..."*



**Geniş tamaşaçı kütləsinə sahib olan müğənni Mənzurə Musayeva sosial şəbəkədə ona ünvanlanan sualları cavablayıb.**

Adalet.az bildirir ki, müğənni ən böyük dərdini izləyiciləri ilə bölüşüb:

"İndiyə qədər bütün arzularıma çatmışam. Elə bir şey yoxdur ki, deyim ki, bunu əldə edə bilmədim. Yalnız bir hissi duymadım- Ana olmaq hissini. Hər şeyə sahib oldum, təkcə ana olmadım. Doğrudur, qardaşımın balasını böyütdüm, mənə övlad oldu. Ancaq bioloji olaraq ana olub, o hissi duymaq ayrı dünyadır. Nə edim? Mənə qismət olmadı. Bütün hallarda tale ilə barışıram. Barışmağa məcburam".

**Əntiqə**

## *"İnsanın yaddaşdan və məqsəddən qaçdığı hər yer indidir"*

**"Şou insanın səthi duyğularına xitab edir. O duyğular hamımızda var, amma biz heç bir ciddi prosesdə o duyğulara güvənmirik, istifadə etmirik. Psixi problemimiz yoxdursa, əlbəttə ki. Ciddi məsələlərdə insan məntiqlə, ağılla, təcrübə ilə idarə olunan dərin duyğulara arxalanır. O duyğulara ki, kitablarla nəsildən-nəsilə ötürülür".**

Adalet.az xəbər verir ki, bunu yazıçı Aqşin Yenisey deyib. O bildirib ki, şou kitaba düşmək şansı olmayan duyğuların istehlak mühitidir:

"Bu mühitdə heç nə qalıcı deyil. Ona görə də istər siyasi şou olsun, istər mədəni, qalıcılığı olmadığı üçün şou özünü fasiləsiz istehsal etməlidir. Nəticə yaratmaq gücü olmadığından özünü yaddaşa hesablamamalıdır. Şounun hər növü indi üçündür. Onun dünəni unudulub, sabahı isə olmayacaq. Mədəniyyət və siyasət şou üzərində qurulanda dəyər yaratmaq gücünü itirir. İndi deyilən bir zaman kəsiyi yoxdur. İndini yaddaşsızlıq və məqsədsizlik yaradır. İnsanın yaddaşdan və məqsəddən qaçdığı hər yer indidir. O yerin adı şoudur. İstər siyasi şou olsun, istər mədəni".

**Vasif**

Aqil Abbas və Əbülfət Mədətoğlu ağsaqqal yazıçı **Qərib Mehdiyə** həyat yoldaşı

**Şəfiqə xanımın**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Səməndər və İbrahim Alməmmədlilər **Aşıq İmdad Faxralıya** anası

**Solmaz xanımın**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.


Təsisçi və baş məsləhətçi:
Aqil ABBAS

Baş redaktor:
İradə TUNCAY

Qəzet "Ədalət" qəzetinin bilgisayar mərkəzində yığılıb səhifələnmiş və "Son dakika" MMC Nəşriyyatında ofset üsulu ilə çap edilmişdir.

Müəlliflərin mövqeyi ilə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər.

KAPİTAL Bankın 1 saylı Nəsimi rayon filialı.
kod: 200112 h\h
Müxbir hesab: 0137010001994
S.W.I.F.T. Bik: AIIBAZ 2xhesab N: 38070019411100451111 VÖEN: 1300456161
İndeks:0107 Qeydiyyat nömrəsi 100

Ünvan: Bakı AZ.1073 Mətbuat prospekti, 529-cu məhəllə, "AZƏRBAYCAN" nəşriyyatı, 6-cı mərtəbə.
Telefon: 538-05-50, 538-51-31. 534-55-98 Faks: 539-80-26
adaletqezeti@rambler.ru
adaletqezeti@mail.ru, adaletqezeti@box.az

Tiraj: 1500
Sifariş: 255
Çapa imzalanmışdır: 20.11.2025